Elmar Şahbazov

# OTAQ YOLDAŞIM PİNTİ

Kənd mühitində böyümüş Kənan Bakı şəhərindəki universitetlərin birinə qəbul olur. Elə birinci kursda ikən Arzu adlı qrup yoldaşından xoşlanmağa başlayır. Arzuya sevgisini açmaq istəyən Kənan qrup yoldaşları ilə birgə film izləmək üçün sinemaya gedir. Orda gördüyü mənzərə ilə qıza olan hisslərini gizli saxlamağa məcbur qalır. Bu mənzərə ilə onun qəlbində Arzuya qarşı olan sevgisinin yerini nifrət hissi alır.

Kənan qarşılaşdığı hadisəni unutmaq üçün düşünülməmiş addımlar atır... dəyişik yollara girir. İkinci semestr zamanı danışıq klubunda Günay adlı bir qızla tanış olur. Onunla sevgi münasibətləri yaşayaraq Arzunu unutmağa çalışan Kənan qısa müddət də olsa xoşbəxt olmağı bacarır.

Və nəhayət, yaşadıqlarından sarsılmış qəhrəman məhv olmuş sandığı arzularına yetə bilir...

**Elmar Şahbazov**
**OTAQ YOLDAŞIM PİNTİ**
Bakı, Qanun Nəşriyyatı, 2016, 128 səh., 00 tiraj

Redaktor: Ceyran Abbasova

ISBN 978-9952-36-

© Qanun Nəşriyyatı, 2016
© Aslan Quliyev, 2016

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing

# Yuxu

Salam, dostum, necəsən? Yaxşı olmağını arzulayıram. Artıq bir neçə saniyədir ki, əlində tutduğun bu kitabın əsas mövzusuna keçməzdən öncə sənə bəzi şeylər demək istəyirəm, bu dediklərim yalnız sənin və mənim aramda qalacaq. Başqa kimsə bilməyəcək. Elə sanma ki, zarafat eləyirəm. Zarafat elədiyimi unut. Çünki zarafat eləmirəm. Bilirsənmi, niyə belə yazıram? Deyim niyə, sən də bil. Mən kitab yazıram, bunu bir çoxları oxuyur, bu doğrudur. Amma indi əsas olan sənin oxumağındır, sənin oxumağının fərqi olacaq. Bəs fərqi nə olacaq? Bax, dostum, fərqi o olacaq ki, bu kitabı SƏN oxuyursan. Burada əsas məsələ budur. Sənin oxumağındır. Bunları çoxları oxuya bilər, amma hər kəs sənin kimi anlaya bilməz, yəni sənin anladığını anlaya bilməz. Hər kəs eyni deyil həyatda, anlayışlar da eyni ola bilməz. Belə ki, sən hər kəsin anladığından fərqli anlayacaqsan. Bunu da deməliyəm ki, sən fərqlisən. Dünyada heç kəs eyni olmur, hətta əkizlər belə. Bu əsasdan da, həqiqətən, sən fərqlisən. Bunu qəbul etməyini istəyirəm. Hə, dostum, sən fərqlisən. Gördüyün obyektlər var ha, ətrafında olan hər şey, bax, nə görürsən? Nə var yanında? Əlində tutduğun kitab, olduğun yer, gördüyün bu dünya, bu kainat sənin üçün var, sənin üçün yaranıb. Dinlə, dostum,

bu dünyada baş verən hər şey sənə görədir. Hər şeyin səbəbkarı sənsən. Bu şəhər, bu ölkə, bu dünya, bütün kainat, aləm sənin düşüncələrinin əksidir, həyatda, dünyada nə baş verirsə, onlar sənin düşüncənin bir parçasıdır. Yaxşı, ya da pis – onların hamısı sənlikdir. Onlarda və bütün olanlarda sənin payın var. Səncə, dünya necə bir yerdir? Yaxşı, yoxsa pis? Əgər dünya və yaxud da dünyan yaxşı bir yerdirsə, sən yaxşı birisən. Əgər burada, hətta bu kitabda da xoşuna gəlməyən nələrsə varsa, bax onların da günahkarı sənsən. Bir deyim var, ehtimal ki, artıq bu deyimi eşitmisən, amma mən yenə də sənin üçün onu xatırladım: "Dünyanı düzəltmək istəyirsənsə, özündən başla!" Həqiqətən də gözəl və doğru deyimdir. Ətrafında xoşa gəlməyən bir şeylər baş verirsə, bu səndən asılı deyil fikrini daha düşüncəndən çıxar, o fikri elə bir yerə at ki, bir daha nə sən, nə də bir kimsə tapa bilsin. Bunları sənə ona görə deyirəm ki, daha bir şeylərin fərqinə var və dünyanı, kainatı düzəltməyə başla, dünya sənin düşüncələrindədir. Ümid edirəm ki, istiqamət verməyə çalışdığım yolda hərəkət edəcək və bu yolboyu gördüklərindən, qarşılaşdıqlarından nəticə çıxaracaqsan. Bir də bunu deyim ki, "nə eşitdiklərinə, nə də gördüklərinə", aşkar həqiqətə söykənmədən, vicdan məhkəməsinin doğrulamadığı qərarlarla nəticə çıxarıb hərəkət etmə, inanma.

***

Məncə, bu qədər bəsdir marketinqçilər sayağı yazdıqlarım, ya da bəzi psixoloji kitablar kimimi yazmalı

idim? Hər nə isə... Başqa kitab yazmağa fürsətim olarsa, bəlkə o zaman belə fikirlərdən yazmağı düşünərəm. Daha keçək əsərimizə. Haradan başlayaq, dostum? Heç özüm də haradan başlayacağımı dəqiqləşdirməmişəm. Gəl belə edək: səni səmaya çıxaracağam. Hə, indi bir düşün, səmada olduğunu düşün. Heç bir şeyə tutunmadan səmada qaldığını düşün. Yüksəklərə get, zülmətə sarı. Qaranlıq boşluqda heç bir şeydən asılı olmadan eləcə orada durmusan. O sonsuzluqdan Yer kürəsinə baxırsan, doğrusu, sonsuzluqda deyil, amma boş ver və düşünməyə davam elə. Tam səssizlik və görmədiyin qədər yalnızsan. Bu qədər bəsdir, məncə, orada çox qalmağını istəmirəm, havasız yerdir, ölməyini istəmərəm, çünki yazdığım kitabı oxuyub bitirməlisən. Aşağıya gəl, dünyaya tərəf. Asiya qitəsinin harda olduğunu bilirsənmi? Bu qitədə dünyanın ən böyük gölü olan Xəzər dənizi var. Ona çox böyük olduğundan dəniz deyirlər. İndi sən Xəzər dənizinin qərb sahillərinə tərəf bax. Hə, dostum, səmadan Xəzər dənizində dimdik kimi görünən o torpaq sahəsi Abşeron yarımadasıdır. Səmadan asta-asta ora yaxınlaş, Bakıya gəl. Ah, uça bilsəydik, nə gözəl olardı, hər yerə uçaraq gedərdik, sən də xəyalən uç. Hardasan indi? De, sənə istiqamət verim, məni tapa biləsən. Daha burada dayanaq, çünki özüm də bezdim. Səni Bakıya ona görə gətirdim ki, oxuduğun bu əsəri yazdığım zaman necə bir yerdə yaşadığımı biləsən. Mən doğma-böyümə bu şəhərdən deyiləm, mənim üçün bura qərib diyardır. Burada ailəmdən, yaxınlarımdan, bir çox dost-tanışlarımdan uzaqdayam.

Respublikamızda olan əksər ali təhsil müəssisələri Bakı şəhərində yerləşir və mən həmin müəssisələrin birində tələbə olduğum üçün burada yaşayıram. "Otaq Yoldaşım Pinti" adlandırdığımız bu kitabda da sənə Bakı şəhərində yaşadığım tələbə həyatından bəhs edəcəyəm. Sənə bu adla bir sıra əhvalatları danışacağam. Sən də bəlkə tələbəsən, bəlkə də olmusan, bəlkə də olacaqsan, bəlkə də... bəlkə də... bəlkə də... sıranı artırmaqla davam edə bilərəm. Amma onu da bilirik ki, hər il dünya əhalisinin 3-4 faizi universitet həyatına qədəm qoyur. Geridə qalan 96-97 faiz insansa bakalavr təhsilindən müxtəlif səbəblərdən məhrum olur. Tələbə həyatı yaşayanlara "Otaq yoldaşım Pinti" bir xatirə olacaq, tələbə həyatı yaşamayanlar üçünsə tələbəlik necə bir hissdir, tələbəlik necə keçir, ən azından mənim gördüyüm bucaqdan görsənən mənzərəni təsvir etməyə çalışacağam. Mövzuya keçməmişdən öncə onu da deyim ki, mənim üçün tələbəlik qarın ağrısından sonra unitazda gördüyünüz şeydir. Lakin etiraf edim ki, çox gözəl tərəfləri də var.

***

Mən bu şəhərdə bir çoxları, bəzi dostlarım kimi kirayə evdə yaşayıram. Artıq neçə kirayə ev dəyişdiyimin sayını unutmuşam. Ürəyim sıxılır, dəyişiklik yaşamaq istəyirəm. Nəticə olaraq da kirayələrdə gəzirəm. Bu dəfəki kirayə evi Qaraçuxurda tutmuşam – Qaraçuxur qəsəbəsində. Yeni yaşamağa başladığım bu kirayə evdə qəribə hadisələr baş verir. Artıq qorxmağa başlamışam. Bu gün bu zibil məni boğacaq və öldürəcək deyə ya-

man qorxuram. Ruhlara inanırsanmı, dostum? Saysız insan inanır. Mən səni əmin edə bilərəm ki, burada baş verənlərin ruhlarla heç bir əlaqəsi yoxdur. Məni boğacaq və öldürəcək dediyim şey isə qazdır. Burada hardansa qaz sızıntısı baş verir. O gün hamamda əlimi yuyanda qapı gurultu ilə açıldı. Bunun qaz sızıntısından olduğunu sezmək elə də çətin deyildi. Beləcə, məlum oldu ki, sızıntı haradandır. Bu gurultular-partıltılar hamamda suyu qızdırması üçün istifadə edilən qızdırıcıdan sızan qazla olurmuş. Mən sızıntı barədə ev sahibi ilə danışmaqdan yorulmuşam, ev sahibi isə "axşam düzəltdim" deməkdən yorulmayıb. Artıq belə hadisənin 3 dəfə şahidi olmuşam. Onlardan biri daha qorxulu idi. Yaxınlarda evi dəyişmək fikrindəyəm. Mənim qorxularıma baxmayaraq, olanlar əsərin qəhrəmanının, otaq yoldaşımın qulağına da deyil. Sanki içində zərrə qədər də qorxu yoxdur.

Otaq yoldaşımla yeni dost olmuşam. Onunla bu il fevralın ortalarında tanış olmuşam. Doğrusu, heç adını da dəqiq bilmirəm. Mən ona "Pinti" deyə səslənirəm, həmişə də belə deyəcəyəm. Çünki o həqiqətən də pintidir, həm də bu ad onun görünüşünə çox yaraşır. O Pinti var ha, kirayə pulu vermir, yemək bişirmir, qab yumur, qısası, heç nə etmir. Haqqına girməyim, etdiyi bir şey var. Bəy Pinti bütün günü yatmaqla məşğuldur. Onu tapmaq istəsən, bizim kirayə evdə, yataqda tapa bilərsən. Danışan biri deyil, susmağı seçib. Bəlkə də laldır? Elə bil onu kimsə söyüb danışarsa deyə. Mən bu Pinti ilə birlikdə öz evimdən, ailəmdən, dostlarımdan

uzaqda qalmaqdan bezmişəm artıq. Pinti həyatımda hər şey sanki təkrar-təkrar baş verir. Hər gün eyni yerə get-gəl, yemək bişir, yemək ye, qabları yu, paltarı yu, yudunsa, ütülə – günlük təkrar, həftəlik təkrar, aylıq təkrar, həqiqətən sıxıcıdır. Heyif deyilmi evdə?! Hazırlayıb çağırırlar, bir az naz edib sonra gedirsən minnətlə hazır yemək yeməyə. Yeyib bitirdikdə qablara da əlin dəymir, hazıra nazirsən yəni. Nazir olduğum vaxtlar yadıma düşdükcə kədərlənirəm lap. İndi kirayə qaldığım yerdə bir otaq mənə məxsusdur. Mətbəx kimi adlandırılan yerisə kirayə qonşumla bərabər istifadə edirik. Həmçinin hamam-tualet də bu cür. Mənim kirayə otağım qızcığaz otaqları kimi çəhrayı rənglə rənglənmiş, bir pəncərəli, bir yataq və stoldan əlavə əşyaların sığmayacağı qədər kiçikdir. Bu çəhrayı divarlar arasında həyatla mübarizə aparıram, dostum. Gündə bir dəfə yemək yeyirəm, o da mədəmin ağrısından. Ac qalmağım yeməyə bir şeyin olmadığından deyil, yemək bişirməyə, həm də yeməyə ərindiyimə görədir. Yemək bişirmək, qarına ötürmək bir yana qalsın, yedikdən sonra tualetə getməyə də ərinirəm. Elə ən xoşuma gəlməyən şeylərdir – yemək ye, tualetə get, yemək ye, tualetə get. Təkrar-təkrar eyni şeyləri nə qədər etmək olar? Bir ömür, bir ömür boyu tualet yollarında vaxt itirmiş olacağıq. Qarınla tualet məsələsinin bir çarəsi olaydı kaş. Bu barədə az da olsa fikirləşdim, amma bir çarə tapmadım. Hindistanlı Prahlad Janidən[1] savayı fəhlədən liderə hər kəs çarəsiz halda tualetin yolunu ölçəcək.

[1] Prahlad Jani – 70 ilə yaxındır yemək yeməyən və su içməyən hindistanlı yoqdur.

Dostum, artıq dərsin vaxtı yetişib. Gəl birlikdə gedək, səni Akademiyamıza aparım. Məncə, getmək istəyərsən. Səni dostlarımla tanış edəcəyəm. İndi paltarlarımı geyinirəm, mənə tərəf baxma. Axı sən naməhrəmsən. Aynaya baxır və bir yaraşıqlı oğlan görürəm, bax, o yaraşıqlı mənəm. Yenə çox danışdım, vaxt gedir. Gedək dayanacağa, ayaqqabılarım da yaman kirlənib. Siqaret çəkirsənmi? Ən yaxşısı çəkmə, mən sənin əvəzinə çəkirəm. Ətrafı şüşə ilə örtülü dayanacağımızda gözləyək bir az, aha, avtobus gəlir, gəl minək, yolpulu mənlikdir. Dostum, belə getmək bezdirib məni. Dünən təpili-tıxılı avtobusda sürücü: "ortaya keçin, yer var", – deyirdi. Mən də əsəbi halda: "Hara keçək? Yer var? Üst-üstə çıxaq? Ya ələ salmısız milləti?" – dedim. Bəziləri buna gülür, sürücü ilə konduktor isə tərs-tərs mənə baxırdı. Sağ olsunlar: "Düz deyir də, milləti yığmısız ağız-ağıza, yer var? Hara keçək?" – deyərək bəzi əsəbi sərnişinlər dəstək vermişdilər mənə. Sürücü susmaq bilmir: "Elə isə taksi ilə gedin, minməyin avtobusa" – deyə bu cür sözlərlə davam edirdi. İki-üç gün əvvəl elə danışan bir avtobus sürücüsü var idi. Səbri tükənmiş sərnişinlərdən biri salıb aşağı it balası kimi çırpdı. Qadın-uşaq bilmədən bir-birlərini söyürdülər. Başım qarışıb danışmağa, artıq çatırıq. "Qarşıdakı dayanacaqda saxlayın, bir zəhmət". Dostum hazırsanmı? Daha çatmışıq. Gəl, gəl, utanma. Amma asta-asta yeriyək. Tələbələrdən xoşuma gələn bir qız var, arxamızca gəlir, izin verək bizə çatsın. Dostum, sən kimisə sevmisənmi heç? Bilirsənmi sevgi necə bir hissdir? Mən o qızı hər görəndə sinəmdə

qığılcımlar uçuşurmuş kimi bir hiss yaranır içimdə, ürəyim sürətlə çırpınmağa başlayır, ayaqlarım özünü itirir, beləcə, özümü itirirəm. Ona onu sevdiyimi demək istəyirəm, onun adı Arzudur. O, həqiqətən də mənim üçün arzudur. Arzunun çox gözəl parlaq gözləri, kiçik dodaqları, ortadan ayıraraq, belinə tökdüyü qəhvəyi rəngə çalan saçları, şipşirin təbəssümü var.

– Salam, Arzu, necəsən?

– Yaxşıyam, Kənan, sən necəsən?

– Mən də yaxşıyam, çox sağ ol, bu mənim dostumdur...

– Kim sənin dostundur?

– Eee... heç, heç, çaşdım, dərslər necə gedir?

– Yaxşıdır, səndə necədir? Gecikirik, dərsə gedək...

– Hə, sən get, mən də bir azdan gələcəyəm, hələlik. Ah, dostum, Arzu mənim dəli olduğumu düşünəcək. Ona səni göstərmək istədim, unutmuşdum, sən yalnızca bu kitabı oxuyursan və səni yalnız mən görürəm. Gedək, gedək. Sağ tərəfə bax, orada siqaret çəkənlər mənim dostlarımdır, sağdakı Zamin, onun yanındakı Fəxrəddin, soldakı Mehman, siqaret çəkməyən isə adaşım Kənandır. Aramızda bircə adaşım siqaret çəkmir. Kənan bizdən siqaret almasa da, heç çəkməsə də, ondan siqaret pulu almaq istəyirik. Çünki biz siqareti filtrindən az-az çəkirik, o isə havadan bizim çəkdiyimizdən çox çəkir. Pulumuzu da vermir.

Dostum, sənlə belə birlikdə gəzsək, çox yazmalı olacağam, ən yaxşısı sən get, yat, bundan sonra nələr olduğunu mən sənə danışacağam.

***

Hə, dostum, inanmıram yatasan, yəqin ki, oxumaqda davam edirsən. Bəlkə də yatmışdın, bilmirəm, amma onu bilirəm ki, hazırda oxuyursan. İndi sən 5-6 saat keçdiyini fərz elə, elə düşün ki, sən mənim yaşadığım kirayə evdəsən, mən də Akademiyadan evə qayıtmışam və yenə də söhbətimizə davam edirik. Ah, dostum, düşünmək çox gözəldir, məhdudiyyətsizdir. Bizim əlimizdən çox şeyimizi ala bilərlər, amma düşüncəmizi heç vaxt ala bilməzlər. Düşün ki, əsərimin içindəsən, biz evdəyik, xəyalən, otaq yoldaşım Pinti bax gör, nə edir? Hər zamankı kimi, o yatmağındadır: “Hey, Pinti, mən gəlmişəm, oyan, tük yığını, az yat”.

Boş ver, dostum. Söz verdiyim kimi, bu gün Akademiyada nələr oldu, danışım. Deməli, dərsdə Arzu yanımda oturmuşdu. Elə həyəcanlanmışdım ki, ürəyim yerindən çıxacaqmış kimi çırpınırdı. Onu çox sevirəm, evlənəcəm onunla. Hə, bu gün mənim prezentasiyam var idi. Mövzu “qəsdən iki və ya daha çox şəxsin öldürülməsi, Cinayət Məcəlləsi maddə 120.2.7.”-dən. Yaraşıqlı olduğum kimi müdrik və çox səlis dərs danışmağım var. Belə ki, həmin təqdimatımdan 9 bal aldım, məni təbrik elə. Akademiyada olanlardan bir şeyi nəzərə almasaq, demək olar ki, günüm yaxşı keçdi. Nəzərə almayacağımız şey dərsdə mədəmin zurna çalmasıdır. Daha xəcalətimdən nə edim, bilmirdim. Başına gəlməsin. Özümü əzib-büzürdüm, gah qarnımı sıxır, gah da qarnıma hava alaraq şişirdirdim ki, səs çıxmasın.

Yenə də düzəlmirdi ki, düzəlmirdi, elə bil zibilə tütək veriblər. Elə ki səsi eşidirdim, başqaları da eşitməsin deyə başlayırdım danışmağa. Amma hər dəfə də nəsə bəhanə edib danışmaq olmur axı. Həm səsin nə vaxt çıxacağını bilmək olmur, həm də dərsdə çox danışdığıma görə az qalmışdı ki, müəllim sinifdən çıxarsın məni. Ən çox utanıb, pis olduğum isə Arzunun: "Utanma, hər kəsdə olur, yemək yeməmisənmi?" deməsi oldu. Mən də yalandan ona: "Yooo... yemişəm, axmaqlığı tutub" – deyərək mövzunu zarafata saldım, amma rəngim qırmızılığına saldı. Nə isə, buna görə kefimi pozan deyiləm. Bu gün iki dəfə 9 bal almışam. Özümə şənlik, yeyib-içmək edəcəyəm, soyuducuda 3 dənə yumurta olmalıdır, iki dənə də kartofum var. Bişirib nuş eləyəcəyəm. Ac olanda adam nə yeyirsə ləzzət edir, özü də ki, yemək az ola, o zaman daha da ləzzətli olur. Aa... telefonuma zəng gəlib, bu, dostum Zaminin nömrəsidir. Evə gəlməzdən öncə, Akademiyada birlikdə olduğumuz vaxt söhbət edəndə onların qaldığı kirayə evə gələcəyim barədə ona söyləmişdim. Haydı, düzələk yola. Sabah onlarla birlikdə "Work and travel" ilə Amerikaya getmək barədə məlumat almaq üçün "Nizami"də yerləşən "Caspian Plaza"ya getmək istəyirik. Amerika işi alınsa, həm səyahət etmiş olaram, həm də pul qazanaram. Bu təşkilat ancaq 1, 2, 3-cü kurs tələbələrini bu layihəyə aid edir, vaxt ötürmək istəmirəm. Amerikaya gedən tələbələrin xeyli fayda əldə edərək geri qayıtdığını eşitmişəm, həm dil öyrənirlər, həm pul qazanırlar, həm də dünyagörüşlərini inkişaf etdirmiş olurlar. Bir dəfə

bibim oğlu mənə "dostum 3 aydan sonra 30 min dollarla qayıtmışdı" – deyəndən sonra Amerikaya getməyə daha da həvəsləndim. Sən də get, dostum, həm səyahət edərsən, həm işləyərsən. İngilis dilini də öyrənmiş olarsan. Mən hələ getməmişəm, amma çoxdandır ki, xəyalını qururam. Bir düşün, getmişəm, 3 ay işləmişəm, Nyu-Yorku görmüşəm, ingilis dilində rahat danışıram, cibimdə 30 min dollar, ohhh. Gələn kimi ikinci əl maşın alaram. Son zamanlar maşınların qiyməti çox aşağı düşüb, 7-10 min manata özümə yaxşı maşın ala bilərəm. Maşın almaq bir çox gəncin arzusu olduğu kimi, mənim də arzumdur. Maşınla vaxtına qənaət etmiş olur, avtobuslarla 1 saata getdiyin yolu 15 dəqiqəyə başa vurursan. Maşınım olsaydı, Arzum ilə birlikdə gedib-gələrdik Akademiyaya. Ah, mənim gözəl xəyallarım. Mən də vaxtıma qənaət etmək, arzuma yetmək istəyirəm. İndi ən tez yetmək istədiyim arzum təkcə Arzudur, qalan heç nə maraqlandırmır məni. Amma hələ mən Arzuya onu sevdiyimi deməmişəm. Bütün gücümü toplayıb gedəcək, əllərini tutaraq qarşısında diz çöküb: "Səni dəlilər kimi sevirəm, mənimlə bir ömür yaşamaq xoşbəxtliyini mənə bəxş edərsənmi? Mənimlə evlənərsənmi?" – deyəcəyəm. Ehh... Yox əşi, həmən romantik türk filmlərinə getdi ağlım. Hələ yaşım çox azdır, atam özü 40 yaşında evlənib, Arzuya eşqimi etiraf etmək bir yana, atam evlənmək istədiyimi eşitsə, cırar məni. Kaş elə hər şey o filmlərdəki kimi olsa. Bizim kimi gənclər də o filmlərə baxıb elə bilirik ki, həyat o filmlərdəki kimidir. Aksiyon filmlərinin əksəriyyətində filmin baş qəhrəmanı

necə, nə qədər ölüm təhlükələrindən qıl payı canını qurtarıb ölmürsə, o səhnələri necə qabardıblarsa, sevgi filmlərinin də romantikasını eynilə elə qabardıblar. Sənə bunları danışa-danışa mən artıq Zabrata, dostlarımın kirayə tutduqları evə gəldim. Hər biri ilə görüşüb hərəmiz bir tərəfdə oturub söhbət edir, çay içir, ordan-burdan danışırıq, sən də duyursanmı? Yenə mən, Zamin və Fəxrəddin siqaretimizi çəkməkdəyik. Yenə də adaşım Kənan bizim hesabımıza tüstünü havayı çəkir. Kənan bir əlində alma, qulağında qulaqcıq kompüterdə nəyəsə baxır, ya da nəyəsə qulaq asır. Mən ona yenə "siqaretin pulunu ver" dedim, qulaqcıqları çıxarıb mənə baxdı: Necə yəni?" – dedi. Mən yenə eyni şeyi təkrar etdim. O dərhal qulaqcıqları qulaqlarına keçirib kompüterlə oynaya-oynaya almasını yeməyə davam etdi. Ah, dostum, bu müasir zamana bax, hərənin əlində bir texnologiya zımbırtısı, söhbət yaddan çıxıb. Zamin, Kənan, Fəxrəddin də uşaq kimi oyun oynayırlar. Bəlkə eşitmisən, "Clash of Clans" oyunu, elə bil uşaqdırlar. Allah bunlara ağıl versin. Son zamanlar, demək olar, hər kəs bu oyunu oynayır, kiçikdən-böyüyə hər kəs. Hə, bu arada mən də oynayıram, 60-cı səviyyədəyəm. Amma mən arada oynayıram, qınama məni. Dostlarımdan nə Zaminin, nə Fəxrəddinin, nə də Kənanın sevgilisi var, yalnız yazıqlar bu oyunlarla vaxt keçirirlər. Doğrusu, bir-iki dəfə parkda kiməsə yaxınlaşıblar, yaxınlaşdıqları da imtina edib, qırıb bunları. Bir dəfəsində Fəxrəddin bir qıza yaxınlaşıb tanış olmağı bacarmışdı. Fəxrəddin qoçaq tanış olduğu qızla gedib şəhərin mərkəzində bahalı bir kafedə oturub

çay içiblər, hesab 25 manat tutmuşdu. Bədbəxtlik burasındadır ki, Fəxrəddin qızın nömrəsini ala bilməmişdi, yəni anlayacağın quş pır-pır edib əlindən uçmuşdu. Düzdür, bunun sevgi ilə əlaqəsi yoxdur, amma belə şeylərdən ehtiyatlı ol deyə danışıram sənə. Dostlarımın sevgilisi olmasa da, çox yaxında mənim sevgilim olacaq, az qalıb. Bu sevgilisiz dostlarımın daha bir əhvalatından danışım sənə. Deməli, bunlar instaqramda bir qızla tanış olublar, həmin qıza Zaminin şəklini atıblar, Kənan qızla yazışıb, Fəxrəddin də danışıb. Necə bir yoxsulluqdursa, belə bölüşdürmələr aparıblar. Mən də onlara: "Siz bu qədər iş görmüsüz, gerisini də mənə buraxın" – dedim. Ölkəmizin əhalisinin 51 faizi qadın olsa da, qız yoxsulluğu dalğası, görünür, məndən də yan keçməmişdi. Tamam, dostum, yorulmamısan ki? Yorulmusansa, bir az kitaba ara ver, amma çox uzağa getmə, səni bütün günü burada gözləyəsi deyiləm. Əlbəttə ki, zarafatdır, incimə. Bu kitabı illər boyu bir qırağa atıb oxumaya bilərsən.

***

Bax, dostum, sənə yenə kitabdan kənara çıxıb bəzi şeylər demək istəyirəm. Birinci olaraq onu deyim ki, kitabın əvvəlində dediklərimi bir söz yığını kimi qəbul etmə. Qəbul etməyəcəyinə ümidvaram. İndi de mənə, səncə, yalan danışmaq asandır, yoxsa doğru danışmaq? Məncə, yalan danışmaq heç də asan deyil. Ən böyük oyun doğru danışmaqla oynanılır. Yalan danışdıqda isə yalanın qulu olur, dediyin kəlməyə uyğun olmaq məcburiyyətində qalırsan. Amma azadlıq kimi

dadlı bir şey yoxdur. Sənə sözlərinin, həyatının ağası olmağı məsləhət görürəm. Məsləhət görmək necə də asandır! Kaş özüm də dediklərimə əməl edə bilsəm. Dinlə, dostum, artıq mən sənə xeyli yalan danışmışam, nəticədə yazdığım bu kitabda sözlərin qulu olub, reallıqdan kənara çıxıb, fərziyyələr uydurmuşam və səni də yalan həyata qonaq etmişəm. Daha hər şeyi doğru, real zəmində danışmaq, mövzumu daha emosional etmək istəyirəm. Mən vərəq üzərində yalan danışdım, vərəqdəki yalanı, bu yalan həyatı düzəldə bilərəm, amma real həyat nə sənə, nə mənə bu fürsəti verər. Ona görə sən, sən ol, doğrularla yeri yerindən oynat. İndi isə, mənim əziz dostum, sənə doğruları demək istəyirəm. Sənə göstərdiyim şeylərin bəziləri yalan idi, bəziləri isə doğru, yəni müasir media kimi. Hər şeyi lap əvvəldən danışacağam, boş-boş yalanlarla səni yorduğum üçün üzgünəm. Daha səninlə də bu vərəqdə vidalaşmalıyam, çünki əvvəlki həyatımda sən yox idin. İncimə məndən, yenə görüşəcəyik, hələlik, dostum.

# Həyat

İki il bundan öncə, abituriyent olduğum vaxtlarda başqa bir şəhərdə, evimdən uzaqda, hazırlıq kurslarında idim. Həmin kursun abituriyentlər üçün olan yataqxanasında qalırdım, ora həbsxanadan betər bir yer idi. Yataqxananın balaca yataq otaqlarında ən azı 10 nəfər, böyük otaqlarında 18 nəfər uşaqla birlikdə qalmaq məcburiyyətində idim. Səhərlər yuxudan oyanıb, otaqdan bayıra çıxıb yenidən otağa qayıtdıqda 18 nəfərin otağa buraxdığı üfunətli havanın qoxusunu duymaq olurdu, bir üfunət iy gəlirdi ki, elə pis qoxu duyulurdu ki, sanki içimizdə adam ölmüşdü! Kursun ikinci mərtəbəsini tutan, 80-100 nəfərlik abituriyent yataqxanasında əl-üz yumağa sadəcə 2 kran, çimmək üçünsə 3 duş var idi. Yemək vaxtı sıraya düzülür, növbə gözləyirdik. Çox vaxt da növbə pozuntusuna görə uşaqlar arasında mübahisələr olurdu. Bu mübahisələr, demək olar ki, hər gün baş verirdi. Yataqxana nizam-intizam qaydalarına görə biz səhər 7-də qalxıb axşam 12-də yataqda olmalıydıq, ən pisi isə o aralıqda, sadəcə, gözümüzü kitaba dikməli idik. Oradan kənara çıxmağa icazə yox idi, sadəcə, bazar günləri 3 saat ərzində kənarda olmağa icazə verilirdi. O 3 saatın necə gəlib-keçdiyini heç anlamaq da olmurdu. Kurs həyətindən icazəsiz kənara çıxan bəzi dələduz uşaqlar olurdu, onlar özbaşına hərəkətlərinə

görə kurs müdiriyyəti tərəfindən cəzalandırılırdılar. Bəzilərini çarmıxa çəkmişdilər, bəzilərini isə günlərlə susuz buraxırdılar yaza bilməyəcəyəm, ona görə ki, sadəcə, kursdan uzaqlaşdırır, evə xəbər edirdilər. Yataqxana müdiriyyəti çarmıxa-filana çəkməsə də, valideynlərin nə edəcəyini özün bir düşün! O üzünü çevir, tüpürsünlər, bu üzünü çevir, tüpürsünlər. Çimməyə ehtiyacın qalmır. Bütün günü yataqxanada olmaq bilirsənmi necə streslidir? İcazəsiz bayıra çıxanları qınamaq olmur, adamın orada ürəyi partlayırdı. Hələ bizim bir pis yataqxana müdiri var idi. Ona hələ də nifrət edirəm. İstək qutusunu ondan şikayət yazmaqla doldurmuşdum. Həmin o pis müdirdən əvvəlki müdir isə çox yaxşı insan idi, uşaqlarla necə dost kimi, bir qardaş kimi əlaqə yaratmaq lazım gəldiyini bilirdi. Orada qaldığım zamanlar yataqxanada yaşayan abituriyentlərlə saysız mübahisələrim, davalarım olmuşdu. Günlərin birində birini altıma yıxıb təpikləyirdim, sonra buraxırdım, yenə üstümə cumurdu, yenə yıxıb təpikləyirdim. Biri də var idi, onunla savaşanda burnum partladı, gözümün altı qaraldı. Çünki əlimi tutmuşdular, buraxsaydılar, parçalayardım onu, inan mənə. O tarixi unuda bilmirəm, aprelin 14-ü, 2014-cü il, saat günorta 3 olardı. Həmin adamı kənarda görsəm, dalını təpikləyəcəyəm. Daha bundan danışmaq istəmirəm, kefim pozuldu. Mənim yataqxanadan dostum var, adı Əhməddir, 1-ci qrup üzrə hazırlaşırdı. Dərslərini yaxşı oxuyan, yaraşıqlı dostumla ilk tanışlığımızın çox xoş olduğunu deyə bilməyəcəyəm. Çünki mən onların qaldığı yataqxana otağına girib sö-

yüş söymüşdüm, buna görə də Əhməd səsini atmışdı başına, özünü öldürürdü. Ona görə yox ki, mən ona, ya da başqa kiməsə ağır söyüş söymüşdüm. Əhməd özünü ona görə didib-tökürdü ki, həmin otaqda söyüş söyənlər cərimələnməli idilər, mən isə cərimələnməmişdim. Əhmədinsə pulu qalmamış, cəriməyə ödəmişdi. Mən onların otağının qayda-qanununu bilmirdim deyə söyüş söymüşdüm, amma qanunu bilməmək məsuliyyətdən azad etməsə də, onların cılız qanunundan azad olmuşdum. Əhməd o zamanlar heç bir dinə-məzhəbə qulluq eləmir, Allaha inanmırdı, bunu məndən bir il gizlətmişdi nədənsə. O vaxtlar Əhməd özünü elə aparmışdı ki, mən onun bir il əsl müsəlman olduğunu sanmışdım. Sünnət olmuş, lakin müsəlman olmayan, hətta kərbəlayı bir imansız imiş, sən demə. İmansızlığını bildiyim dostumla birlikdə teizm və ateizmlə bağlı uzun-uzadı söhbətlər edirdik. Mən ona Allahın varlığını sübut etməyə, bu mövzuda olan mürəkkəb fikirləri aydınlaşdırmağa çalışırdım. O da öz növbəsində əks-arqumentlər gətirir, fikirlərimi inkar edirdi. Əhmədin inancının olmamasına baxmayaraq, onun düşüncəsi, insanlığı, qəlbinin saflığı əksər dindar kimi özünü qələmə verənlərdən, saqqalına altdan-üstdən xətt atmış, uzun qollu, uzun ətəkli köynək geyinib, başında araqçın, əlində çərəkə gəzdirən, dini atributlarla dona girmiş dindarlardan dəfələrlə yaxşıdır. Realda da tanısan, görərsən ki, necə yaxşı insandır, səndən yaxşı olmasın. Onunla bu kimi söhbətlərdən sonra Allahın varlığı ilə bağlı içimə şübhə düşmüşdü. Daha sonralar Əhmədlə

mövqelərimizi dəyişmişdik. Mənim kursu bitirməyimə, TQDK-ya sənəd verməyimə 2-3 ay qalırdı. Həmin vaxtı kursdan dönüb evdə hazırlaşmaq qərarı aldım. Çünki son aylar kursda hazırlaşmaq çətinləşmişdi. Demək olar ki, vaxtımızın çoxunu çay içməklə, meyvə yeməklə, boş-bikar keçirirdik. Bu isə mənə yaxşı görsənmirdi. Bu kimi bir çox səbəblərə görə evə qayıtmışdım. 2014-cü il, may ayının axırları idi, həmin vaxtlar mən də bütün 11-ci siniflərin etdikləri kimi məktəbli sinif yoldaşlarımla "Son zəng" hazırlıqları görürdüm. Məktəbdə balonlar şişirdir, divarlara rəngli kağızlar yapışdırır, stol-stul daşıyıb tədbir keçirəcəyimiz otağa yığırdıq. "Son zəng" tədbiri ilə əlaqədar mayın 26-sı rayon bazarına getmiş özümə yeni geyimlər almışdım. Bir çox məzunlar kimi ağ köynək, qara şalvar, ayaqqabı-filan alıb, məktəbə yeni başlayacaq uşaqlar üçün hədiyyələr seçdim. Hədiyyə vermək üçün mənim adıma iki nəfər uşaq düş-müşdü. Bu səbəbdən də iki hədiyyəyə pul xərcləmək məcburiyyətində qaldım. O uşaqlar aldığım hədiyyələri bəlkə də xoşlamayacaq, sevməyəcəkdilər, amma 11-12 il oxuduqdan sonra həmin hədiyyələri yenidən görəcək-lərinə əmin idim, nə 11-12 il, bir ömür xatirə qalacağına. İki uşağa da aldığım hədiyyənin məbləği bərabər ol-muşdu, birinə böyük çərçivəli şəkil almışdım. Digərinə isə gipsdən hazırlanmış böyük çita heykəli. Bunlar elə hədiyyələr idi ki, çətin bütün uşaqların etdikləri kimi sındırıb-dağıdaydılar. Bazardan uşaqların hədiyyələrini, özümə aldıqlarımı qoluma vuraraq evə qayıdıb əl-üzümü yumaq üçün hamama getdiyimdə evdə aldıqla-

rım barədə danışıqlar başlamışdı artıq. Əl-üzümü yuyub quruladıqdan sonra xəstələnmiş nənəmin olduğu otağa getdim. Nənəm də məni görcək sevinclə: "Gətir baxım hələ hədiyyələrinə, görüm sənə nə alıblar?" – dedi. Ah, yaşlı nənəm, elə sanırdı ki, artıq "Son zəng" olub, mənə hədiyyə veriblər. Evdəkilər nənəmə anlatmışdılar ki, onlar mənim uşaqlar üçün aldığım hədiyyələrdir. Nənəm də bunu anladıqda: "Əhh, oyana elə, elə bildim, hədiyyə veriblər sənə", – demişdi. Mən də gülərək otaqdan ayrılmışdım. Sabahısı gün məktəbə gedib sinif yoldaşlarımla birlikdə "Son zəng" hazırlıqlarını davam elətdirdik. Mən yenə bir xeyli stol-stul daşıdım. Balon şişirtməkdən sinəm çıxmışdı, sel kimi tər axırdı bədənimdən, işləyərkən özümü çox yorğun hiss edirdim. Oradakı işlərin bir qismini etdikdən sonra hərə bir küncdə oturub dincini aldığında "Son zəng" üçün yazdığım məqaləmi istirahət edən sinif yoldaşlarıma oxudum. Məqaləmi duyduqlarında bir neçəsinin gözləri dolmuşdu, əsas da ki, qızların. Hələ bundan başqa, meyxana sözləri də yazmışdım, onu sinif yoldaşım, həm də yaxın dostum olan Toğrulla birlikdə oxuyacaqdıq. Toğrul hündürboy, enlikürək, dava-dalaşı sevən, dediyindən dönməyən, həm də ürəyiyumşaq, mərd oğlandı. Mən və bu mərd oğlan qabaqcadan həmin sözləri əzbərləmiş, "Son zəng"də guya bədahətən deyirmişik kimi artistlik edəcəkdik. Toğrulla meyxana barəsində çənə vurub, sinif yoldaşlarımla sağollaşaraq məktəbdən ayrılıb evə gəldim. Günün axşamı oğlan dostlarımla yığışıb çay içərək musiqili meyxanamızın ritmini tutmaq

üçün çalışdıq. Meyxananın sözlərini mən yazdığım üçün Toğrula harada necə vurğu qoymaq, hansı tempdə oxumaq lazım gəldiyini göstərirdim. Hə, dostum, alınırdı bu bizdə. Hər şey yerli-yerində, super gedirdi. "Son zəng" yaxınlaşdıqca həyəcanlanırdım. Bir şeyə az qalmış da, elə bilirsən ki, nəsə olacaq və sən o şeyə yetə bilməyəcəksən sanki. Belə fikirlər insanı daha da həyəcanlandırırdı. O qədər illəri saatlar içində sonlandıracağımız günə cəmi 3 gün qalmışdı, həyəcan zirvədəydi. O 11 il gözümün önündən bir film kimi keçir indi, həqiqətən də çox gözəl illər idi. Universitet illəri o illərin yerini vermir, dostum.

# Həyatın dəyişməyən üzü

Axşam qalstukumun olmadığını, qalstuksuz tədbirin keçməyəcəyini düşündüm. Səhəri gün – mayın 28-i kəndimizdən 14-15 kilometr aralı olan rayon bazarına yollandım. Bu bazar həm köhnə, həm də dağınıq bir bazardır. Hər şeyin düzülüşü yerli-yersiz, çox səliqəsiz olmasına baxmayaraq, bu bazar bütün rayon camaatının əsas alış-veriş mərkəzidir. Bazara girib bir az gəzib-dolanıb axtarış etdim, azlıqdan çarəsiz qalıb çox da xoşuma gəlməyən bir qalstuk aldım. Bazardan çıxıb kəndimizə işləyən marşrut avtobusuna oturdum. O böyüklükdə marşrutda məndən başqa cəmi iki nəfər adam var idi. Hava da o qədər isti idi ki, o havada iti qovalasan, çölə çıxmazdı, amma bu üç nəfər çıxmışdı. Gün düşməyən pəncərə qırağında yer seçib, şüşələri açıb özümü küləyə verməyə başladım. Avtobusun hərəkət vaxtı kəsdiyi küləyin üstümə çırpılmağına baxmayaraq, bütün bədənim tər içində idi. Kəndə az yol qalmış cibimdən tərdən islanmış telefonumu çıxarıb baxdığımda qardaşımdan mesaj gəldiyini gördüm. Mesajı açıb oxumağa başladım: "Hardasan? Atam əsəbiləşib". Mesajı oxumuşdum ki, atamdan zəng gəldi. Ta bu vaxta kimi hər şey çox gözəl gedirdi. Telefonu açdıqda dünya əhvalımı unitaz edib üstündən su da tökmədi. Telefonu açdım: "Telefonuna niyə zəng çatmır? Tez evə gəl, nənənin əhvalı pisdir", – dedi atam.

Mən həyəcanlanmış: “Hə, yaxşı”, – deyib telefonu söndürdüm. Dayanacaq olmayan bir məkanda marşrutu durdurub endim. Yolda taksi saxlatdırıb oturduğumda əmimin maşınla yanımızdan sürətlə şütüyüb kəndə tərəf getdiyini gördüm. Mən daha da qorxmağa başladım. O anlar ürəyim hər döyünəndə sanki bir damarı qırılır, əzab vermək üçün birləşir, təkrar qırılırdı. Taksiyə oturub sürətlə sürməsini istədim, amma taksidə başqa müştəri də olduğundan bu məni zaman etibarilə 4-5 dəqiqə geri atdı. O qoyun müştəri taksidən enəndə xırda pulu yox idi, pulu xırdalamaq üçün tələsik cibimdən 50 manat xırda pul çıxartdım, o qoyun şit gülümsəmə ilə 20 manat göstərdi mənə. Əlbəttə, buna çox əsəbiləşdim. Sonra qoyunluğun özümdə olduğunun fərqinə varmışdım, mən niyə 50 manat üçün xırda pul çıxarmışdım ki? Bu, bəlkə də, həyəcandan idi. Nənəm can verir, mən isə yolda yubanırdım. Əlim-əlimə dolaşa-dolaşa pulu verib, sürücüdən sürəti artırmasını istədim. Evə çatar-çatmaz: “Nə olub?” – deyə soruşdum. “Nə olub nənəmə?” Eşitmək istəmədiyim sözü eşitdirdilər. Evə çatdıqda daha gecikmişdim. Səhər sağollaşaraq yanından ayrıldığım, mənə: “Yolu keçəndə ehtiyatlı ol, bala” – deyən nənəmin indi otağına girdiyimdə gözlərini əbədi olaraq həyata yummuş cansız bədəninin eləcə yatağında donub qaldığını, hərəkət etmədiyini gördüm. Gözümü açandan bəri gördüyüm insan – beşiyimi yelləyən, mənə şirin şeirlər söyləyən, nağıllar danışan, saçı ağarmış, əlləri qırışmış, o üzü nurlu insan artıq yox idi. Daha nə şeir deyə bilər, nə nağıl danışa bilər, nə də mənim

bir vaxt olacaq uşağımın beşiyini yelləyə bilərdi. O nur üzlü insan bir daha bizə qayıtmayacaq, bir daha bu dünyaya gəlməyəcəkdi. Nənəm 28 may – Respublika günü dünyasını dəyişdi. Bu gün bütün Azərbaycan xalqına olduğu kimi mənim üçün də unudulmaz bir tarixə malik idi. Amma həyat mənim üçün bugünkü gündə ikinci tarixi bir iz qoydu qəlbimə. 28 may – Respublika günü Nənəmin ölüm azadlığına qovuşduğu gün oldu. Həmin vaxt tez-tez nəfəs aldığımı, sinəmin deşildiyini hiss edirdim, gözümdə yaş yumrulanıb qalmışdı, nəfəsim kəsiləcək kimi idi, ağlaya da bilmirdim. O an çarəsiz nə edəcəyimi düşünürdüm, mən nə edə bilərdim? Mən nəyə qadirəm? Heç nəyə. Mən necə də aciz varlığam düşüncəsi, acizliyim, suallar, düşündüklərim beynimi yeyirdi. Ən çox sevdiyim insanlardan birini itirdim. Həmin insan üçün, o nurani insan üçün canımdan keçə bilərdim, amma əlimdən gələn nə idi? Əlimdən heç nə gəlmirdi! Axı mən nənəmi çox sevirdim, niyə belə oldu? Axı mən onu itirmək istəmirdim, axı atam anasını itirmək istəmirdi, niyə həmişə belə ağrılı olur həyat? Sevdiyin insanı itirmək qədər acısı yoxdur. Həmin gün o qədər də ağrılı olmur hələ. Ağrılı günlər bilirsənmi nə vaxt başlayır? Həmin vaxtdan günlər, aylar keçdikdən sonra. O insan üçün darıxdığın zaman, onunla danışmaq, söhbət etmək istədiyin vaxt, səsini eşitmək istədiyin vaxt. Bax onda bıçaq sümüyə dayanmış kimi olur, əlindən heç nə gəlmir. O, artıq yoxdur. Daha onun-

la söhbət edə bilməyəcək, səsini eşitməyəcək, üzünü görməyəcəksən.

O gün bir qoşun insanla qosqoca qadını öz əllərimizlə aparıb torpağa gömdük. Atam, əmim, bibilərim özbəöz analarını əlləri ilə torpağa gömdülər. Mən onda insanın necə aciz bir varlıq olduğunu, necə çarəsiz olduğunu anladım. O gün hamıdan çox atamın halına acıyırdım. O necə dözəcək anasını itirməsinə? Atam atasını 15 il bundan əvvəl itirmişdi. İndi də, bu gün anasını itirdi. Atama baxdıqda onun üzündən acısı-əzabı aydınca oxunurdu. O, anasını – dünyada ona ən əziz olan insanlardan birini itirmişdi. Mənim tanıdığımdan da uzun bir müddət tanıdığı anasını... Ona laylalar deyən, belində gəzdirən, əsrin çətin günlərində, yeməyə çörək zar-zor tapılan bir dövrdə, yoxsulluqla vuruşaraq min bir əziyyətlə onu böyüdən, gecələrini haram etdiyi o müqəddəs insan, ömrünü övladına həsr etmiş insan artıq yox idi. Bu necə də pis həyat qanunudur, insanlar sevdiklərini, atasını, anasını, bacı-qardaşlarını, zamanla bütün yaxınlarını itirirlər. Bu çox pis bir hissdir insanlar üçün, həm də çox pis. Ən pisi isə bilirsənmi nədir? Ən pisi bu hissi hər kəsin yaşayacaq, görəcək olmasıdır, şanslı olanlarsa tez öləcəklər. Uzun ömür isə çox əzab deməkdir. Lakin ölmək də hər şeyin sonu demək deyil, onda da bir ümid var. Ölüm yaşayanlar üçün var. Ölüm, sadəcə, müvəqqəti ayrılıqdır. O nə zaman bitəcəyi bilinməyən bir həsrətdir. Amma, əlbət ki, bir gün bitəcək. Qara torpağın altına qoyduğumuz sevdiklərimizlə qovuşacağıq sonunda. Bunu unutma, dostum, ölüm yaşayanlar üçün

var, o, yaşayanlar üçün həsrətdir, zamanı bilinməz bir həsrət.

***

O gün mənim üçün sarsıdıcı bir gün oldu. “Son zəng” həyəcanı da o sarsıntı ilə yox olmuşdu ağlımdan, sanki qorxularım öz üzünü göstərmişdi. Sanki boş-boşuna həyəcanlanmamışdım. Nənəmin ölümündən sonra həyətimiz, evimiz başsağlığı deməyə gələn insanlarla dolmuşdu. Yaxın-uzaq qohumların hamısı burda idi. Başsağlığına gələnlərin bəzilərini mən tanımırdım, sanıram, onların çoxunu heç rəhmətlik də tanımırdı. Axı onlar niyə gəlir? Nə mənası var ki bunun? Əgər sağlığında sən o insana gərək deyildinsə, üzünü göstərmirdinsə, yoxluğunda nəyinə gərəksən ki? Üzücü, yaslı günün üzərinə 3 gün gəlmiş, 31 may, “Son zəng” günü, nənəmin ölümünün dördüncü günü yetişmişdi. Dostum Toğrul, Rəmzi, Kərim və başqa sinif yoldaşlarım məni məktəbə – “Son zəng” tədbirinə aparmaq üçün gəlmişdilər. Onlar məni o məlul, sarsılmış halımla tədbirə aparmaq istəyirdilər, mən isə getmək istəmirdim. Onlar israrla aparmaq istəyir, mən isə inadla getməyəcəyimi bildirirdim. Evdən bir neçə nəfər, əsas da əmim tədbirdə iştirak etməyimi istəyirdi. Nəinki evdəkilərlə əmim, həmçinin hüzrə gəlmiş digər yaxın qohumlarım da tədbirə getməyimi istəyir, təkid edirdilər. Əmim o gün mənə əminliklə: “Bax, getməsən, gələcəkdə peşman olacaqsan”, – demişdi. O günün üstündən artıq illər keçib, mən getmədiyimə hələ də peşman deyiləm. Elə yaxşı eləyib getməmişəm,

buna görə də özümlə razıyam və doğru qərar verdiyimi düşünürəm. Hədiyyə verəcəyim, məktəbli olacaq uşaqlar hədiyyəsiz qalmasın deyə, həm də aldıqlarım bir küncə atılmasın deyə hədiyyələrimi yeni məktəbli olacaq uşaqlara çatdırması üçün dostum Toğrula həvalə etdim. O da, sağ olsun, həmin uşaqları sevindirmiş, hətta mənə də hədiyyələr gətirmişdi. "Son zəng" günündə olduğu kimi digər günlər də hüznlə, səssiz-səmirsiz keçirdi. Beləcə məlul sükutla nənəmin öldüyü gündən 39 gün keçmiş, nənəmin 40-ı yetişmişdi. 28 may nənəmin öldüyü gün insanın necə aciz olduğunu, ölümünün 40-cı günü isə necə unutqan olduğunu görüb, şahidi oldum. Daha qəlbimdəki qüssə yavaş-yavaş ərimiş, başım dərslərimlə qarışmışdı. Artıq həmin vaxt imtahana bir ay qalırdı. Mən yenə bütün fikrimi, gücümü toplayıb oxumalı idim, yoxsa yaxşı müvəffəqiyyət qazana bilməzdim. İmtahana günlər qaldığı üçün sarsılmış ağlımla kitabları yenidən ən birinci səhifədən təkrarlayırdım. Hansı mövzu, hadisə, düsturlar yadıma düşmürdüsə, bir də oxuyurdum. Tarixi bir yandan öyrənirdim, bir yandan yadımdan çıxırdı. 10-cu sinif tarix mövzusu mənə yaman çətin gəlirdi. Ədəbiyyatdan qəzəllər hansı bəhrdədir, hansı şeir hansı formadadır, bu əsər kimindir, o şeir kimindir və sair bu kimi yadımdan çıxan yerlərə baxırdım. Beləcə bütün kitablarda fikrimdən çıxan yerləri yenidən təzələyirdim, günümün bütün hissəsini oxumaqla keçirərək bütün kitabları tamam bitirmişdim. Yalnız unutduğum yerləri təkrar açıb oxuyurdum. Tez-tez yadımdan çıxan yerləri

isə 12 vərəqli solğun yaşıl üzlü dəftərə yazıb ordan oxuyurdum, beləcə kitabları vərəqləyərək vaxt itirmiş olmurdum. Bu axışla günlər keçmiş, imtahana 1 gün qalmışdı. Daha sabahı gün imtahan günü idi, mən özümə güvənirdim, çünki hər şeyi oxumuşdum və hər şeyi bilirdim. Hətta imtahan gecəsi də oxumuşdum. Bütün mövzuları bildiyimə əmin və özümdən razı idim. İmtahan gününü səbirsizliklə gözləyərək azca yata bilmişdim. Səhər 6-da oyanmışdım, özümü fərəhli, həm də tam hazır hiss edirdim, nədənsə heç həyəcanlı deyildim. Bəlkə də həyəcanlı idim, amma həyəcanlı olmağımı hiss etmirdim, lakin rahat da deyildim. Saat 7-də iki gün əvvəlcədən danışdığım taksiyə zəng edərək çağırıb imtahan olacağım ünvana, Lənkəranın Stamurdov kənd məktəbinə tərəf yola düşdüm.

***

Özümlə heç nə oxumayan sinif yoldaşımı, Farizi də gətirmişdim. Onu özümə yoldaş etməmişdim. O ağıllı əlinə gələni yazıb universitetə girmək arzusunda idi, buna görə də mənimlə birgə gəlmişdi. Fariz dərslərini oxumasa da, muğam oxuyurdu, yaxşı səsi var idi. Heç sevgilim olmasa da, mən ondan həmişə könül oxşayan "Nə üçün səni unuda bilmirəm?" mahnısını oxumasını xahiş edirdim. Fariz və taksi sürücüsü ilə söhbət edə-edə gəlib imtahan olacaq məktəbə çatdıq. İmtahan olacaq məktəbin ətrafında bir xeyli insan var idi. Onların çoxu abituriyentlərin valideynləri idi. Atası, anası, nənəsi, əmisi ilə gələnlər var idi, əksəriyyəti də həyəcanlı gö-

rünürdü. Onu da deyim ki, valideynlər uşaqlarından daha həyəcanlı görünürdülər. Əksər abituriyentlərdən fərqli olaraq, mən yalnız getmişdim və heç də həyəcanlı deyildim. Bəlkə də hazırlıq vaxtı hər ay sınaq imtahanlarında iştirak etdiyimdən, yəqin ki, ondan idi həyəcan keçirməməyim. Saat 10-da imtahan başlayacaqdı və saat 10-a az qalmışdı deyə telefon və pulqabımı bir nəzarətçiyə təhvil verib digər nəzarətçiyə tərəf yoxlanışa getdim. O yoxlanış aparan əclaf əlləməyə həvəsli bir əclaf idi yəqin, üstümü yoxlayarkən hər yanıma toxundu, məhrəm yerim qalmadı. Bir az da dirəşsəydi, əli içimə girəcəkdi. Bu, tək mənim başıma gəlməyib, qəbul imtahanına gedən dostlarından da soruşa, onlardan da eşidə bilərsən, bəlkə də özün də bilirsən. Əllənmək mərhələsindən keçdikdən sonra şəxsiyyət vəsiqəmə baxdılar, başqasının adından girib yazmaq təhlükəsinə görə bunu edirdilər. Vəsiqəmə baxan nəzarətçi, vəsiqənin üzərindəki şəklə baxıb şəkildəkinin mən olmadığımı dedi. Onun gözlərində problem yox idi. Həqiqətən də şəkildəki mən indiki mənə oxşamırdı. İki il öncə 4/3 şəkil çəkdirdiyimdə 2 manat pul ödəyib 8 şəkil çıxartdırmışdım, özümə lazım olan iki şəkli səliqə ilə kəsib digər şəkilləri evə qoymuşdum, iki il sonra vəsiqə çıxarmağa getdiyimdə həmin keçəl olduğum şəkillərdən aparmışdım. İki il müddətində imtahan günü saçım tamam qulaqlarımı örtmüşdü. Həmin nəzarətçi şəkildəki məni mənə bənzətməyib imtahana girmək istəyən məni başqa bir nəzarətçiyə yönləndirdi. Bu nəzarətçi də digəri kimi bir mənə, bir vəsiqəyə baxır, amma bir bənzərlik tapa

bilmirdi. Mən ona: “Qaşlarıma bax, qaş alan deyiləm, ay dayı, bax, eyni qaşdır, sərhəd kimi” – dedikdə onları razı salıb sonunda içəriyə girə bildim. Qaşlar canımı qurtardı, yoxsa az qalmışdı ki, bütün oxuduqlarımın içinə qumbara çəkib atsınlar. Ağ rəngə boyanmış, böyük üçmərtəbəli məktəbin mərmər döşəməli pilləkənləri ilə qalxaraq imtahan verəcəyim otağa getdim, biletdə göstərilən yerdə əyləşib yanımda bir qızın oturmasını arzu etdim və elə də oldu, arzuma yetdim. Dünya gözəli olmasa da, bir qız gəlib sağımda əyləşdi. O qız şəxsiyyət vəsiqəsini çıxaranda adını, ata adını, soyadını oxudum. Onu niyə etdiyimi xatırlayıram, çünki o zamanlar MTN-ə sənəd vermək arzularımın yeni-yeni məhv olduğu zamanlar idi və MTN-in vəzifəli şəxslərinin hər şeyi görüb yadında saxlaması kimi kinolardan görüb-götürdüyüm vərdişlər hələ də məndə bir vərdiş kimi yaşamaqda idi. İmtahana yarım saat qalmış böyrəklərimdə ağırlıq hiss edib tualetə getmək üçün otaq nəzarətçisindən icazə istəyərək dəhlizə çıxıb tualetə istiqamət aldım, bu sırada bir oğlan yaxınlaşaraq: “Yanındakı qızı tanıyırsanmı?” – deyə məndən soruşdu. O gədə həmin qızı tanıdığını, bir müəllimənin yanına məşğələyə getdiyini, oradan tanıdığını dedi. Həmin oğlanla olan söhbət yanımda oturan qız haqqında mənə bir az məlumat vermiş oldu. O məlumat ki, heç bir zaman heç bir işimə yaramayan məlumat. Həmin oğlanın dediyi, yanımda oturan qızın getdiyi məşğələyə bir vaxtlar mən də getmişdim. O bizim qonşu rayonların birində pullu hazırlıq keçən ingilis dili müəlliməsindən bəhs edirdi. İmtahan otağına geri dö-

nüb yerimə əyləşdiyimdə başladım artistliyə. Yanımda əyləşən xanıma atasının adını, öz adını, onu tanıdığımı dedim. Qız çaşmış halda mənə baxır, onu haradan tanıdığımı anlaya bilmirdi, anlaya da bilməzdi, axı onu tanımırdım. Mən yenə artistliyimə davam edib onun hardan olduğunu, kimin yanına məşğələyə getdiyini deyirdim. O: "Bunları hardan bilirsən?" – deyə maraqla soruşurdu. Düşüklüyümdən əl çəkməyib ona: "İnterpoldan gəlmişəm", – demişdim, özündənrazı səfeh-səfeh danışırdım ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının əməkdaşlarından biri sinfə daxil oldu, sual kitabçalarını paylayıb nəzarətçi müəllimlərə saat onda imtahanı başlatmaları barədə göstəriş verib otağı tərk etdi. Kitabçanı açdığımda hər şey əla idi, suallar lap tanış gəlirdi. Adət aldığım kimi, kitabçanın öz sırası ilə sualları cavablayıb-bitirib cavab kartına köçürdüm. Vəzifəmi yerinə yetirdikdə imtahanın bitməsinə 20 dəqiqə qalmışdı, icazə istəyib getmək istədikdə nəzarətçilər otaqdan çıxmağa icazə vermədilər, yerimdə oturub imtahanın bitməsini gözləməyə məcbur oldum. O sırada sağımda əyləşən qız öz cavab kartını qaralayırdı. Bir neçə xananı qaraladıqdan sonra onların yanlış cavab olduğunu ona söyləmişdim. Mən ona yardım etmək istəyirdim, düzdür, bir az gecikmişdim. Onu da yardım saymaq olar, yəqin?! Hmmm... sən necə düşünürsən? Bunu düşünüb özünü yorma. Bu yardım deyil, vaxt keçirmək idi.

***

İmtahan bitdikdə avtovağzala gedib, rayona işləyən marşrutlardan birinə əyləşdim. Mənlə gələn sinif yol-

daşım Fariz birlikdə gəldiyimiz taksi ilə çıxıb getmişdi artıq. Onlara gözləməmələrini özüm tapşırmışdım. Çünki "onlar gözlədiyində şüuraltı impulslar imtahanı tələsik bitirməmə, onların yanına qayıtmağıma səbəb ola bilər" deyə düşünmüşdüm. Nəticədə imtahandan zəif nəticə ala bilərdim, əslində valideynlərimin də buna görə gəlməmələrini xahiş etmişdim. Bu səbəbdən Lənkəranda bizim rayon avtobuslarından birinə əyləşib rayona, rayondan isə kənd avtobusuna əyləşib evə qayıtmalı oldum. Evə çatan kimi maraq dolu suallar başladı, yetən hər kəs imtahanın necə keçdiyini, nə etdiyimi soruşdu. Mən də oxuduğum mövzulardan olduğu üçün sualların asan gəldiyini, nəticənin yaxşı olacağını söyləyirdim. İmtahanın bitməsindən saatlar keçməsinə baxmayaraq, imtahan nəticəmi öyrənmək, nə qədər bal topladığımı bilmək istəyirdim. Bu səbəbdən də bir-bir fənn müəllimlərimə zəng edərək sualları oxuyub cavablarını öyrənirdim. Müəllimlərimin dedikləri ilə də qane olmayıb axşamüstü Space Tv-də yayımlanacaq imtahan barəsindəki müzakirəni səbirsizliklə gözləyirdim. Cavabları internetdə yoxlayır, təkrar-təkrar baxırdım. Özümdən əmin olaraq imtahana getsəm də, bütün kitabları oxusam da, nəticəm heç də istədiyim kimi olmadı. Əslində pis olmadı, sadəcə, istədiyim, arzuladığım kimi olmadı. Buna canım sıxılmış, yenə özümü pis hiss etməyə başlamışdım, nə isə... Ən çox Azərbaycan dilindən düzgün cavab qaralamışdım – 25 sualdan 24-nü, məncə, bu yaxşı idi. Ən az isə ədəbiyyatdan – 17 doğru cavab, bu isə çox bərbad nəticə idi, ədəbiyyatı heç

vaxt sevməmişəm, sevməyəcəm də. Digər fənlərin isə 25 sualından 20-sini doğru cavablamışdım, bunlara da nə pis, nə yaxşı demək olardı. Mən 600 balı keçəcəyimi düşünmüşdüm. 500-ü keçəcəyimə isə əmin idim. Elə belə də oldu. Birgə imtahana getdiyimiz ağıllı dostum Farizsə elə bir nəticə aldı ki, təəccübləndim. Bu necə ola bilərdi axı? O, dərslərini oxumurdu, bu doğrudur. Amma nəticəsinin 0 olması həqiqətən də maraqlı idi. O bəlkə də TQDK-ya borclu qalmışdı. Onun fırıldaq arzusu yerinə yetmədi, ürəyində yanaraq közərib söndü. Fəqət bu yolla tələbə olan alimlərimiz də az deyil.

***

Həyəcanla ötürdüyüm müddət keçmiş, nəticələr çıxmış, sıra ixtisas seçiminə gəlmişdi. Bu, demək olar ki, həyati bir seçim idi. Ona görə də buna çox incə yanaşmalı idim. İxtisas seçimi ilə əlaqədar kursda oxuyan zaman kurs müəllimləri ixtisaslarla bağlı məlumat verəcəklərini, yardımçı olacaqlarını söyləmişdilər. Atam və mən ixtisaslarla bağlı məlumat alaq, hansı ixtisası seçək deyə məsləhətləşmək üçün kursa getmişdik. Orada gördüm ki, bir vaxtı yardım edəcəklərini söyləyən həmin müəllimlər başdansovdu yardım edirlər, onların bu tərz yardımı mənim həyatımın önəmli mərhələlərinə istiqamətlənən qərarlarından birinə yönəlmişdi. Mən onlarla razılaşmayıb atamla birgə evə qayıtdım. Abituriyent jurnallarını vərəq-vərəq, sətirbəsətir araşdırıb baxdıqdan, internet üzərindən ixtisaslarla bağlı məlumat topladıqdan sonra düzgün bir qərar verdiyimi düşü-

nüb, ixtisas seçimimi hüququm olaraq özüm etdim. Atam 3-cü qrupun zirvə ixtisası olan hüquqşünaslığı yazmağımı arzulayırdı. Ürəyimdən bir səs də həmin ixtisası yazmağıma səsləyirdi məni. Mən də beləcə öz xoşumla, həm də atamın istədiyi seçimi etmiş oldum. Bundan aylar öncə Dövlət Təhlükəsizlik Xidməti olan Milli Təhlükəsizlik Nazirliyinə sənəd vermək üçün bizim rayonda yerləşən MTN-in rayon şöbəsinə müraciət etmişdim. MTN-in rayon şöbə binasına daxil olan zaman onların verdiyi suallar haqqında bəzi şeylər eşitdiyimə görə, binanın həyətindəki maşınların nömrəsini əzbərləyir, harada kameralar var deyə diqqətlə baxır, üzərinə çıxdığım pilləkənlərin pillələrini sayırdım. Belə saya-saya gedib rəisin qəbul otağına girdim. Nəticədə isə iki gözləmədiyim fərqli sual verdilər, mən isə bilmədim. O zaman saçım uzun, geyimim də indiki cavanlara xas bir tərzdə idi. Rəis bunları da ölkənin təhlükəsizliyini qorumaq istəyən şəxsə yaraşdırmamış, saçımı-başımı da bəyənməmişdi. Hə, bir də qeydiyyata düşə bilməməyimin mənə ən pis olan tərəfi – bu orqan üçün boyumun balaca olduğunu demişdilər. Mən rəisin dediklərini dinləyib şöbədən suyum süzülə-süzülə ayrıldım. İyirmi gün sonra saçımı kəsdirib, əyin-baş alaraq hazırlaşıb yenidən şöbəyə getmişdim. Birinci müraciətimdəki boyumdan başqa, uyğunsuzluqlarımın hər birini qayda-qanuna salmağıma baxmayaraq, mənim bu arzum ürəyimdə qaldı. İkinci müraciətimdə mənə: “Daha gecikmisən”, – söyləmişdilər. Mən də yazıq-yazıq şöbə rəisinə: “Heç olmasa kiçik bir işıq var-

sa, onu məndən əsirgəməyin, bura daxil olmaq mənim uşaqlıq arzumdur", – demişdim. Rəis: "Yaxşı, savadlı oğlansan, gəl ki, mümkün deyil, mümkün olsaydı, kömək edərdim", – deyərək səmimi təbəssümünü üzünə yaymışdı. Mən rəisin otağından icazə alaraq çıxmaq istədiyimdə: "Hüquqşünaslığı oxuyar, bitirər, bura sənəd verərsən, uğurlar", – demişdi. Mən də təşəkkürlərimi bildirib, ikinci dəfə suyum süzülə-süzülə oradan ayrılmışdım. Uşaqlıqdan bəri MTN-ə daxil olmaq arzusu ilə oxuyurdum, alınmadığı üçün Daxili İşlər Nazirliyinə hazırlaşmağa başladım. Bütün sənədləri toplayıb rayon mərkəzində yerləşən polis şöbəsinə qeydiyyata düşmək üçün müraciət etməyə getdim. Oradan da boyuma görə məhrum oldum. Bu boy mövzusu tamam ürəyimi sıxır. Ölmüş marketdə satılmır ki, alasan, bostanda yetişmir ki, böyüdəsən. Hər şəkil çəkdirəndə də rəsmdə yalnız alnım düşür, hər dəfə də utanıram. Bilmirəm, bəlkə də utanmamalıyam. Amma birtərəfli olaraq boyumun balaca olmasına həm özümə, həm də bütün balacaboy insanlara İlahi ədalətsizlik kimi baxıram. Axı niyə mənim boyum balacadır? Axı niyə mən də digərləri kimi normal olaraq uzun deyiləm? Hələ özümdən uzun qarşı cins gördüyümdə tamam əsəbdən partlayıram, fəqət əldən gələn nədir ki? Heç nə. Nə isə, dostum. Mən bu əhvalatlarla rastlaşdıqdan sonra yeni yaranmış olan Dövlət Gömrük Komitəsinin Akademiyasının Gömrük işi fakültəsi üzrə hüquqşünaslıq ixtisasına qəbul olmuşam. DGKA-ya qəbul olduğumu mənə ilk söyləyən və bu şad xəbərin qarşılığında bir dənə də

olsun şirinlik, bəxşiş-filan istəməyən telefonum oldu. Marketdə atamla birlikdə müştəriləri yola saldığım zaman telefonuma mesaj gəlmişdi. Mesajı oxuduğumda hara qəbul olduğum mənə o vaxt məlum oldu. Mesajı oxuyan kimi mesajdan əvvəlki halım necə idisə, elə o halda, nə sevinmədən, nə üzülmədən, nə də başqa bir hiss keçirmədən atama da oxudum. Amma atamın nə hiss keçirdiyi gözlərindən oxunurdu. O buna çox sevinmişdi və marketə gəlib-gedən bütün kəndçilərimizlə söhbətində sözü fırlayıb gətirərək mənim hara qəbul olduğumu fəxrlə deyirdi. Mənim sevindiyim də yalnızca bu oldu. Atamın sevinməyi mənim üçün xoş hal idi. O mesajı oxuduğumda ağlımdan keçən yalnızca: "Artıq 11 ildir daşıdığım yükü çiyinlərimdən atdım", – oldu, buna görə də çox rahatlamışdım. Dünyaya göz açandan məktəbə gedən vaxta kimi yaşadığım azadlığı, 11 ildən sonra bir ay ərzində yenidən yaşayacaqdım və bu, şübhəsiz, mənim üçün möhtəşəm idi.

# Mesajın azadlığı

Avqust ayı dəhşət isti və yorucu olmasına baxmayaraq, mənim üçün ən gözəl aylardan biri oldu. O ayda düstur əzbərləmək, test etmək, sınaqlara getmək, ümumiyyətlə, oxumaq yox idi. Zehni əziyyət bitmişdi mənim üçün, ən azından bir ay ərzində. Daha məndən xoşbəxti olmazdı, sanıram. Həmin aylar kənddə bir qızdan xoşum gəlirdi, doğrusu, heç adını da bilmirdim o qızın. Bu adsız gözəl xanım haqqında bildiyim, sadəcə, başqa bir rayondan bizim qonşu kənddə yaşayan nənəsigilə yayı keçirmək üçün gəldiyindən ibarət idi. Adsız gözəlin ritmik yerişi, incə səsi, iti danışığı, sarı qıvrım saçları, işıq saçan gözləri, balaca burnu var idi və o da mənim kimi balacaboy, məndən də balaca idi. Bəlkə də o buna görə mənim daha çox xoşuma gəlirdi. Məni gözəlliyi ilə valeh edən, adını bilmədiyim xanıma ondan xoşlandığımı bildirmək istəyirdim. Bunu ona necə deyəcəyimi yüz ölçüb bir biçmədən düşünmüşdüm. Çox sadə bir plan qurmuşdum. Planıma görə adsızı kimsənin olmadığı bir yerdə gördüyüm zaman, əlimə düşəcək ilk fürsətdə, təmkinlə yaxınlaşıb, onu sevdiyimi deyəcəkdim. Avqustun 19-u günəş səmadan qürub edərək Talış dağlarının arxasında itdiyi bir vaxtda nəzərimdə tutduğum o fürsət əlimə düşdü. Ürəyim yerindən çıxacaqmış kimi dəlicəsinə çırpınırdı, bəs olacaq qədər həyəcanlanmışdım. İndi deyə

bilməsəm, bir daha deyə bilməyəcəyimi düşünüb, özümü itirmiş halda ona yaxınlaşıb, dilim topuq vura-vura, elə birbaşa "səni sevirəm" dedim və bundan çox utandım. Həmin an kaş yer aralanaydı da girəydim yerə. Ağıllı-başlı düşünülməmiş bir hərəkət oldu bu. Özü də ki, kənd yerində. Demək olar ki, heç tanımadığın bir qıza, heç adını bilmədiyin. Bunu etmək özü dəlilik, sarsaqlıq idi, mən də bu sarsaqlığı etdim. O gözəl xanım tərəddüd içində, gözləmədiyi bir sözdən çalxalanmış halda üzümə baxırdı. Olanlar, sadəcə, bir anın içində oldu. Hər şeyin necə başlayıb-bitdiyini heç özüm də anlamadım, sadəcə, yadımda qalanları deyirəm sənə. O kübar xanım özünü-sözünü toplayıb, sağ olsun ki, yaman mədəni tərzdə mənə "eşşək oğlu, eşşək" deyib yanımdan qaça-qaça çıxıb getdi. Mən də o arada qeyri-ixtiyari dediyim sözə çaşbaş qalıb, əlimi üzümə tutmuş: "Mən nə etdim? Axı niyə dedim?" – deyə sayıqlayırdım, deməyimə çox peşman olmuşdum. Bu situasiya ilə ilk dəfə idi ki, qarşı-qarşıya qalmışdım, nə edəcəyimi də bilmirdim. O kübar xanım məni söydüyü sırada ona "bağışla, bağışla" dediyim də yadımdadır. O, atamı söyürdü, mən isə ona "bağışla" deyirdim. Görürsənmi dünyanın işini? Mən ona nə dedim axı? Azar demədim, dərd demədim, sadəcə "səni sevirəm" dedim. Kaş deməzdim. Bir atamı söydürməmişdim, kişini də söydürdüm. Mənim atam müqəddəs insandır, kobud xanım.

# Qətliam

Bu xatirəni səhəri gün balıq ovuna getdiyimdə təfərrüatı ilə, sənə danışdığım kimi dostlarıma da danışmış, lağ obyekti olmağıma baxmayaraq, başıma gələnlərə dostlarımla bərabər qəhqəhələrlə xeyli gülmüşdüm. Dostlarımla balıq ovundan böyük qənimətlə geri dönmüş, fəxrlə evdəkilərə nümayiş etdirmişdik. Balığa getdiyimizdə ov alətimiz 1.5 metr eni, 3 metr uzunluğu olan, iki tərəfinə 2 metr uzunluqda, əllə dartmaq üçün, nazik, amma davamlı taxta keçirdiyimiz tor idi. Ov edəcəyimiz yerə çatdıqda Toğrulla mən evdən gətirdiyimiz köhnə paltarlarımızı geyinib kanala girmiş, birimiz sağ tərəfdəki, birimiz də sol tərəfdəki taxtalardan tutaraq toru kanalın içində sürüyürdük. Kanal yosundan, mamırdan təmiz olsa da, suyu bulanıq, həm də tor sürümək üçün dərin idi. Dərinliyinə baxmayaraq, Toğrulla 100 metr kanal boyu toru gah kanalın sağ sahilinə, gah da sol sahilinə dartır, balıqları tora salmaq üçün əlimizi torla əhatə etdiyimiz sahildə suya çırpır, ov alətimizi bulanıq kanal suyundan qaldırıb yoxlayır, qurbağa və tısbağadan başqa bir şey ələ keçirə bilmirdik. Kərimlə Mikayıl sahil boyu təpələrdən bizi izləyir, toru sahilə gətirdikdə arada çaya enərək suyu ayaqları ilə qarışdırır, uğursuz nəticələrdən təəssüflənirdilər. Biz bu kanal boyu cəhdlərimizdən gətirdiyimiz qənimət kisəsinə cəmi bir dənə əl böyüklüyündə çapaq ata bil-

mişdik. Boş nəticələrlə toru darta-darta kanalı başa vurduqda görmüşdük ki, bənd vurulmuş çayın əkinləri suvarmaq üçün kanal çəkilmiş hissəsində mənasız cəhdlər edirmişik. Bəndi aşaraq yan tərəfləri qamışlarla, böyürtkən kolları ilə sərhədlənmiş, üstünü azca mamır örtmüş, arabir yerlərində yosunlar çıxmış çayın sonradan bildiyimiz zəngin hissəsinə keçdik. Ümidsiz halda torun ağaclarını çayın bulanıq sularına salıb yana dartdıq. Kərim sahilin torla çənbərə aldığımız üçmetrlik ərazisində çaya girib, suyu şappıldadaraq bir sağa, bir sola qaçdı. Yenə ümidsiz və cəld toru yığaraq çaydan çıxardıq. Bu ümidsiz cəhddə çapaq balığından sonra ilk 8 ov özünü torumuza salmış, canlarını qurtarmaq üçün vurnuxurdular, biz də sevincək, tələsik balıqları kisəyə doldurub, toru zəngin çay sularına vurub yenə dartır, yaxalayır, yenə dartır, yenə yaxalayırdıq. Görməmiş kimi 200 metr çay boyu tor çəksək də, gözlərimiz doymaq bilmirdi, çayı ələk-vələk edib, tordan keçirərək düz bir kisə durnabalığı ovlamışdıq. Tor dartdığımızda bizi ən çox bezdirən sağa-sola, üstümüzə-başımıza atılan qurbağalar ilə tora ilişən tısbağalar oldu. Hələ yekə bir su siçanı da torumuza düşmüşdü. Toğrul vəhşicə dovşan dişli, arxa ayaqlarının enli pəncəsi olan, böyük, boz siçanın quyruğundan tutaraq tordan çıxarmış, başına qaldırıb quru torpağa çırparaq həyatına son vermişdi. Mikayıl suya girən böyük bir su ilanını və həmin siçanı gördüyündən çaya girmir, bizim tordan çıxarıb sahilə atdığımız balıqları kisəyə yığıb, söyüd ağaclarının kölgəsində siqaret çəkməklə, Kərim suyu qarışdır-

maqla, Toğrulla mənsə çayın dibindəki palçığa bata-bata tor sürüməklə məşğul olurduq. Evə dönüb qəniməti bölüşdürdükdə hərəmizə 11-12 kiloqram durnabalığı düşmüşdü. Həzz üçün həyatlarına son verdiyimiz canlıların mənə düşən hissəsini qonşulara paylamış, pis əməldən azacıq yaxşı əməl qoparmağa çalışmışdım. 19 avqust hadisəsini tarixdən silsək, avqust ayını bütünlüklə nəşəli keçirmişəm. Dostlarımla hər gecə çay evlərində, kafelərdə içib-çəkməklə vaxt keçirərək, gündüzləri maşınla veyillənib orda-burda gəzib-əylənərək gündüzlərimi gecə, gecələrimi gündüz edirdim. Demək olar ki, hər gecə qəlyan çəkir, pivə, çaxır, ya da araq içir, həftədə üç dəfə dostlarımla birgə marixuana çəkirdim. Əslində elə də çox içmirdim, pivənin 4-cü bakalı limitim idi. Bu limiti aşanda ürəyim açılır, hər yerə qusub-batırırdım, bütün "kayf"ım da ölürdü. Buna görə də özümə bir sərhəd müəyyən etmişdim və dörd bakaldan artıq içmirdim. Amma onu da deyim ki, pivənin başı əladır. Mədə ağrısı, səhərlər də susuzluğu olmasa, zəhrimar tamam əladır. Hə, bir də çeşmənin gözü açılıbmış kimi gecəni tualetdə keçirirsən, o da pisdir, amma halın qəşəng olur. İçməyən dostlarım mənə "niyə içirsən?" dediklərində onlarla: "Yuxu adlı bu dünyada ayıq qalmaq düzgün deyil" – deyə zarafat edirəm. Əslində mənə mənalı gəlir zarafata dediyim bu söz. Səncə də elə deyilmi, dostum? İndi düşünürəm ki, əslində doğru deyil. Çox insan yuxuda olduğu zaman onun yuxu olduğunu bilmək istər. Bilirsənmi niyə? Çünki yuxuda hər şey məhdudiyyətsizdir,

düşündüklərimiz, xəyallarımız kimi. Fəlsəfəyə keçmək istəmirəm, söhbətimizə davam edək. Yay tətili içib-çəkərək, gəzib-əylənərək qurtarmaqda, sentyabrın 15-i isə yaxınlaşmaqda idi. Dərslərə az qalmışdı, mənsə hələ də öz kefimdə kənddə əylənirdim, şəhərdə ev kirayələməmişdim. Bu səbəbdən, kirayə ev tapmaq üçün sentyabrın 10-u yola düzəlib Bakıya gəldim.

***

Əksər rayondan şəhərə işləyən taksi sürücülərinin etdiyi kimi, əyləşdiyim taksinin sürücüsü də məni gətirib Bakıda "20 Yanvar" metrostansiyası yaxınlığında taksidən endirdi. O vaxtlar bu şəhəri yaxşı tanımırdım, hara necə getmək olar barəsində məlumatım yox idi. Bunun arxasınca Bakının Maştağa kəndi yolu üzərində yerləşən, qəbul olduğum Gömrük Akademiyasına heç çətinlik çəkmədən getdim desəm, ağ yalan olar. Taksidən endikdən sonra "20 Yanvar" metrostansiyasına girib qatarla bir neçə stansiya getdim, "28 May" metrostansiyasında qatardan enib işıqlı dünyaya, aydınlıq şəhərə çıxdım. 3-4 nəfər tanımadığım şəhər sakininə yaxınlaşaraq Maştağaya necə gedə bilərəm deyə soruşdum. Tərsliyə bax, kimdən soruşdumsa, bilmədiyini söyləyirdi. Bəlkə onlar da mənim kimi Bakının sakinləri deyilmişlər. Burada bir məlumat ala bilmədiyimi görüb, çıxdığım kimi "28 May" metrostansiyasından girib bir stansiya getdikdən sonra "Gənclik" metrosundan çıxdım. Yenə "28 May"da olduğu kimi, bir neçə nəfərdən suallar soruşdum. Bir orta yaşlı kişidən "Ulduz" met-

rosundan Maştağaya marşrut işlədiyini öyrənib dayının dediyinə əməl edərək “Ulduz” metrosundan Maştağaya gedən avtobusa əyləşib qəbul olduğum Akademiyaya gəldim. Akademiyanın açılışı mənim qəbul olduğum il edildiyindən hələ yeni binası tikilməmiş, Gömrük Komitəsinin Tədris mərkəzi binası müvəqqəti olaraq Akademiyaya verilmişdi. Çox da böyük olmayan bu məkanda 3 kiçik bina bir-birlərinə uzun bir dəhliz vasitəsilə birləşir. Dəhlizlə birləşdirilmiş soldakı bina 3 mərtəbədən, birinci mərtəbəsi sinif otaqlarından, ikinci mərtəbəsi müəllimlər və təhsil şöbəsi işçilərinin otaqlarından, üçüncü mərtəbəsi isə tələbələr üçün olan yataqxanadan ibarətdir. Dəhlizlərin mərkəzində yerləşən bina da üçmərtəbəlidir. Bu binanın 1-ci mərtəbəsi rektor statusu almış rəis otağından, rəis müavinlərinin və mühasibin otaqlarından, ikinci mərtəbəsi iki sinif otağı və kitabxanadan, üçüncü mərtəbəsi isə konfrans zalından ibarətdir. Dəhlizə birləşdirilmiş, üçüncü, sağdakı bloksa, digərlərindən fərqli olaraq, bir mərtəbə əskik, ikimərtəbəlidir. Bu blokun birinci mərtəbəsində idman zalı, tualet və hamam, ikinci mərtəbəsində isə yeməkxana, təmizlik və yemək işlərinə baxan xidmətçilərin otaqları var. Mən ilk dəfə Zamin və adaşım Kənanla həyətində kiçik futbol meydançasından savayı bir şey olmayan həmin yaşıl damlı blokların önündə tanış oldum. Mən oraya zar-zor təkbaşına gəlsəm də, onlar ataları ilə birgə gəlmişdilər. Onlarla birlikdə Akademiyaya yaxın ərazidə piyada gəzib-dolaşaraq normal bir kirayə ev tapıb mülk sahibi ilə sövdələşdik. O

zaman lom udmuş, danışıb-dinməyən Kənanla Zamin indi-indi dilotu yeyiblər. Biz danışıb-dinməzlərin ataları ilə birlikdə kirayə ev sövdələşdikdən sonra ayrılıb uşaqlıqdan yaşadığımız doğma diyarlarımıza qayıtdıq. Sentyabrın 14-ü atamla birlikdə yükümü maşına vurub Bakının Sabunçu rayonunun Zabrat qəsəbəsində yerləşən, qəbul olduğum Akademiyaya yaxın kirayə etdiyimiz evə gəldik. Tülkü Zamin məndən bir gün öncədən gəlmiş ən yaxşı yatağı özünə götürmüşdü. Mənə də bir il üzərində yatmaq məcburiyyətində qaldığım köhnə bir yatağı götürmək qalmışdı. Zibil yığını lap köhnələrdən, setka ilə həsirlənmiş olanlardan idi, özü də telləri boşalmışdı. Üzərində uzandığım zaman dalım yerə dəyir, ayaqlarımla başımsa göydə qalırdı. Ona görə belim hələ də ağrıyır.

***

Kirayə tutduğumuz evdə ilk gün valideynlərimiz bizə bir xeyli məsləhət vermişdilər. Evdən özümüz üçün bişirib-gətirdiyimiz cücəni də yeyib getmişdilər, neynək, canları sağ olsun. Onların hər biri məsləhətlərində mehriban olmağımızı, yeməyi, qabları, evi təmizləməyi sıra ilə etməyimizi tövsiyə edirdilər. Biz də quzu kimi sakitcə onların söylədiklərini başımızla təsdiqləyir, nə deyirdilərsə, "yaxşı" deyirdik. O məsləhətləri dinləməyimizin, "yaxşı" deməyimizin üstündən qoymadıq ki, uzun zaman keçsin. Elə bundan 1 ay sonra erməni-müsəlman davası başlamışdı artıq. Bir-birimizə iyəşir, nə qab yuyur, nə də ev təmizləyirdik. Acdığımız zaman da birnəfərlik bir şey bişirir, kolbasa qızar-

dır, kartof qaynadır, ya da evdən gələn hazır, bişmiş yeməklərdən isidib yeyirdik. Hələ günün birində ortada çirkli bir boşqab var idi. Yuyulmamış boşqabın kimin olduğunu tapa bilmir, bir-birimizə: "Mən o qabda yemək yeməmişəm, bunu sən bulamısan, sən də yumalısan", – deyərək mübahisə edirdik. Kimin əməli olduğunu dəqiq bilə bilmədiyimiz yağa bulaşmış, çirkli, dilsiz-ağızsız, bu günahsız qabı üçümüz də yumaq istəmirdik. Belə baxdıqda o qabı yumaq çox da çətin iş deyildi, bir boşqabı yumaq nədir ki? Sadəcə, onda dost deyildik, bir-birimizi yeni tanıyırdıq və kimsə kimsənin buladığı hər hansı bir qabı yumurdu. Belə baxanda düz edirdik. Ah, eqo, özümüzə sığışdıra bilməzdik bunu. Halbuki indi, 2016-cı ildə mən onların yanındayam, Zamin əsəbiləşib evi silib-süpürdü, indi də qabları yuyur. Zamin qız olsaydı, 100 faiz zəmanətlə indiyə almışdılar. Yeməklərindən yesən, barmaqlarını yalayarsan. Mən o vaxtlar ancaq yumurta bişirirdim, günün bu günü də yumurta bişirirəm. O isə yeməkdən fantaziyalar yaradır indi. O günlər mübahisələrdən bezib-usanaraq, təmizlik işləri və yemək bişirmək üçün cədvəl qurmaq qərarına gəldik və qurduq da. Cədvəli yazıb mətbəx divarına asmağımızdan çox keçməmişdi ki, yazdığımız bu nizam-intizam cədvəlinin müddəalarının mənə sərf etmədiyini gördüm, özü də cədvəldəki sıralamanın əksəriyyətini özümün yazmağıma baxmayaraq. Özümü didib-tökərək cədvəldəki sıralamanın dəyişilməsini, mənim üçün uyğun olmadığını Zaminə və adaşım Kənana söylədim. Axır 3-4 gündü ki, keçmək bilməyən bu

istəyimlə əvvəlki cədvəli cırıb yenisini yazdıq. Lakin bu yeni cədvəl də əskisi kimi yararsız oldu. Beləcə biz konstitusiyalı monarxiya yaratmış kimi olduq. O cədvəli bayaq yenə gördüm, hələ də vurduğumuz divarda eləcə, boş-boşuna asılı qalır. O bizim tarixi cədvəlimiz, ilk qanunumuz oldu. Birlikdə yaşamağımızın üstündən bir müddət keçdikdən, bir-birimizə öyrəşdikdən sonra heç cədvələ də ehtiyac qalmadı. Biz bir-birimizə öyrəşmiş, yavaş-yavaş dostlaşmağa başlamışdıq. Daha yemək bişirmək, qabları yumaq, təmizlik etmək üstə mübahisə etmirdik. Üçümüz də mədənicə yemək bişirməkdən, təmizlik etməkdən üz döndərmişdik. Qablar yığın-yığın yuyulmağı gözləyir, kim yemək yemək istəsə, qablardan birini yuyur, yeməyini yeyir və yenidən əvvəlki yerinə qaytarıb qoyurdu.

Akademiyada da hər şey öz yolunda idi. Qrup yoldaşlarımın adını bir-iki həftəyə tam dəqiq öyrənə bilmişdim. Doğrusu, əvvəl-əvvəl tələbə yoldaşlarımla bir-birimizi yaxşı tanımırdıq, hələ səmimiyyət yaranmamışdı, aramızda soyuq və səmimi olmayan yoldaşlıq münasibəti vardı. Zaman dərmanı işə düşdükcə səmimiyyət yaranırdı, bir-birimizi tanıyır, vaxt ötdükcə qaynayıb-qarışırdıq. Bəzi qrup yoldaşlarım mehriban idilər. Həftəsonları həmin qrup yoldaşlarımla birlikdə Dənizkənarı bulvara, İçərişəhərə dolaşmağa, film izləməyə gedirdik. Dərslərin başlanması günündən 3 ayına qədər hər şey çox xoş, tələbələrin hamısı səmimi görünürdü gözə, mən də elə sanırdım ki, yüksək bal toplayan, oxuyan insanlar mədəni, səmimi, hörmətli

insanlar olur. Sən demə, oxumaqla, yüksək bal toplamaqla adam olmaq olmurmuş, cahillər hər yanda olurmuş. Az öncə dediyim dostluq-mehribanlıq adlı illüziyanın sirri də 1-ci semestrin axırlarına yaxın açılmağa başladı, bu vaxtlar kimin kim olduğunu tanımağa başlamışdıq. Bizim qrupun daxilində qruplaşmalar yaranmışdı, hər kəs bir tərəfə çəkilmişdi. Mənə görə mənim yanımda olanlar və qarşı tərəfin qrupunda olanlar var idi. Hə, bir də adət aldığı kimi ikiüzlülük çox yerdə olur, əfsus ki, burada da var idi. Hər hansı bir qrupla əlaqəsini pozmayıb hamısı ilə mehriban olmağa çalışanlar. Elələrini öz mövqeyimdən sevmirəm, sanki Amerikadır o adamlar, bütün dünyaya qaradərili adamlarla, əsas ki, müsəlmanlarla yola getdiyini, tolerant olduğunu göstərməyə çalışan, fəqət sevməyən Amerika. Belə insanların heç vaxt səmimi dostu olmur. Onlar kimi aldatdıqlarını hələ də anlaya bilmirlər. Onlar özlərini aldadırdılar, özlərini. Nə isə, Bunlardan yeri gələrsə danışaram. Daha danışmaq istədiklərim, sadəcə, yaşadığım bu evə necə gəlib çıxmağım, Arzu və xor rəhbərinə bənzər, dilsiz-ağızsız otaq yoldaşım Pinti barəsində aydınlığa çıxarmaq istəyirəm səni. İndi isə kitabın əvvəllərində Arzu haqqında dediyim yalanları düşünmə və gözünü aç, doğruları dinlə, bu sözdə nəsə yanlışlıq var. Ən yaxşısı, kitabı oxumağa davam elə, dostum.

***

Zaminlə, Kənanla olduğu kimi Arzu ilə də Akademiyada tanış oldum. Bəzi türk filmlərindəki kimi ilk görüşdən ona aşiq olmamışdım. O vaxt kənddən şəhərə

yeni gəlmişdim, buna görə də gözlərim buqələmun gözləri kimi qaynayırdı. Bütün günü parklarda sülənir, açıq-saçıq geyinən qadınların çöldə qalmış sinələrinə, ayaqlarına, kiçik alətimi oyadacaq çılpaq bədənlərinə baxır, evə gəldikdən sonra masturbasiya edirdim. Anlayacağın axmaq-axmaq şeylərlə məşğul olur, gözümün önünü görə bilmirdim. Bir müddət sonra masturbasiyadan savayı digər iyrənc hərəkətlərimdən yaxa qurtarmağı bacarıb, gözümün önündəkiləri görməyə başladım. Zamanla Arzuya qarşı hisslərim yarandı, bu hisslər, əlbəttə, cinsi ehtirasdan doğan hisslər deyildi. Bunlar pak qəlblərə məxsus saf məhəbbət hissləri idi. Bir qadına qarşı necə belə hisslərin yarandığını soruşacaq olsan, buna bir cavab verə bilməyəcəm, deyəsən, bunlar taleyin oyunudur. Bildiklərim yalnız onun danışığı, hərəkətləri, gülümsəməsi, nə edirdisə mənə xoş gəlməsidir. Arzuya qarşı hisslərim elə bir həddə çatmışdı ki, onu, iradəmdən asılı olmayaraq, qısqanırdım. Bu məndən asılı deyildi, özüm də istəmədən onu qısqanırdım, sevgidən doğan qısqanclıqla. Arzu dostları ilə harasa gedəndə "evə tez qayıt" demək istəyir, dərsdə həmişə təsadüfən olurmuş kimi yanında oturub kimləsə yanbayan oturmamasına çalışır, dərsdən çıxanda qəsdən yubanaraq onunla birlikdə getmək istəyirdim. Xoşuma gəlməyən geyimi olduqda "bu nədir, geyinmisən?" demək ürəyimdən keçirdi. Axı mən bunları ona necə deyərdim? O mənə "sənə nə" desə idi birdən, axı mən onda nə deyərdim Arzuya? Nə söz tapıb deyə bilərdim ki? Bu onun həyatı idi, öz istədiyini də edərdi. Belə bir şey olsa, düşünürdüm ki,

filmlərdəki kimi "çünki səni sevirəm" deyərəm, sonra təkrar düşündüm ki, "əşi, Kənan, bu həyatdır, film deyil, birdən dönüb desə ki "o sənin problemindir", onda nə deyəcəksən bəs?" Heç başlamamış bir eşqin sonu olardı. Hər şey o filmlərdəki kimi asan deyil ki. Amerikan filmlərində olanlar bizim mentalitetdən tamam ayrıdır, oğlan bir qızı sevirmi... hə, belədə gedir qızı tutur, dodaqlarını söykəyir dodaqlarına, nə bilim harasını əlləyir, axırda gedib çıxırlar yatağa, bir az da yataqda güləşdikdən sonra əl-ələ tutub gedirlər, xoşbəxt son. Gəl sən onu dalın çatır buralıqda elə görüm də. Şəlaləni göstərməyə, butulka söhbətinə qızın qohumlarının gənc kadrları namus borcu olaraq, gözlərini qırpmadan, başı üstə gələcəklər, bəlkə də çəkib "Youtube"a-filan "şərəfsiz adam" başlığı altında atarlar ki, hamı görsün, ibrət olsun. Həmin qızın əmisi, dayısı nə edər? Daha orasını da özün düşün, dostum. Gör hara gəldim çıxdım e... söhbətimin ardını gətirim, mənim əziz və mehriban dostum. Arzunu sevdiyimi bir neçə dostuma da demişdim, ağlıma görə ağıllı adamlarla məsləhətləşmişdim. Bu günə kimi əli qız əlinə dəyməyən, sevgilisi bir yana, qız dostu olmayan bəzi dostlarım: "Nədən qorxursan axı, get de, de ki, səni sevirəm, nə bilim, səndən xoşum gəlir, qorxma, qaqaş canı, düz deyirəm, nə var axı burda? Pis bir şey etmirsən ki, utanılacaq da heç nə yoxdur, get denən" – dedilər mənə. Mən də bu sözlərlə bir xeyli havalanıb yüksəldim. Onsuz da ürəyim partlayırdı, bu gün-sabah ona yaxınlaşıb sevdiyimi demək istəyirdim. İnşallah, avqustun 19-dakı kimi olmazdı, istədiyim kimi

alınardı. Mən yenə ogünkü kimi – avqustun 19-da qərar verdiyim kimi özümü hazır hiss etdim, nə deyəcəyimi də çoxdan fikirləşmişdim.

***

26 dekabr, 5-ci gün dərsə çox tez getmişdim, Arzunun gəlməsini gözləyirdim. Dərs başlamamış ona onu sevdiyimi deyəcəkdim. Eşq etirafı etmək fikrilə, ağılsız başımla, eşqlə yanan qəlbimlə həmin gün bir saat Akademiyanın koridorunda Arzunu gözləmişdim, amma o gəlib çıxmaq bilməmişdi. O gün Arzu gələnə kimi dərsin vaxtı yetişdi, mən də keçib sinifdə, arxa sıralardan birində əyləşdim. Müəllim sinfə girərək salam verib tələbələrə məxsus partalarla üzbəüz, sinfin sağ tərəfində, pəncərə önündə yerləşən, üzərinə kompüter qoyulmuş, müəllimlərə məxsus masanın arxasındakı stulda əyləşdi. Masa üzərindəki, müəllimlərin istifadəsinə verilmiş kompüterdə Akademiya saytındakı profilinə daxil olub jurnalı yoxlamağa başladı. Müəllim öz dəmində adını söylədiyində səsini eşitmədiyi tələbələrə qayıb yaza-yaza digər tələbələrin adlarını çəkməkdə idi, mən isə: "Ay kor bəxtim, bu gün özümü toplayıb Arzuya sevdiyimi deyəcəkdim" – deyə düşünürdüm ki, qapı açıldı və Arzu sinfə girmək üçün müəllimdən icazə istədi. Müəllim Arzuya 2 dəqiqə gecikdiyi üçün minnət edərək: "Bir daha gecikmə, yoxsa qayıb yazaram" – demədi. Amma oğlanlardan hansısa geciksəydi, əminəm ki, deyərdi. Bəzi müəllimlər bu mövzuda qızla oğlan arasında fərq qoyurlar. Nəinki bu mövzuda, bir çox mövzuda müəllimlər heç də obyektiv deyillər, subyekt nə

cür obyektiv ola bilər ki?! Nə isə, o zaman qapını açanın Arzu olduğunu görəndə üzümü təbəssüm canlandırdı. Yenə: "İkinci dərsdən sonra 30 dəqiqəlik fasilədə ona sevdiyimi deyəcəyəm", – deyə düşünməyə başladım. İkinci dərs fəlsəfə fənn müəllimi, Elçin müəllimin dərsi idi. Müəllimin maraqlı tədris metodologiyasına baxmayaraq, fəlsəfə mənə hədsiz sıxıcı gəlirdi. İki min il əvvəl kimlərinsə bir-birinə dediyi atmacaları mən niyə öyrənməliydim axı? Bir azca fəlsəfənin sıxıcı olmasını, qalan dərsin 70 dəqiqəsini isə Arzunu düşünməklə bitirdim, son 10 dəqiqədə müəllimin: "Sabah şənbə günüdür, bəlkə sinemaya gedək, uşaqlar, çox maraqlı bir film var" – deməsində ayıldım. Getmək istəyənlər təsdiq olaraq əllərini qaldırmışdılar. Əllərini qaldırmış tələbələr sırasında Arzunun da əlini qaldırdığını gördüyümdə mən də əlimi qaldırdım. Müəllim neçə nəfər tələbənin gedəcəyini saydı, nəticədə mən də daxil olmaqla birlikdə sinemaya gedəcək olan tələbələrin sayı 12 nəfər oldu. Film "Nizami" kinoteatrının böyük zalında olacağı üçün sayın çox olmasının heç bir problemi yox idi, lap istəsən əlavə yüz nəfər adam yığ get, biz isə cəmi 25 nəfər tələbəyik, niyə saydı ki? Sinema işini nəzərə alıb: "Arzuya onu sevdiyimi sabah desəm, daha yaxşı olar", – deyə düşündüm. Böyük fasilədə Arzuya yaxınlaşıb sabah ona bir şeylər söyləyəcəyimi deyəndə israrla nə deyəcəyimi öyrənmək istəsə də, ona heç nə deməyib, qız kimi utanıb gülümsəyərək: "Sabah deyəcəyəm", – dedim. O, israrından əl çəkib axır mənimlə razılaşmışdı. Razılaşmasa idi də, onsuz yenə deməyəcəkdim. 3-cü

dərsi də bitirdikdən sonra evə yollanmaq üçün Arzu ilə birlikdə söhbət edə-edə dayanacağa getdik. Oradan da avtobusa minib Akademiyadan ayrıldıq. Mənim yolum qısa olduğundan təxminən 5 dəqiqədən sonra Arzu ilə sağollaşıb avtobusdan endim. Evə çatdığımda Kənanla Zamin qoca arvadlar kimi eşq mövzumla əlaqədar mənə: "Nə oldu? Nə dedin? Necə dedin?" kimi bir çox suallar yağdırdılar. Onların suallarının bitməyəcəyini düşünüb, hələ söyləmədiyimi, sabah sinemaya gedəcəyimizi, filmdən çıxdıqdan sonra söyləyəcəyimi burada yazdığımdan daha təfərrüatlı danışdım. Söhbətimin sonunda adaşım Kənan:

– Ə, kişi ol, niyə qorxursan? – dedi, bəlkə də məni dəli etmək üçün.

Mən də Kənana:

– Bayaqdan məni haranla dinləyirsən, sabah deyəcəyəm də, – dedim.

Üçümüz də buna bir xeyli güldük desəm, yalançı olaram, amma güldük.

***

İndi olduğu kimi o zaman da bir xeyli şeir yazırdım, ən çox da sevgidən yazırdım, aşiq oldun, belə olur, neyləyəsən? Bu şeirlərimi hər kəs bəyənirdi, hər kəsin qəlbinə yol tapırdı. Bir Zaminin bibisi oğlu yazıçı, publisist, dramaturq, şair, Xalq artisti adını almayan, alim, professor olmayan Ənvər bəyə bəyəndirə bilmirdim. Elə şeirlərimdə bir balaca səhv axtarırdı ki, gözdən salsın. Ona oxuduğum bütün şeirlərin hamısında bir yanlışlıq axtarırdı. Öz şeirlərində qoyundan-quzudan bəhs et-

mirmiş kimi, sadəcə, qafiyədən və yerli-yersiz sözlərdən ibarət olan şeirlərini elə ürəklə oxuyurdu ki, sanki fəlsəfi, hikmətamiz nəsə yazıb. O gün bu Ənvər bizə qonaq gəlmişdi, bunları oradan xatırladım. Qonağımız bir paket günəbaxan da almışdı, sağ olsun, nə vaxt gəlsə idi, bir paket günəbaxan gətirərdi, heç vaxt əliboş gəlməzdi. Mən sabahla əlaqədar həmin gecə həyəcandan yata bilməyib, məcburən gecə saat 3-ə kimi Ənvərin oxuduğu şeirlərin sehrini görməyə çalışdım, ha çalışdım, çox vuruşdum, ancaq bir şeylər görə bilmədim. Onun şeirlərində sehr axtarmaq samanlıqda iynə axtarmaq kimi bir şeydi, o iynəni axtaransa ya ağıldankəmdi, ya da aşiq, eynən mənim kimi. Gecə saat 4-ə işləmiş insanın belinə rahatlıq verən, dünyalara belə dəyişməyəcəyim, zibilə qalmış yatağıma uzandım. Haradasa saat beşə kimi Arzunu, ona sevdiyimi necə deyəcəyimi düşünərək yerimin içində fırlanıb-dururdum. Axır nə vaxtsa yuxu qapını döymədən, asta-asta, səssizcə içəri girməyi bacara bilmiş, gözlərim yumulmuşdu. Sabahı saat 10-da yerimdən qalxar-qalxmaz duşa girib, 4-5 dəfə saçımı şampunlayıb yuduğumu rahatlıqla deyə bilərəm. Hamamda baş verən digər əhvalatları qədim avropalılardan, suya həsrət afrikalılardan və dünya üzərində yaşayan heç nəsiz-kimsəsiz insanlardan başqa bütün insanlar bildiyi üçün daha buraya yazmıram. Ayna önünə keçərək bir xeyli saçlarımı sağa-sola, oyan-buyana fenləyib, yeni aldığım köynəyimlə cins şalvarımı geyindim, Zaminin ətri ilə, demək olar ki, bir daha çimib, hazırlaşaraq evdən ayrılıb dayanacağa getdim.

# Böyük Gün

Avtobusla "Koroğlu" metrostansiyasına çatmışdım ki, Elçin müəllim zəng edib harada olduğumu soruşdu. Mən də yalandan "28 May" metrostansiyasında olduğumu deyib, tələsik metroya girdim. "İçərişəhər"ə gedən qatara minib, "Sahil" metrosundan "Nizami" kinoteatrının qarşısına gəldim. Mən gəldiyimdə Elçin müəllim, Sənan, Adəm, Əli, Ramil, Gülnar və Nərgiz orada dayanmış, digər tələbələrin gəlməsini gözləyirdilər. Arzunun burada olmadığını görüb film izləməyə gəlməyəcəyini düşündüm. Buna görə kimsə Arzunu xoşladığımı hiss etməsin deyə, sanki soruşanda Arzudan xoşlandığımı hamı biləcəkmiş kimi utanıb-çəkinməyimi gizlədərək, üzümü müəllimə tutub etinasızca: "Ülvi, İlkin, Nigar, Arzu hardadırlar bəs?" – soruşduğumda Nəcəf də özünü məclisə yetirdi. Müəllim: "Nigarla Arzu harada olsa gələr, Ülvi ilə İlkin bayaq "Ulduz" metrosunda olduqlarını dedilər. Onlar da bir azdan burada olarlar" – deyəndə boşuna narahat olduğumu, "harda olsa gələr" – deyə düşündüm. Həm sevincli, həm də çox həyəcanlı idim. İçimdə kəpənəklər uçuşur, ürəyim sürətlə döyünür, gözlərim gülürdü. Nə vaxtdır Arzuya demək istədiyim sözü bu gün, axır ki, ona deyəcəkdim. O vaxt orada bir anın içində necə xəyallar qurduğum yadımdadır, xəyallarım o yerə kimi gedib çıxmışdı ki, artıq Arzu ilə evlənmiş,

böyük evimizi romantik edən buxarının qızdırdığı geniş otaqdakı masada uşaqlarımızla birlikdə şam yeməyi edirdik. Xəyallar aləmində olsam da, gerçəklikdə dinc dura bilmir, tez-tez əlimlə saçımı düzəldib hey ətrafa baxır, Arzunun gəldiyini görmək istəyirdim. Gah əlimlə qaşlarımı tumarlayır, gah köynəyimi dartışdırır, gah da kəmərimin toqqasını sağa-sola çəkir, hövsələsiz təkrar ətrafa boylanır, göz gəzdirirdim. Elə dinclik bilmədən, səbirsiz ətrafa baxdığımda uzaqdan, piyadalar üçün nəzərdə tutulmuş, ağacların kölgələdiyi yol qırağındakı səkinin üzəri ilə bir xanımın sevgilisi ilə qol-qola girib bizə sarı gəldiyini gördüm. O xanıma qəfil gözüm sataşmışdı və Arzuya bənzətmişdim. Sevgilisi ilə qol-qola gələn xanımı bir anlıq Arzuya bənzətdiyimdə az qalsın ürəyim çıxacaqdı yerindən, sanki sinəmə iynə batırırdılar, elektrik vurmuş kimi oldum. Bir anda karıxıb qalmış, özümü itirmişdim. O xanımın Arzu olmadığını yəqin edərək özümə gəlib, saçımı düzəldə-düzəldə yenə ətrafa boylanmağa davam etdim. Səbirsizliyə, həyəcana, yenə xəyallara bürünərək xoşbəxtlər dünyasının endorfin dənizinə baş vurdum. Dənizdən çıxıb qurulanaraq az öncə görüb həsəd apardığım cütlük gələn yönə təkrar baxdım. Bayaqkı cütlüyün yaxınlaşdığını, bizə lap az qaldığını gördüm. Gözlərimə inana bilmirdim, bu həqiqətdirmi, yoxsa qorxulu bir yuxudayam? O anda gözlərim qaraldı, ürəyim dəlicəsinə döyünməyə, yenə məni elektrik vurmağa başladı. Sinəmdə ildırımlar çaxır, fırtınalar çuğlayır, xoşbəxtlər dünyasının endorfin dənizi donur, su pəriləri ölərək üzə çıxırdı. Gözlərimə

inana bilmədiyimdən onları bərəldərək diqqətlə baxırdım. Amma heç bir şey dəyişmirdi. Gözlərim məni aldatmırdı. Az öncə gördüyüm o cütlük, Arzuya bənzətdiyim o qız elə Arzunun özü imiş. O, sevgilisi ilə qol-qola girmiş, bizə tərəf gəlirdi. Gördüklərim qorxulu yuxu kimi idi, lənət olsun ki, bu qorxulu yuxudan oyana bilmirdim, oyanmaq olmur. Nə edim indi mən? Yuxu deyilən həyatdanmı oyanım? Özümü öldürümmü? Bu 13-cü adam. Bu 13 rəqəmi həqiqətən uğursuz imiş, uğursuzluq oldu mənim üçün. 13 rəqəminin uğursuz olduğunu eşitmişdim, amma inanmamışdım, həqiqət imiş. O cütlüyün gəliş səhnəsini çox izləyə bilməyərək su almaq adı ilə kinoteatr binasının içinə girdim, ipi qırılmış buzov sayağı hara gedəcəyimi bilmirdim.

***

Mən içəri girəndə izləyəcəyimiz filmə yarım saat qalırdı, zamanı itirməyə ən rahat yerin tualet olduğunu düşünüb kinoteatr işçilərindən tualetin yerini öyrənərək tualetə gedib kranda ovuc-ovuc üzümə soyuq su vurdum. Aynaya baxdığımda gözləri qızarmış, üzü pörtmüş, hüzn səhrasının isti qumları üzərində yanan, əzilmiş bir insanla rastlaşdım. Aynadakı o adamın sakit, yazıq halına acıyır, hər şeyini itirdiyindən bu dəmdə olduğunu düşünür, nəsə bir kömək etmək, dərdini soruşmaq istəyirdim. Onun üzündəki ifadədən qəlbindən keçənləri, başına gələnləri oxuduğumdan dərdini soruşmadan, bir şey demədən, səssiz-səmirsiz tualetdən çıxıb bilet satılan yerə gəldim. Kinoteatr binasının əsas giriş

qapılarının açıldığı böyük zalda müəllim və tələbələrin bir qıraqda toplaşdığını, Arzunun da sevgilisi ilə yanbayan tələbələrlə birlikdə dayandığını görüb məyus-məyus onlara yaxınlaşdım. Müəllim mənə: "Film indicə başlayacaq, bayaqdan səni gözləyirik, al, bu biletin, tələsin, uşaqlar, gedək", – dedi. Biz də müəllimin dediyini edib, ikinci mərtəbəyə qalxaq deyə pilləkənlərə sarı getdik. Arzunun mənə üçüncü salamında onu eşidə bilmiş, sakitcə salamını qaytarmışdım. O, eybəcər sevgilisinin yanından bir dəqiqə də olsun ayrılmayır, qolundan qopmayır, filmi izləmək üçün sevinclə, həvəslə irəliləyirdi. Mənimsə hər şeyə həvəsim ölmüşdü, heç film izləmək havasında deyildim, evə qayıtmaq istəyirdim. Onsuz da film izləmək üçün gəlməmişdim ki, mənim niyyətim Arzuya onu sevdiyimi demək idi, o isə sevdiyi ilə gəlmişdi. Bundan pis daha nə ola bilərdi ki? Təsirləndiyim o dram teatrın tamaşasından sonra göz yaşlarımı silmək üçün daha orada durmaq istəmirdim. Amma özümü məcbur edib müəllimə hörmətsizlik olmasın deyə zala girib biletdə göstərilən yerə əyləşdim. Sanki o gün mənim talesizlik günüm idi. Arzu sevgilisi ilə gəlib düz solumda əyləşdi – 500 nəfərlik oturacaqlı, o böyüklüyündə zalda. İlahi, nə bədbəxt adamam mən!

İşıqlar sönüb zalı qaranlığa qərq etdikdə zalın böyük ekranı açılaraq bir şam kimi ətrafı işıqlandırdı. Sinemada olan digər filmlərin fraqmentləri göstərildikdən sonra izləyəcəyimiz film başladı. Hər kəsin fikri filmdə, mənimsə fikrim Arzu və onun qoyun sevgilisində idi. Elçin müəllimin dərsdə tələbələrə maraqlı dediyi film,

sən demə, ruhlardan bəhs edən qorxu filmi imiş. Dərsdə müəllim bunu bizə deməmişdi. Mən də nə müəllimdən soruşmuş, nə bu günlə bağlı filmlərə Sinemanın saytından baxmış, nə də ki, film başlayanadək əlimdəki biletə diqqət yetirmişdim. Başım o qədər dağınıq idi ki, heç nəyə fikir vermirdim. Yalnızca fikrim solumda oturanlarda, Arzu və onun qoyun sevgilisində idi. Mən özümü ölü kimi hiss edir, "Kaş filmə gəlməzdim, heç bunların şahidi olmazdım", – deyə düşünür, filmə gəlməyimə it kimi peşman olmuş, boğula-boğula yerimdə otururdum. Mən bura Arzu üçün gəlmişdim. Arzu isə sevgilisi ilə gəlmişdi – necə də xoşbəxt adamam mən! O gün hər şey sanki üst-üstə gəlirdi. Filmin 34-üncü dəqiqəsində, qorxulu bir epizod gəldiyi sırada Arzunun o yanındakı zibilə necə sığındığını görmək ömrümdən ömür aldı. Sanki bunları qəsdən, mənə acıq vermək üçün edirdilər. Bu artıq görmək istəmədiyim, sərhədlərimi aşmış, mən 10 yaşında, gördüklərimsə 18+ səhnə idi. Daha bu qədəri yetmişdi mənim üçün. Qaranlıq zalda oturacağımdan qalxıb, birbaşa qapıya yönəlib zalı tərk etdim.

***

Zaldan bayıra, işıqlı dünyaya çıxsam da, dünya gözlərimdə qaralmış, üzərinə gün düşməyən soyuq Ay səthinə bənzəyirdi. Oradan üstümdə min tonluq yük varmış kimi əzilə-əzilə, bütün arzularım, düşündüklərim, xəyallarım məhv olmuş halda birbaşa Zabratda kirayə tutduğumuz evə qayıtdım. Evə çatdığımda, yaxşı ki, nə Zamin vardı evdə, nə də Kənan,

çox şükür ki, Ənvər də çıxıb getmişdi. Onlara bu gün Arzuya sevdiyimi söyləyəcəyim barədə bir şeylər demişdim. Əgər evdə olsaydılar, söhbətə tutacaqdılar, mən də onların bu barədə sorğu-sualına tab gətirə bilməyəcəkdim. Çarəsiz halda onlara puç olmuş eşqim barədə, yaxud başqa şeylərdən danışmağa nə məndə hal qalmışdı, nə də bir söz. Gördüklərimdən sarsılmış, istəklərimin bu qədər tez bitməsindən tükənmiş, qəmimi boğazımdan keçirə bilməyib udqunmaqdan yorulmuşdum. Heç olmasa bir müddətlik yaşadıqlarımdan, gördüklərimdən, həqiqətlərdən doğan ağrılı əzabdan, ümumiyyətlə, dünyadan uzaqlaşmaq üçün, sadəcə, başımı atıb yatmaq istəyirdim. Nəhayət ki, bu gün bir istəyim ürəyimcə oldu – evə girməyimlə yatağa girməyim bir oldu. Sadəcə, başımı balışa qoyduğumu, Arzunun o qoyunu qucaqlamasını düşündüyümü xatırlayıram, ondan sonra məni dərin yuxu aparmışdı. Oyandığımda gecə saat 3 idi, bir az yerimin içində fırlanıb, uzandığım vəziyyətdə yataqda telefonumu axtardım. Yerin içindən, qarnımın altından tapdığım telefonuma baxdığımda 2 dəfə Elçin müəllimdən, 2-3 dəfə də Ramillə Sənandan zəng gəldiyini gördüm. Onlar mənə təxminən günorta saat 4-də zəng etmişdilər, əks zəng etmək üçünsə heç də uyğun bir vaxtda oyanmamışdım. Uyğun zamanda oyansaydım da, zəng etməzdim, çünki mənim üçün əhəmiyyətli deyildi və onların niyə mənə zəng etmələrinin səbəbini anlamaq çətin deyildi. Onların filmdən xəbərsiz çıxıb getdiyim üçün "Sən hara getmisən? Niyə getmisən?" kimi gic-gic suallarına ca-

vab verməyə niyə zəng edim, özümü yorum ki? Zəng edənlərin adlarını oxuduqdan sonra interneti açıb "Facebook" profilimi yoxladım. Bu, demək olar ki, hər gün əl-üzümü yumazdan əvvəl adət etdiyim şeylərdən biri idi, "Facebook" profilimdə mesajlar bölməsinə girdiyimdə mesaj yazanlar siyahısında Arzunun da adı var idi. Siyahıdakı adları oxuduqda Arzudan başqa 3-4 nəfərin də mesaj yazdığını gördüm. Bu gün gördüklərimlə xəyal qırıqlığından, Arzuya əsəbi olduğum üçün onun mesajına baxmaq istəmirdim, onun da yazdıqları zəng edənlərin niyyəti kimi aydın idi mənə – boş və mənasız. Mesaj yazanlardan digərləri Ramil, Sənan, Ülvi və Nigar idi. Nədənsə ərinməyib boş və mənasız suallara elə boş və mənasız cavablar yazmaq keçdi ağlımdan. Düşündüyümü edib Ramil, Sənan və Ülvinin yazdıqlarını oxuduqdan sonra üçünə də bir bəhanə taparaq eyni bəhanəni yazıb yolladım. Nigar qız olduğu üçün ona oğlanlara yazdığımdan fərqli, səmimiyə bənzər, şirin bir bəhanə uydurub, mədəni oğlanların yazdığı tərzdə bir az uzun cavab yazdım. Nigardan sonra növbə Arzunun yazdığına gəlmişdi, amma saatlar öncə gördüyüm mənzərə Arzuya qarşı olan sevgimi tamamən məhv etmiş, əvəzindəsə yerinə bir böyük boşluq və bu boşluqdan doğan əzablı kədər qoymuş, əzab verən bu kədər də ona qarşı nifrət oyatmışdı qəlbimdə. Mənim məlul qəlbimin onun yazdığı şablon və mənasız sözləri oxumağıma taqəti çatmazdı, infarkt keçirərdim, dostum. Mən daha naşad qəlbimə çəkdiyi ağrılardan artıq ağrı vermək, daha da əzab çəkmək istəmirdim. Elə ağrı-

əzabla dolu nifrət hissi ilə Arzunun yazdığı mesajı oxumadan telefonu söndürüb bir qırağa atdım.

***

Həmin gecəyarısı oyandığımda sadəcə bir şey üçün sevinmişdim. Sevindiyim o şey də ki, oyandığım vaxt Zaminlə Kənanın xorul-xorul yatdıqlarını görmək oldu. Sevindim, çünki oyandığım vaxt da onlarla bir şeylər danışmağa halım yox idi, yalnız sakitcə qəlbimi parçalayan əzabı çəkmək, əzabın verdiyi acıyla həzz almaq istəyirdim. Bunlar bir yana, onu da deyim ki, həmin vaxt telefonu bir qırağa tolazlayıb qaçaraq tualetə getməyib, yerimdə azca da uzanıb qalsaydım, yatağı isladacaqdım. Yatarkən belə əynimdən çıxarmadığım şalvarımın kəmərini tələsə-tələsə açaraq, özümü zorla düşüncələri tüğyan etdirən məkana çatdırıb, yanğınsöndürənlərin əksinə yanmayan yerləri isladaraq, içimdə alovlanan yanğını söndürdüm, beləcə sidik kisəsindəki qalmaqal, böyrəklərdəki üsyan, kəmərdən aşağıdakı xaos yatdı, mən də yüngülləşib rahatlaşdım. Kəmərimi düzəldib, şalvarın zəncirbəndini dartaraq qapını bağlayıb evə girmişdim ki, tualetdən çıxıb əlimi yumadığım yadıma düşdü. Ah, lənət olsun, bu küləkli, soyuq gecədə yenidən qayıdıb yaşadığım kirayə evin əsas qapısını açaraq eyvana çıxıb, yenə sol tərəfə istiqamət alaraq kranın yanına dönüb üşüyə-üşüyə əlimi yumalı idim. Əlimi yumaq üçün həmin yerə təzədən getməyə ərindiyimdən özümə: "Onsuz əlimi vurmadım ki, şalvardan tutmuşdum, təmizdi əlim. Lap belə dəysin, öz orqanımdı da,

nə olacaq axı?!" – deyərək təskinlik verdim. Şalvarımın cibindən əzilmiş siqaret qutusunu çıxarıb, içindən bir siqaret götürərək gedib aynabəndin başına qoyulan, qol söykənəcəyi qırılmış, yaşıl üzlü, qəhvəyi naxışlı divanda əyləşdim. Biz adətən yemək yeyəndə, çay içəndə, filmə baxanda, söhbət edəndə burada oturardıq. Yataq otağına isə ya kitab oxumağa, ya da bir-birimizdən gizlin pornovideolara baxmaq üçün, bir də yatmaq üçün keçirdik. Üzərində yayxanmaqdan fətirə dönmüş, kirdən boz rəngə çalan, iki kiçik nalçadan birini divanla belimin arasına, birini də altıma qoyaraq yerimi rahatlayıb bayaqdan bəri damağıma qoyduğum siqareti yandırdım. Qutudan neçə siqaret götürüb çəkdiyim yadımdan çıxdığı üçün siqaret qutusunu açıb, geriyə qalan siqaretləri saymağa başladım, siqaretimi ona görə saymırdım ki, mən buna adət etmişdim. Ona görə sayırdım ki, səhərə qədər bu zəhrimar mənə çatar, ya çatmaz. Sayı nəzərə alıb fasilə aralığını nizamlaya bilim ki, siqaretim səhərə qədər bitməsin, axı gedib siqaret almağım üçün biz qalan evin yaxınlığında 24 saat işləyən bir market yox idi, həmin vaxt isə gecə saat dörd. Ancaq səhər saat səkkizifilan gözləməli idim. Belə bir vəziyyətdə siqaretə insanın çox ehtiyacı olur, insanın sinirlərini sakitləşdirir, əsəblərini cilova ala bilir. Həm də o bəzən dərdinə sakitcə yanacaq tək ortağın, dərdini açıb-demədən səni hər nəfəs aldığında anlayacaq sirdaşın, hər nəfəs alıb-verdiyində közərə-közərə, yana-yana özünü tükədəcək dostun olur. Hələ belə vaxtlarda, kefinin olmadığı bir vaxtda zəhrimar yağlı yemək üstündən çəkilən kimi

çəkilir sinəyə. Siqaret çəkə-çəkə yenə dünən olanları düşünməyə başladım. Gələn cütlükləri təsadüfən gördüyümdə xanımı Arzuya bənzətməyimi, sonra o xanımın elə Arzunun özü olduğunu gördüyümü, sinemada sevgilisini necə qucaqladığını xatırladım. Orada keçirdiyim ağrılı-acılı hissləri düşünərək bir daha o gecə yaşadım. Sanki o hadisələr yenidən başıma gəldi, yenə qol-qola gəlir, yenə o adamla deyib-gülür, yenə onu qucaqlayır. O qorxunc mənzərə hər gözümdə canlandığında beynimdə qaranlıqda sürünürmüşəm kimi, məni ələ salırmışlar kimi, Allahın ən aciz bəndəsi olduğum kimi bir hiss yaranır, gözlərim dolur, əllərim titrəyir, özümü bərbad hiss edirdim. Birinci tədris ilində oktyabrın ortalarından başlayaraq məni hər gün səhər tezdən yatağımdan çıxarıb bəzəyib-düzəyən, sevinclə o ali təhsil ocağına aparan, sevmədiyim maraqsız dərslərdə əksər oğlan tələbələrin nəzərə aldığı qayıb limitini gözləmədən, dərsi öyrənməyəndə müəllimin sıfır yazmağına baxmayaraq, bütün dərslərdə iştirak etməyimə səbəb, kitabı önümə qoyduqda xəyallara dalıb oxuya, dərslərə hazırlaşa bilməməyimə səbəb Arzuya olan saf eşqim idi. İndi isə artıq o sevgi, o eşq yox idi. Bəlkə də var idi, amma o sevginin üstündə ondan daha böyük olan nifrət hissi dayanmışdı. Nifrətimin yanında zərrə olan sevgimlə daha nə dərsə getmək, nə də onun üzünü görmək istəyirdim. Onsuz da dərslərdən o qədər sıxılıb təngə gəlmişdim ki, heç Akademiyaya getmək istəmirdim. Oxuduğum Akademiya yeni yarandığından özünəməxsus müəllim heyəti yox idi. Bu səbəbdən də buraya Bakı şəhərində

yerləşən bir sıra universitetlərdən xüsusilə seçilmiş, tədris etdiyi fənni üzrə yaxşı mənada fərqlənən, adlı-sanlı müəllimləri dəvət etmişdilər, həmin müəllimlər də dərslərə çox ciddi və tələbkar yanaşırdılar. Buna mənəvi baxımdan deyə bilərəm ki, tələbələrin yaxalarından yapışıb öyrətdiklərini tələb edirdilər. Hətta hüquq fənnindən dərs deyən bir müəllim var idi ki, kürsüyə çıxıb dərsi sətir-sətir, sözbəsöz, əla danışanda 10 ballıq qiymətləndirmə üzrə maksimum ya 8, ya 9 yazırdı. Bunun səbəbini soruşduqda isə: "Heç kim 10-a layiq deyil, heç mən özüm də", – deyirdi. Bir dəfə müəllim yenə belə deyəndə: "Belədirsə, 10-u çıxarsınlar, 9 ballıq sistemlə qiymətləndirmə olsun, ay müəllim", – dedim, uşaqların hamısı buna gülüb və özlərinə sərf edən söz olduğu üçün zarafata basıb mən deyəni təsdiq etdilər. Daha mən müəllimlərin belə sıxma-boğmasından yorulub-bezmiş, üzləşdiyim bu kimi hallarla həvəsdən düşmüşdüm, üstəgəl 27 dekabrda sinemada olanlardan sonra nə dərsə getmək istəyirdim, nə də oxumaq. Ayağa qalxıb ətrafı vurub dağıtmaq, hər şeyi salıb-sındırmaq, dəli kimi bağırmaq, başımı götürüb buralardan, bu şəhərdən arxama baxmadan qaçaraq ayrılmaq istəyirdim. Sanki, dostum, illərdir o qızı sevirdim, ona elə möhkəm bağlanmışdım ki. Özünü bir mənim yerimə qoy və elə düşün ki, birini aylar yox, illərdir tanıyırmış kimi, illərdir onu sevirmiş kimi tanımısan və sevmisən. İndi isə sanki aylarım yox, illərim puç olmuş, o illərin bağı çürüyüb qopmuş, məhv olmuşdu. Məni oxuduğum o yerə, çürüdüyüm bu evə, bu qəsəbəyə, bu şəhərə bağlayan bir bağ yox idi artıq,

yox olmuşdu. Yaşadığım hadisədən doğan hisslərin qəlbimdəki izi, onların mənə təsiri ilə sarsılmış, ağılsız başla düşündüklərim mənə o zaman heç də məntiqsiz görsənmirdi. Tələbə olmamışdan beş il əvvəl vaxtımın çox hissəsini oxumaqla keçirib, son iki ildə hazırlaşdığım kurs yataqxanasında gözlərimi korlayıb, gecəmi gündüz edərək, min bir əziyyət çəkərək oxuyub, hazırlaşıb bu tələbə həyatına gəlib çıxmışdım. O zamansa bir nakam sevgiyə görə çəkdiyim əziyyətləri puç etmək, təhsilə xərclədiyim zamanımı heç etmək, həyatımı məhv etmək fikrinə düşmüşdüm, deyəsən. Siqaret çəkə-çəkə, olanları düşünərək, parçalanmış hisslərimlə birlikdə günəşin həqiqətən də şərq üfüqündən səmaya qalxdığını, ətrafı aydınlandırdığını gördüm. Havanın buludlu olmasına baxmayaraq, üfüqdən günəşin çıxmağını, kölgələrə həyat verməsini, onu gizlətməyə çalışan buludları öz əzəməti ilə necə yavaş-yavaş parçaladığını görmək olurdu. Külək usanmadan günəşin parçaladığı buludların yerinə yenilərini dartıb gətirir, onun önünü qapayır, mübarizəni izləməyə aman vermirdi.

***

Mən düşündüyüm şeylərə görə özümü çox yorğun, çəkdiyim siqaretlərə görəsə dilim-dodağım qurumuş, yaman susuz hiss edirdim. Mətbəxə keçib iki stəkan su içərək gecəyarısı ayrıldığım yatağıma döndüm. Bir az yerimin içində sağa-sola fırlanıb rahat səth tapdıqda telefonu atdığım yeri əlimlə gəzib-axtardım. Telefonu tapdıqda yenə “Facebook” profilimi açıb mesajlar

bölməsinə girdim. Bu dəfə Arzunun mesajını oxuyub, digərlərindən fərqli bir şey yazıbmış kimi nə yazdığını görmək istədim. Arzuya olan əsəbim, eşqə olan qəzəbim saatlar öncəkinə nisbətən azalmış, beləcə ürəyimlə bacarmayıb mesajı açıb oxumağa başlamışdım: “Salam, Kənan, film təzə başlamışdı, sən qalxıb getdin, niyə elə tez getdin? Film qurtardıqdan sonra müəllim sənə zəng etdi, deyəsən, cavab vermədin, bir az narahat olduq, bir də dünən mənə bir şey deyəcəyini demişdin, nə deyəcəkdin? Onu da demədən getdin”, – yazmış, sonunda kiçik smaylik atmışdı. Mesajı oxuduqdan sonra telefonu söndürüb yenə saatlar öncəki əsəb və nifrətlə bir qırağa atdım. Onun son yazdığı cümlələr, elə bil ki, qəsdən iynələyici yazılmışdı. “Nə deyəcəkdin? Demədən getdin”. Telefonu söndürdükdən sonra da bu cümlələr beynimdə təkrarlanırdı: “Nə deyəcəkdin? Nə deyəcəkdin? Nə deyəcəkdin?”. Öz-özümə ürəyimdə: “Nə deyəcəkdim, azar deyəcəkdim, dərd deyəcəkdim, nə deyəcəkdim, cəhənnəm ol başımdan, get rədd ol deyəcəkdim, nə deyəcəkdim, Arzu, nə deyəcəkdim, səni sevdiyimi deyəcəkdim mən, səni sevdiyimi, hə demədən getdim, nə edəcəkdim? Gəlib sənə ondan ayrıl, mənimlə get deyəcəkdim? Nə deyəcəyimi bilib, sevgilini gözümə soxmaq üçün qəsdən götürüb gəlmisən, zibil, axmaq zibilin biri” – deyinə-deyinə son sözləri həm Arzuya, həm onun sevgilisinə, həm də özümə aid etmiş, gözü yaşlı, bazar günü səhəri açılar-açılmaz yenə yuxuya getmişdim.

***

Oyanıb ilk işim olan telefonu götürüb baxdığımda saat 16:53-ü göstərirdi. Elə bir vaxt oyanmışdım ki, hava bir saatdan bir az keçmiş yenə qaralacaqdı. Yatağımdan çıxıb aynabəndə keçdiyimdə Zamin aynabənddəki divanın yanına qoyulmuş kreslolardan birində telefonu ilə, Kənansa divanda oturmuş çay içə-içə kompüteri ilə oynayırdı. Kənan məni görüb:

– Nə qədər yatırsan, ə? – dedi.

Zamin də:

– Dünən axşamçağından yatır, – deyərək Kənanın sözünü təsdiqlədi.

Onlar görünüşümdən nəsə məndə işlərin düz getmədiyini anlayıb, “Nə olub? Niyə kefin yoxdur?” kimi suallar verdilər, mənsə lal kimi səssiz-səmirsiz gedib, mətbəxdən götürüb gətirdiyim fincana çay süzüb sakitcə ikinci, boş kresloda əyləşdim. Zamin:

– Deyəsən, Arzu döyüb bunu, – deyərək kiçik gülümsəməylə zarafat etdi.

Kənan:

– Ə, neynək, düzələr, kef elə, – kimi zarafat-məsləhət qarışığı bir şeylər deyib, mənə baxa-baxa gülümsədi.

Mən də:

– Döyülsəm, bundan yaxşı olardı, özüm ölüm... Niyə mən filmə getdim axı... Bu dəfə çətin düzəlsin, Bu mövzuda başqa sual verməyin mənə, heç kefim yoxdu... – deyib fikirli halda təbəssüm göstərməyə çalışaraq üzümü onlara tutdum.

Onlar: “Ə, canın sağ olsun, qızdan çox qız var, sənə qız tapılmayacaq? Heç nəyi dərd etmə özünə”, – deyə

bu kimi sözlərlə zarafat edib, kefimi düzəltməyə çalışdılar.

Mən də yasa batmış simamla, könülsüz, yalançı bir gülümsəmə göstərib, kiçik masanın üzərindən içindən 3-4 siqaret götürülmüş yeni bir siqaret qutusunu əlimə götürdüm. Bu qutunu mən yatan vaxt, ehtimal ki, Zamin gedib dükandan almışdı, çünki mən gecə bütün siqaretləri çəkib qurtarmışdım. Siqaret qutusundan iki siqaret çıxarıb, birini Zaminə verərək digərini də damağıma qoydum. Siqaretləri yandırıb, bir az öncə son qoymaq istədiyim söhbəti özüm açıb:

– Sevgilisi var imiş, – dedim.

Kənanla Zamin qeyri-normal bir hadisədən danışırmışam kimi təəccüblə mənə baxaraq, sual verməyə başladılar.

Zamin:

– Ağlına gələni danışırsan da... Hardan bilirsən?

Kənan:

– Özü dedi, sevgilim var?

Mən:

– Gözlərimlə gördüm.

Kənanla Zamin hər ikisi birdən:

– Harda?

Mən:

– Harda olacaq, sinemada. Dünən filmə baxmağa sevgilisi ilə bir yerdə gəlmişdi.

Kənan:

– Neylədin bəs?

Zamin:

– Nə eləyəcək, sevgilisi var imiş də.

Mən:

– Bir az filmə baxdım, sonra səbrim çatmadı, çıxıb gəldim.

Hə, dostum, onlarla olanlar barəsində uzun-uzadı söhbət etdik. Onlar yenə mənə qızların bolluğundan, yaraşıqlı oğlan olmağımdan, hər şeyin əla olacağından danışdılar və bir az yalan, bir az doğru ümidverici sözlərlə məni dirçəltməyə çalışdılar. Yalan, ya da doğru olduğunu bilmədiyim sözlər mənə sanki azacıq kömək etdi. Söhbət əsnasında siqaretin hamısını çəkib bitirdiyimizdən Zaminlə dükana gedib yenə siqaret alıb gəldik. Gecə kompüterdə internet üzərindən bir film saytına girib, türkcə tərcümə olunmuş, aksiyon dolu amerikan filmi izlədikdən sonra, hardasa gecə saat 2-də hər kəs öz yatağına getdi. Bu gün ayın 29-u idi, sabah 30-u, o biri gün isə 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik günü, 1 yanvar da Yeni il, iki gündən sonra 8 gün dərs olmayacaqdı. İki gün sonra doğma kəndimə, evimə gedəcəkdim deyə çox sevinirdim, sadəcə, iki gün də dözüb səbir etməli idim. 8 günlük dostlarımla, ailəmlə birlikdə olmağın, istirahət etməyin mənə çox yaxşı gələcəyini düşünürdüm. 2014-cü il tələbə olmağımdan başqa bir şans tanımamışdı, bu il heç düşərli olmamışdı mənə. 2014-ü yaman-yaxşı tərk edib Yeni ilə nikbin baxışlarla girib bütün kədərimi keçən ildə qoyub, xoşbəxt bir yeni ilə başlamağın xəyalları ilə başımı balışa qoyub gözümü yumdum.

***

Səhər yatağımın sirkələndiyini hiss edib cəld yataqdan çıxıb ayağa qalxdım. Ətrafa göz gəzdirdiyimdə evdə nə varsa sirkələndiyini gördüm. Hər şeyin laxlaması, sirkələnməsi, əşyaların öz yerindən başqa yerə diyirlənməsi – bunların hamısı zəlzələ əlaməti idi, yaman da dəhşətli dalğa idi. Elə bu vaxt Zamin də yatağından ayağa sıçradı. Mən Zaminə:

– Tez ol, tez ol, ev uçacaq indi, – dedim.

İkimiz də çaşmış halda bir-birimizə baxırdıq, adaşım Kənan isə yatağında öz kefində xorul-xorul yatmaqda idi. Zaminlə birlikdə:

– Kənan, Kənan, ayə, oyan, – deyə çığır-bağır salıb onu oyandırmağa çalışırdıq. Tavandan üstümüzə toz tökülür, əşyalar aşaraq sınırdı, divarlarda çat əmələ gələrək evi daha da dəhşətli hala salırdı. Çöldə qorxudan doğmuş hay-həşir səsləri otağımızdan aydın şəkildə eşidilirdi. Biz də "Kənan" deyə ikinci mərtəbədə çığırır, o hay-küy səslərinə səsimizi qoşmuşduq. Birdən Zaminin qorxu içində əli ilə çiynimdən yapışıb:

– Ayə, hey... oyan day, gecikirik, müəllim qayıb yazacaq, geciksək, – dediyini eşitdim.

Gözlərimi açdığımda hər şeyin Zaminin məni sirkələyərək "Kənan, Kənan" deməsi ilə beynimin mənə oynadığı qorxulu yuxu oyununda olduğumu anladım. Saniyələr içində beynimdə film yaranmış, evi xaraba qoymuşdum. Şükürlər olsun ki, o gördüklərim həqiqət yox, yuxu imiş. Tətilə yaxın bir vaxtda kirayə ev axtarmaq fikrim yox idi heç. Röyadan gerçək həyata atılıb,

paltarımı geyinib Zamin və Kənanla birlikdə Akademiyaya yollandıq. Bir daha heç zaman görmək istəmədiyim üz orada mənə görünən ilk üz oldu. Arzu mənə yaxınlaşaraq:

– Salam, Kənan, necəsən? Filmə getdiyimiz gün mesaj yazmışdım "Facebook"dan, oxuyub cavab verməmişdin, – deyə gözəl səsi ilə dedi.

Mən də minillik düşmənimlə danışırmış kimi:

– Əleykəssalam, yaxşıyam, yuxulu idim, cavab yaza bilmədim, – dedim. Arzu:

– Hə, anladım, bir də həmin gün nəsə deyəcəkdin axı mənə, onu hələ də deməmisən, – deyib gülümsədi.

Durğun halda, solğun sifətimi ona tutub:

– Hə, düzdür, sənə nəsə deyəcəkdim, yadımdan çıxdı nə deyəcəyim, yadıma düşsə, deyərəm, indi sinfə getməliyəm, sağ ol, – dedim.

Arzu:

– Hə, yaxşı, hələlik, – deyib narahat baxışları ilə baxıb gülümsədiyində mən onun yanından tələsik ayrılıb dərs olacaq sinfə sarı getdim.

Arzunun "hələlik" deməsinə ilişib öz-özümə: "Hələlik yox, birdəfəlik, Arzu xanım", – düşündüm. Axı o mənə heç nə etməmişdi, mən sarsaq niyə ona kin edirdim ki?!

Həmin gün vaxt keçmək bilmirdi, sanki çolaq olmuşdu, elə yavaş-yavaş keçirdi ki, 1 dəqiqənin 60 saniyədən yox, 5 dəqiqədən ibarət olduğunu düşünürdüm. Həmin günü sinifdə oturub bütün 90 dəqiqə ərzində dərsi dinləməyə səbrim çatmırdı, buna görə də hər dərsin

ortasında icazə alıb sinifdən çıxırdım. 4-5 dəqiqə koridorda dolanıb sinfə döndüyümdə dərsin bitməsini səbirsizliklə gözləyirdim. Bayrama qalan bu son iki gün ömrümdə gördüyüm ən uzun günlərin siyahısındadır.

Səhərisi gün Akademiyada Arzu ilə rastlaşdığımda salamlaşdıqdan sonra o məndən:

– Deyəcəyin yadına düşmədimi? – sanki bir az zarafatyana soruşdu.

Mən də:

– Yox, düşmədi, düşsəydi, deyərdim də, Arzu xanım, – özümdən ixtiyarsız acıqlı halda dedim.

Arzu:

– Hə, yaxşı, sağ ol, – deyə bir az pərt olmuş halda kiçik, zərif addımlarla məndən uzaqlaşdı.

Onun pis olması, inciməsi mənim heç vecimə də deyildi. Axı mənə nə?! Öz-özümə düşünürdüm ki, o da əzab çəkməlidir, mənim kimi. Amma bunu niyə düşündüyümün səbəbini bilmirdim. Bayramla sərhəddə duran sonuncu gün cənuba doğru gedən, bizim kəndin qabağından keçən axşam qatarına bilet almışdım. Elə bu gün bu şəhərdən ayrılıb evə gedəcəkdim, buna görə özümü yaxşı hiss edir, evə getmək həyəcanını yaşayırdım, kefim kök idi. Qısa zaman ərzində olsa da Bakıdan, dərslərdən, pis yatağımdan və Arzudan yaxa qurtarıb vətənimə, ata-anamı, qardaşlarımı, kənddəki dostlarımı görməyə, həm də istirahətə gedəcəkdim. Kəndimin havası, suyu üçün, palçıqlı yolları üçün belə çox darıxmışdım. Həmin gün son gün idi deyə müəllimlər çox sıxmırdı bizi, dərsi olan müəllimlər, rastlaşdığımız Akademiyanın digər

işçi heyəti qarşıdan gələn yeni il münasibətilə bizi təbrik edir, onların adından ailələrimizi də təbrik etməyimizi söyləyirdilər. Son dərs bitdikdən sonra tələsik kirayə qaldığım evə qayıdıb, ehtiyacım olacaq paltarlarımı, bir də çirkli paltarlarımı çantalarıma yığıb kirayə evdən ayrılmaq üçün hazırlaşdım.

# Səfər

Kənanla Zamin səhəri gün gedəcəklərdi deyə heç hara tələsmirdilər. Onlar öz keflərində olsalar da, evə getmək üçün səbirsiz, həyəcanlı görünürdülər. Onlarla sağollaşıb, çantalarımı götürüb küçəyə çıxdım, yüküm çox, həm də ağır olduğundan məcburən bir taksiyə əyləşib "28 May"a getdim. Vağzala çatdığımda telefonda saata baxıb qatarın hərəkət vaxtına bir saat qaldığını gördüm. 1 saat boşluğu qəsdən nəzərə alıb nizamlamışdım, çünki yola çıxmazdan əvvəl içmək istəyirdim. Ona görə də vağzal yaxınlığındakı kafelərdən birinə getdim. Kafedə boş gördüyüm ilk masada əyləşərək bir bakal pivə, yanında da noxud gətirilməsini sifariş etdim. Həmişə içdiyim qədər, 4 bakal içib, üç qab noxud yemiş, 27 dekabr hadisələrini beynimdə canlandırıb zamanı keçirmiş, özümü qətlə yetirilmiş Pakistan lideri və fələstinli uşaqlar kimi hiss etmişdim. Axırıncı bakalı bitirib kafedəki saata baxdığımda qatarın hərəkət etməsinə 10-15 dəqiqə qalmışdı. Tələsik hesabı ödədim, çantalarımı götürüb vağzala gəldim. Biletdə göstərilən vaqonu soruşa-soruşa tapmış və vaqon nəzarətçisinin biletə nəzərindən sonra öz kupemə girmişdim. Yerim yaxşı yer idi, birinci mərtəbədə əlimi-qolumu uzadıb rahatca yata bilərdim. İkinci mərtəbədə olduğu kimi yıxılmaq təhlükəsi yox idi. Özümlə sürüdüyüm yüklərimi yatacağın altındakı yerə sıxışdırıb TQDK imtahanında ümid

etdiyim kimi kupeyə heç olmasa bir qızın gəlməsini ümid etdim. Kupedəki ümidlərim puça çıxdı, yer tutduğum kupeyə 60 yaşlarında ağsaqqal kişi ilə ağbirçək bir qadın gəldi, onlar ər-arvad idilər, deyəsən. Kupedə yeri olan 4-cü adamsa uzun boylu, orta yaşlı, başı kuba bənzər, saçları bozarmış kişi cinsi idi. Kupeyə bilet alan o yaşlı ər-arvadın birinin yatacağı ikinci, birininsə birinci mərtəbədə olduğundan yaşlı kişi mənim yerimi göstərib üzünə yorğun, halsız ifadəsi verərək:

– Ay oğul, bura sənin yerindir? – soruşdu məndən,

Mən:

– Bəli, dayı, mənimdir, – deyib növbəti söz üçün özümü hazırladım, o yaşlı xeyirsizin nə deyəcəyini bilirdim daha.

Elə o təxmin etdiyim kimi:

– Mənim yerim ikinci mərtəbədədir, mən ora çıxa bilmərəm, sən cavan oğlansan, bir hə deyib atılıb çıxarsan, gəl yerimizi dəyişək, – dedi, mən də içimi xıs kəsə-kəsə, birtəhər gülümsəmə göstərib:

– Hə, dayı, problem yoxdur, – dedim.

Yaşlı kişi:

– Çox sağ ol, bala, cavan oğlansan, indi heç yatan vaxtın deyil, – dedi.

Bu da dayının təşəkkürü. Mən yenə bir yalançı gülüş göstərərək:

– Hə, elədir, – deyib yatağımı işğalçıya verib, ikinci mərtəbəyə qalxa-qalxa ürəyimdə: "Bilet alanda, lal deyilsiz ki, deyin, aşağı yer versin də. Gəlib adamın başını bu cür xarab edirsiz. Deyəcəksən, vermirəm, olacaqsan

pis. Elə bir kupe bağlatdırıb yolboyu ər-arvad sevişərdiz də", – deyindim.

Öz yerimi bilərək işğala məruz qoyub, çıxıb ikinci mərtəbədəki yeri düzəldib uzanmışdım ki, yaşlı qadın suallar yağdırmağa başladı: "Hardansan, bala? Bakıda işləyirsən? Nəylə məşğulsan?" Bu kimi filan-filan suallar... Hardasa 40 dəqiqəmi o xalanın suallarına cavab verərək itirdim. Axır ki, xalanın gözlərinə yuxu gəldi və canım qurtuldu, yoxsa səhərə kimi çənə döyməli olacaqdım. Elə 5-10 dəqiqə olar başımı atıb gözlərimi yummuşdum ki, dili susan bu qadının yatdıqdan sonra burnu danışmağa başlamışdı. Bu canavar xalanın ağzında sanki motorlu mişar işləyirdi. İndi gəl səhər altıya kimi döz bu səsə. Bunun əri, yazıq kişi, necə dözüb bu səsə bir ömür görəsən? Yaxşı ki, qulaqcıqlarım yanımda idi, tez götürüb qulaqlarıma keçirərək telefondan bir həzin musiqiyə səs verib dinlədim. Daha rahat yata bilərdim, şükürlər olsun. Gecə saat 3-4 olardı oyandım, dilim-dodağım qurumuşdu. Ciyərlərimi susuz səhra kimi hiss edirdim, yaman susamışdım, yediyim üç qab duzlu noxuddan olmalı idi. Su içmək məqsədilə yatağımdan kimsəni narahat etməmək üçün ehmalca enib, vaqon nəzarətçisinə yaxınlaşdım. 4-5 stəkan su alıb içdikdən sonra yatağıma döndüm. Saat 7-yə işləmiş qatar mən enəcəyim kəndin qabağında yerləşən stansiyaya çatmışdı. Evə piyada 20 dəqiqəlik yol var idi, hava da hələ açılmamışdı. O zamanlar itdən çox qorxurdum, elə indi də qorxuram, çarəsiz cəsarətimi toplayaraq stansiyadan ayrılıb yola düzəldim. Kənddə hürən bütün itlərin səsini eşidir,

yolboyu Allahla bağlı bütün suallarımın üstündən xətt çəkib "Bismillahir-rəhmanir-rəhim[1]. Əşhədu ənlə ilahə illəllah[2]. Əşhədu ənnə Muhəmmədən rəsulullah[3]. La ilahə illəllah[4]. Allahu-əkbər[5]. İyyakə nəbudu və iyyakə nəstəin[6]. Ləm yəlid və ləm yuləd[7]. Və ləm yəkul-ləhu kufuvən əhəd[8]. Subhanə rəbbiyəl Əla və bihəmdih[9]" deyə-deyə evə gedirdim. Evimizə 150-200 metr qalmış üşənməyə başladım. Məni vəsvəsə bürüdü, içimə qorxu düşdü, sanki kimsə arxadan tutacaqmış kimi bir hiss yarandı başımda. Bu qorxu ilə həmin məsafəni qaça-qaça evə getdim. Evin qapısına çatdığımda qorxularım çəkildi və bir anlıq "nənəm məni görüb sevinəcək" deyə düşündüm, o fikir saniyələr içində yarandı və yarandığı kimi də yox oldu. Bir anlıq nənəmin öldüyünü unutmuşdum. İçəri girib evdə oyaq olanlarla görüşdüm. Evdəkilər "ac olarsan" deyib yemək hazırladılar mənə, yediklərim mədəmə çatar-çatmaz yuxu qapını döyməyə başladı. Qatarda yatmağıma baxmayaraq, özümü yorğun hiss edirdim, buna görə gedib üzərində 3 ilə yaxındı ki, rahat yata bilmədiyim yatağıma uzandım.

---

[1] Bağışlayan və mehriban Allahın adı ilə

[2] Şəhadət verirəm ki, Allahdan başqa məbud yoxdur

[3] Şəhadət verirəm ki, Məhəmməd Allahın elçisidir

[4] Allahdan başqa məbud yoxdur.

[5] Allah böyükdür

[6] Yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik

[7] O nə doğmuş, nə də doğulmuşdur

[8] Onun heç bir tayı, bərabəri, bənzəri yoxdur.

[9] Rəbbim pakdır, ucadır və həmd sahibidir

***

Gündüz saat 11-12-də oyanar-oyanmaz kənddəki dostlarıma zəng edib zarafatyana vətəndə olduğumu dedim, axşam hardasa görüşmək barəsində danışdım. Gündüzü evdəkilərlə keçirib axşam sinif yoldaşım, həm də yaxın dostlarım Kərim, Toğrul, bir də həm qohum, həm də yaxın dostum olan Mikayılla kəndin qabağındakı köhnə binada sahmana salınmış kafeyə getdik. Yenə həmişəki kimi üçümüzə də pivə, yanında saçaqlı pendir və noxud istədik, siqaret çəkə-çəkə 2014-ü necə bitirək deyə, əylənmək üçün nə edək deyə söhbət etməyə başladıq. Mən:

– Sabah 2014-ün son günüdür, gedək səviyyəli bir restorana, yaxşıca yeyib-içək, sonra da qəlyana-filan gedərik. – dedim.

Mikayıl:

– Evdə yemək dolu olacaq, restorana-zada getməyək, amma qəlyana gedək, – dedi.

Toğrul:

– Axşam bir az da rayonda fırlanarıq, konsert olacaq, baxmağa gedərik, – deyib onunla razılaşaq deyə gözünü üzümüzə zillədi.

Biz onun sözünü təsdiqləyib, Kərim nə deyəcək deyə Kərimə baxdıq. Kərim bic-bic gülüb:

– Bilet tapşırmışam, Əfqanıstana, – deyib türk mahnısı olan: – uçacaqsın, uçacaqsın, havalara uçacaqsın... – əlavə edib güldü. Onun nə dediyini anlamaq çox da çətin deyildi.

Mən:

– Ə, lazım deyil, zibilə salacaqsan bizi, – desəm də, Kərimin fikri xoşuma gəlmişdi.

Kərim mən deyənə qarşılıq gülüb:

– Qorxma, mənlikdi, kef elə, – deyərək sözünə qüvvət verdi.

Pivələrimizi içə-içə sabah nə edəcəyimizdən, şəhərdən, ordan-burdan söhbət etdikdən sonra sağollaşıb hərə öz evinə getdi. Mən evə çatanda saat gecə 12-yə qalırdı. Atam:

– A bala, elə bu gün gəlmisən, tapa bilmirik səni, bir yarım saat evdə otur, üzünü görək də, – dedi.

Bu sözləri eşitdiyim ilk dəfə deyildi. Kursda oxuduğum vaxtlarda gəzib-dolanıb gec saatlarda evə döndüyümdə də eşitmişdim. Evdəkilərlə birlikdə çay içərək televizora baxıb, söhbət etdik. Saat birə qalmış artıq evdə hər kəs yatmışdı. Mən gec yatıb, gec qalxmağa öyrəşdiyim üçün, həm də pivənin təsirinə çox da düşmədiyimdən yuxum gəlmirdi deyə telefonda qurdalanmağa başladım. İnterneti açıb “Facebook” profilimə baxdığımda hər kəsin yeni il ab-havasında olduğunu görürdüm. Həmin günlər kimin statusunu oxuyurdunsa, bütün insanlara yeni ildə xoşbəxtlik arzuladığını, yeni ildə gözəl günlər dilədiyini, həyatın gözəl olmasını arzuladıqlarını görə bilərdin. Statusları oxuduqda anladım ki, insanlar bir-birlərini nə qədər çox sevir, lap gözlərim yaşaracaqdı, gəl ki, yaşarmadı. Bunların hamısı, sadəcə, adət aldığımızdandı. İnsanlar yalandan bir-birlərini elə təbrik edirlər ki, guya bir-birlərini çox sevirlər. Əslində isə kütlə nə edir, sən də onu edirsən,

mühitin təsiri. Başqa bir dünyada yaşasaydın, sonra bu dünyaya gəlsəydin, bu kütlənin bir-birlərini niyə təbrik etdiyini anlamayacaqdın, bunun nə qədər mənasız olduğunu görəcəkdin. Çox qəribədir, il dəyişir öz axarı ilə, bu yandan millət bir-birini təbrik edir. Zamanın dili olaydı kaş, dönüb bizlərə: "Dəyişən mənəm, sizə nə düşüb? Elə bil bunlar nəsə edib", – deyə idi. Bizlərə bax e... bir, təbrik etmək üçün ayları, illəri gözləyirik, hər yeni günə görə niyə təbrik etmirik, görəsən? Bir fikirləş, dostum, yanvarın beşidir, hər kəs bir-birini təbrik edir, "Neçə belə yanvarın beşinə, bu yanvarın beşi arzulayıb içində qalan arzuların yerinə yetsin" – yazır, deyir. Yenə təkrar bu sözləri yanvarın altısı yazır, beləcə təkrar-təkrar hər gün... Çox gülməli olardı, yəqin ki. Bəlkə də belə insanlar daha çox mehriban və səmimi olardı, hmmm, necə düşünürsən, dostum? Nə isə, düşünməyi boş ver, oxumaqda davam elə, daha bitir də bu kitabı, hələ bu vərəqdəsən. Həmin gecə saat 3-ə kimi telefonda qurdalandıqdan sonra gedib yatağıma uzandım. Bu vaxt ağlıma 18+ şeylər gəldi, elə bu vaxtlar nədənsə ağlıma belə şeylər gəlirdi. Bu fikirlərlə yatıb 2014-ün son gündüzü saat 11-12-də oyandığımda ağzımdan leş iyi gəlirdi. Dünən axşam içdiyim pivə ilə çəkdiyim siqaretin təravətindən idi bunlar. Özüm-özümdən iyrənərək dişlərimi yuyub-təmizlədikdən sonra susuzluqdan yanan ciyərlərimin dadına şirin çay ilə yetdim.

# Sərxoşluq

Gündüzü boş-bikar keçirərək, arada qohumlara zəng edib Həmrəylik günü münasibətilə təbrik edir, ya da tələbə mədəmi nə iləsə doldururdum. Nəhayət, axşam saat 7-8-də evdəkilərlə birlikdə bayram yeməyini yeyib yola çıxdım. Kərimlə Toğrul maşınla gəlib məni yoldan götürdükdən sonra Mikayılgilə gedib onu da götürdük. Oradan Toğrul maşınla bizi kəndin əhalisindən daha çox insanın olduğu məkana, kəndin qəbiristanlığına gətirdi. Qəbiristanlığa çatdıqda Kərim cibindən kibrit qutusu çıxarıb içindən bir çay qaşığı qədər sellofana bükülü qurumuş ot çıxardı. Sonra bir siqaret götürüb dişləri ilə filtrini çıxarıb, yenidən yerinə taxıb gilizi ovuşduraraq içindəki tütünü əlinə boşaltdı. Tütünün böyük hissələrindən təmizləyib kibrit qutusundan çıxardığı otla qarışdırdı. Bu vaxt Toğrul siqaret qutusunun qapağından bir az kağız cırıb yumrulayaraq Kərimi gözləyirdi. Kərim tütünlə qarışmış çətənə yarpağını ehtiyatla boşaltdığı gilizə doldurub, başını yumrulayaraq Toğrula verdi. Toğrul siqaretin filtrini yerindən çıxarıb yumruladığı kağızı gilizin filtr çıxarılmış hissəsinə taxdı. Mikayılla mən sakitcə, həyəcan dolu nəzərlə onları izləyirdik. Toğrul marixuana doldurulmuş gilizi asta-asta tüpürcəyi ilə isladıb, həşiş deyilən şeyi hazır vəziyyətə gətirdikdə uşaq həyəcanı ilə maşından düşərək yandırıb çəkməyə başladıq. Uç-

maq növbəsi mənə gəldikdə onlar kimi, onlar necə çəkirdisə, elə etdim. Damağıma qoyaraq siqaret kimi sinəmə çəkib bir az gözləyib onların “bir az da gözlə, buraxma” deməsinə baxmayaraq, tüstünü çölə buraxırdım, iki dəfə belə tüstülədib ötürdüm Mikayıla, hərəmiz iki dəfə belə çəkdik. Marixuana doldurduğumuz gilizin son közərtisi kağız taxdığımız hissəyə çataraq söndükdə bir-birimizdən “hə, nə oldu, tutub?!” deyə soruşurduq. Mən o sıra sinəmin sıxıldığını hiss edirdim deyə dönüb uşaqlara “sinəm dağıldı ki mənim” dediyimdə başladılar üçü də buna dəli kimi gülməyə. Nədənsə məni də gülmək tutdu. Beləcə dördümüz də başladıq dəli kimi, möhkəm qəhqəhə ilə gülməyə. Kərim: “Ayə, bunu tutub” – deyəndə qeyri-adi bir ifadə eşitmiş kimi Kərimin sözünə də gülüşdük. İçmək fikri ilə kafeyə getmək üçün maşına əyləşib, maşınla torpaq yolu eşərək toz-tozanaq qaldıracaq bir qazla yola çıxdıq. Maşında uçduğumuzda yolboyu nə görürdüksə, gülürdük, özü də ürəkdən gülürdük, demək olar ki, biz çöpə gülürdük, dostum. Uça-uça həmişə adət etdiyimiz kimi kəndin qabağındakı kafeyə yox, rayonun mərkəzində yerləşən başqa bir kafeyə getdik. Kafeyə gülə-gülə girib bir masa arxasında əyləşib ofisiantı səslədik, ofsiant “buyurun” deyəndə bizi yenə dəli gülmək tutdu. Bilmirəm, ofisiant da çəkmişdi, nə idisə, o da bizə baxıb gülməyə başladı. Mən:

– Çaxır, bir də snikers gətir, qaqa, – dedim.

Biz sifariş verdiyimiz çaxırı süzüb içə-içə elə dəli kimi gülməkdə davam edirdik ki, başqa masada əyləşmiş dostları ilə içki içən biri kobud şəkildə:

– Ə, sakit də, nə olub? – dedi.

Toğrul əsəblə üzünü həmin adama tutub:

– Yaxşı eləyirik, xoşun deyil, çıx get, – dedi.

Mən çəkdiyimiz zibilə görə özümüzü idarə edə bilmədiyimizi anlayıb Toğrula:

– Qaqa, düz deyir də, bir az sakit olsaq yaxşıdı, – dedim.

Toğrul:

– Yaxşı, çıxaq gedək başqa yerə, – deyib sakitləşmişdi ki, az öncə dillənən şəxs gəlib əlini masaya çırparaq:

– Nə deyirsiz, ə? – deyəndə diksinib, dördümüz də əsəblə ayağa qalxdıq.

Toğrul o adamın hərəkətindən dərhal sonra çaxır içdiyimiz stəkanı götürərək həmin adamın başında sındırdı. Zərbə almış adam yırğalanaraq yerə yıxılanda onunla oturan digər dörd nəfər üstümüzə gəldi. Onlar cılız, cansız-bədənsiz göründükləri üçün biz özümüzə daha da arxayınlaşdıq. Üstümüzə gələnlərin hərəsini birimiz tutub yumruq-dava edirdik. Mən savaşdığım adamın bir yumruq qabırğasının aşağısından, boşluqdan, bir möhkəm düz zərbə də burnundan vurub yerə sərərək Mikayılla əlbəyaxa olanın üstünə cumdum. Digər tərəfdə Kərim birini yerə yıxıb, söyə-söyə təpikləyir, Toğrul da dördüncü adamı masanın üstünə çaxıb yumruqlayırdı. Kafedə olanlar, ofisiantlar bizi ayırmağa çalışanda biz: "Burax məni, burax deyirəm!" – deyə qışqırır, bizi tutub saxlamaq istəyən adamların əlindən çıxmağa çalışırdıq. Savaşdığımız adamlardan çöpə bənzəyənin burnu, keçəl olanınsa başı partladığından digər üçü onları da götürüb, maşına əyləşərək kafedən getdilər. Mübahisə

etdiyimiz vaxtı əyləşdiyimiz masa aşmış, üzərindəkilər düşüb sınmışdı deyə, başqa masada oturaraq bizə yenə çaxır gətirməsi üçün ofisiantı çağırdıq. Ofisiant gəlib asta tonla:

– Administrator polisə zəng edib, tez çıxın gedin burdan, – dedi.

Biz hesabımızı və sınmış qabların pulunu ödəyib, ofisianta bəxşiş verib tez kafedən ayrıldıq. Maşına əyləşərkən dostlarıma:

– Yaxşı ki, burada bizi kimsə tanımır, yoxsa heç yaxşı olmazdı, polislər qapımıza gələrdilər, – dediyimdə gülərək məni lağa qoydular.

Bir gün öncəki planlarımızı unudaraq kəndə qayıdanda da olanları danışıb-gülməkdə davam edirdik, o zibil bizə nə etmişdisə, biz hadisələri, olanları dərk edə bilmirdik, elə hey gülməklə məşğul idik. Kəndə çatanda saat 12-yə 10 dəqiqə işləmişdi. Yeni ilə evimizdəkilərlə birlikdə girək deyə hərə öz evinə səpələndi. Ayrılmamışdan əvvəl kafedə olanları kimsəyə danışmamaq barədə sözləşdik. Evə az qalmış paltarımın yaxasının cırıldığının, əlimin cızıldığının fərqinə vardım. Üst-başımı düzəldərək evə girdiyimdə birbaşa aynanın qarşısına keçdim. Aynada boğazı qızarmış, mübahisə edənə bənzəyən birini gördüm. Üzərimdən dava etmiş fikrini yayındıra bilərdim, amma gözlərimin içi qızarmışdı. Bu alovlu qızartılar kafedə olanda Toğrulun, Kərimin, Mikayılın da gözlərində parlayırdı. Bu qızartılar çəkdiyimiz o zibilə görə olmuşdu. Cəld gedib əl-üzümü yuyub qurulanmadan qonaq otağına girdim.

# Dəyər

Atam yeni ili, hər il olduğu kimi, yataqda qarşılamağa getmişdi. Çoxbilmiş qardaşlarım sağ olsunlar, üst-başıma baxıb dava etdiyimi anlasalar da, bir söz deməmişdilər. Anam məni görən kimi:

– Savaşıbsan?! – həyəcanla soruşdu.

Mən də:

– Savaşmamışam e, uşaqlarla qapışırdıq, – deyərək bir bəhanə gətirdim.

Anam:

– Bəs yaxan niyə cırılıb? Boğazın niyə qızarıb? – deyə soruşdu.

Mən:

– Kərimlə qapışırdıq, əl atdı, yaxamdan tutdu, dartdı, belə cırıldı, – deyərək şirin-şirin güldüm.

Anam:

– Nç-nç-nç... nə vacibdi axı, a bala, bi yerdə qala bilmirsiz? – dedi.

Mən gülərək:

– İdman edirdik də,– deyib söhbəti zarafata yönəldərək dəyişdim.

Yeni ilə 15 dəqiqə qalmış qardaşlarımın aldığı fişəngi, topu-tüfəngi götürüb çölə çıxdıq. Səkkiz atımlıq fişəngi aparıb yumşaq torpağa salaraq yerini bərkidib yeni il üçün hazır hala gətirdim. Uşaqlıqdan bayramlarda atdığım partlayıcılar, raketlər və başqa atəşfəşanlıq üçün partlatdığım şeylər çox xoşuma gəlirdi. Yaşımın üstünə yaş gəldikcə əylənməyin yaşa baxmadığını, insa-

nın hər yaşda uşaq olduğunu anlayırdım. Qardaşlarım həyətdə:

– Savaşmısan, həəə? – məndən soruşdular.

Mən də onlara:

– Sabah danışaram, – dedim.

Razılaşıb saata baxdığımızda yeni ilə 2 dəqiqə qaldığını gördük. Cəld dəmir sürahili, mərmər pilləkənlərlə yuxarı qaçıb evdən anamı da çağırdım. Yeni ilə saniyələr qala fişəngi yandırıb qaça-qaça yanından uzaqlaşıb kənardan tamaşaya durdum. Fişəngin gurultu ilə partlayıb havaya qalxan, kimyanın yaratdığı ulduzun parçalanaraq rəngbərəng qığılcımlara dönməsi həqiqətən də çox möhtəşəm görünürdü. Düzdür, kənddə şəhərdəki kimi yarım saat ard-arda partlayıb göy üzünü tutacaq qədər atəşfəşanlıq olmur, amma şəhərdə qalıb onu izləmək öz doğmalarımla birlikdə partlatdığımız bu aciz fişəngi izləmək qədər gözəl görsənmir mənə. Kənddə öz cibimizdən 20-30 manat xərcləyərək aldığımız fişəng yüz minlərlə dollar pul xərclənib meqapolislərdə partlayan fişənglərdən daha ecazkar görünürdü mənim üçün. Fişəngin sonuncu ulduzu yeni ilin ilk gecəsi səmada partlayaraq közərib yox olduqda anamın, qardaşlarımın yeni ilini təbrik edib, yeni ilin ilk gecəsinin yuxusunu almaq üçün özümü yun döşəkli, qalın yorğanlı, quş tüklü balışı olan isti yatağıma atdım. Keçən il çəkdiyim və içdiyim zibillərə görə bu ildə yuxu gözlərimdən tökülürdü. Başımı balışa qoyan kimi yuxu şirin xəyallara apardı məni.

***

Yeni ilin ilk səhəri, yanvarın 1-i oyandığımda yenə dünya həmin dünya, yenə Kənan həmin Kənan olaraq

qalır, zaman yenə öz ritmi ilə keçirdi, nə sürətli, nə yavaş. Gündən, aydan, ildən başqa dəyişən bir şeylər yox idi. Oyandığım vaxt ilk yadıma düşən bir həftə sonra olacaq semestr sonu imtahanlar oldu. İmtahanlar yadıma düşən an sanki sinəmdən basıb sıxdılar məni, içim sıxıldı, dostum. Gəl indi altı fəndən imtahana hazırlaş, heç imtahana hazırlaşmaq ab-havasında deyildim. Ancaq gəzmək, əylənmək istəyirdim. Yerimdən qalxıb, əl-üzümü yuyub, həyətdə saxladığımız bal arısından öz əllərimlə aldığım bal ilə nahar edib, bu soyuqda hara getmək olar, nə etmək olar deyə fikirləşirdim özüm üçün. Bikarçılıqdan nə edəcəyimi bilmirdim. Televizoru açıb ən birinci kanaldan başlayaraq yavaş-yavaş kanalları dəyişməyə başladım. Bizim evdə birinci kanalda AzTv-dir, hər kəsin evindəki kanal sıralamasında olduğu kimi. AzTv-də fəvvarələr meydanından fəvvarələri göstərirdilər. Digər kanallarımızda konsert və xəbərlər gedirdi. Yavaş-yavaş kanalları dəyişərək gəlib türk kanallarına çıxdım, orda da cansıxıcı seriallar, bəzi kanallarda xəbərlər gedirdi. Fikir dağıtmaq üçün Akıllı Tv-yə atıb bir az gülməli və maraqlı videolara baxdım. Pultun belini sındıraraq yenə kanalı dəyişdiyimdə Yaban Tv önümə çıxdı. O vaxt həmin kanalda Norveçdə qara bürünmüş şam ağacları ilə dolu meşədə, əlində snayper olan bir adamın ova çıxdığını göstərirdilər. O adam snayperlə yabanı hinduşka ovlayırdı. Yazıq heyvanın öldürülməsi elə maraqlı görsənirdi ki, səbirsizliklə ovçunun hinduşka ovlayacağı anı gözləyirdim. Ovçu şikarını görən anda sakitcə soyuq qarın üzərinə uzanır, nəfəsini

çəkib nişan alır və atəş, hinduşkanın isti qanı bəyaz qarı qırmızıya boyayır. Mən də qan qoxusu almış balinalar, su görüb susayanlar sayağı norveçlini izlədikdə kefimə ova getmək düşdü. Bikarçılıqdan onsuz da bilmirdim nə edim. Mikayıla zəng edərək dədəsindən qalma köhnə, amma işlək olan ov tüfəngini götürüb bizə gəlməsini söylədim. Mikayıl bizə gələnə kimi ov dükanlarının birindən 15 manata 30-a yaxın dolu patron aldım. Patron aldığımdan 5-10 dəqiqə keçmiş Mikayıl dədəsindən yadigar tüfəngi ilə birlikdə özünü bizə yetirdi. Mən ona kəndimizin arxasında, maşınla 10 dəqiqəlik məsafədə olan meşəlik əraziyə getməyi təklif elədim. Ora ov üçün yaxşı bir yer idi. Kənddən ora ova gedənlər ördək, qaz, bildirçin ovlayaraq qayıdırdılar. Bir-iki nəfərin qaban ovuna çıxdığını da eşitmişdim. Mən də Yaban Tv-də izlədiklərimdən həvəslənərək Mikayılla birlikdə ov yerinə getmək üçün hazırlaşdım. Qonşumuz, həm də atamın əmisi oğlu olan Rüfət əminin motosikleti var idi. Meşəlik əraziyə ova gedəcəyimi Rüfət əmiyə danışaraq ondan bir günlüyünə motosikleti mənə verməsini xahiş etdim. Sağ olsun, qırmadı məni, o ikiayaqlı texnikanı, motosikleti mənə verdi. Yanacağının az olması ehtiyatı ilə, elə birbaşa yanacaqdoldurma məntəqəsinə baş çəkib, işimi ehtiyata alaraq motosikletə yanacaq vurub evə döndüm. Evdən batareya ilə işləyən bir akustika götürüb, botlarımızı geyindik. Mikayıl ov çantasını çiyinlərinə keçirib, fişəng qatarını belinə bağladıqdan, mənsə tüfəngi çiynimdən asdıqdan sonra iki yoldaş motosikletin belinə əyləşərək, düzəldik yola.

# Vəhşilərin üzləşməsi

Təxminən 12 dəqiqəyə ov yerinə çatdıq. Ov üçün hər kəs səhər tezdən yerindən qalxıb gəlir, biz isə günorta gəlmişdik. Motosikleti bir yerdə saxlayıb düşdük meşəliyə. Bir az olar meşənin içində addımlayırdıq ki, başımızın üstündən, ağacdan bir quş uçub getdi. Ovun bolluğunu sezərək Mikayıldan patron alıb tüfəngə qoydum. Mikayılla birlikdə səssiz addımlarla meşənin içində çox enli hissəsi olan, o qədər enli ki, kiçik gölə bənzəyən çaya tərəf gedirdik. Çünki orada qazdan, ördəkdən ovlaya bilərdik. 10 dəqiqə yeridikdən sonra çayın o enli sahəsinə gəlib çıxdıq. Özümüzə bir yer seçib çayın səthində o tərəf-bu tərəfə boylanaraq canına qıyacağımız canlıları axtarırdıq. Çayın qarşı sahilinə yaxın, bizdən bir xeyli uzaqda üzən bir ördək gözümüzə sataşdı. Gətirdiyimiz akustikanı USB ilə telefona qoşub, internetdən yüklədiyim ördək səsini işə saldım. Akustikaya səs verərək səbirlə şikarımızın yaxına gəlməsini gözlədik. İnsan alətindən çıxan səsi çayın qarşı tərəfində üzən şüursuz canlı qarşı cinsi sanıb, səsini çıxarmağa, yavaş-yavaş bizə sarı üzməyə başladı. Biz kol-kosun, qamışların arxasında gizlənib, sakitcə ördəyin gəlişini izləyirdik. Ov uzaqda olsa da, çaxmağı çəkib tüfəngi onun sinəsinə tuşlamışdım. Nişanı çayın səthindəki ördəyə nizamladığımda qanad səsləri məni fikrimdən yayındırdı, əcəlinə susamış bir ördək uça-

raq gəlib lap yaxınımıza qondu. Çayın səthindəki digər ördək də üzərək bizə yaxınlaşmaqda idi. Yeni şikarım çaşqınlıq yaratmışdı, bir az tərəddüddən sonra tüfəngi bizə yaxın olan ördəyə tuşlayıb tətiyi çəkdim, gurultu ilə tüfəng açıldı. Saçmalar ördəyin sinəsini dələrək canını aldı, yazıq ördək heç çırpınmağa da macal tapmadı. Bizə sarı üzən ördəksə tüfəngin səsini eşidər-eşitməz uçaraq qaçdı. Ovladığım ördək qamışlara ilişib suyun üzərində cansız yatıb qalmışdı. Biz cansız ovu yerindən tərpətməyib akustikaya səs verərək ördək gözləməyə başladıq. Sıra Mikayılın idi, tüfəngi ona verib böyürtkən kollarının arxasında yerə çöməldim. İlk ovdan sonra təxminən yarım saat səbir etməli olduq. Axırda 4-5 ördək uça-uça bizdən 25-30 metr aralı məsafəyə qondu. Mikayıl nəfəsini çəkib nişan alaraq tətiyi sıxdı və daha bir ördəyin həyatına qəsd etdik. Kaş tüfəngimiz qoşalülə ola idi, digər ördəklərin də canlarına qəsd edə idik. Sıra yenə mənə gəlmişdi, Mikayıl fəxrlə gülümsəyərək göz vurub isti silahı mənə uzatdı, silahı əlimə alıb lüləsinə fişəng salmış, səbirsizliklə gözləyirdim. Mənim sıramda uzun vaxt gözləməli olduq, yarım saatdan da çox gözlədik, demək olar. Sonunda bir ördəyin çayın axını istiqamətində uça-uça keçdiyini gördük. O quş elə uçurdu ki, heç qonana oxşamırdı. Ayağa qalxıb nəfəsimi çəkərək nişanı ördəyin düz özünə yox, uçduğu istiqamətə tərəf, ondan azca qabağa, başından bir az irəli tuşlayıb, əminliklə məsafəni tarazlayaraq ən yaxın məsafədə tətiyi sıxdım, lülədən çıxan qığılcımlar və partıltı səsi, ördək fırlana-fırlana çaya çırpıldı. Sıra yenə

Mikayıla gəldi, tüfəngi ona verib akustikaya nəzarət elədim. O da mənim kimi yarım saatdan çox gözləməli olsa da, sonunda bir əcəlinə susamış ördək uçaraq gəlib, demək olar ki, tüfəngin lüləsinin önündə dayandı. Sanki ördək "Vur məni, Mikayıl" deyirdi. O, çox bəxtlidir, daş atsa, ördəyi vurardı. Nəfəs dayandı, atəş açıldı və qələbə. Dörd ördək ovlamışdıq beləcə, hərəmizə ikisi düşürdü. Çaya girərək qamışlara ilişmiş cansız ördəkləri götürüb, çantaya atdıq. Digər əşyalarımızı da çantaya qoyaraq evə getmək üçün hazırlaşdıq. Evə dönmək üçün tələsməli idik, çünki bir saata hava tamamən qaralacaqdı, axşam burada olmaq həyatımız üçün təhlükəli olardı. Bu meşədə çoxlarının canavarla rastlaşdığını eşitmişdik. Hazırlığımızı görüb geriyə, motosikletimizi qoyduğumuz yerə tərəf hərəkətləndik. Qaranlığa gömülməyə başlayan meşənin ağacları arasında addımladıqca duyduğum bayquş, qarğa səslərindən, ayaqlarımın altında sınan çör-çöp səslərindən içimə səksəkə düşdü. Ehtiyata Mikayıldan bir patron alıb tüfəngə qoydum, çaxmağı çəkib sağa-sola baxaraq vahiməli meşədə addımlamağa davam etdik. İki dəqiqə söhbət edə-edə getdikdən sonra qorxularım dağıldı, çaxmağı buraxıb tüfəngi belimdən asdım. Ovlamağımızdan, necə atəş açdığımızdan danışıb, sevinə-sevinə gedirdik ki, Mikayıl "canavar!" deyə qışqırdı. Sanki məni elektrik vurdu. Qorxularım əbəs yerə deyilmiş, motosikletə yaxın bir yerdən canavar sürüsü keçirdi. Mikayılın səsinə canavarların hamısı bizə sarı çevrildi. Biz canavarların vahiməsindən qorxaraq yanımızdakı böyük qarağac ağacının başına

necə çıxdıqsa, yadımda deyil, amma ağaca çıxmışdıq ki, o vəhşi heyvanların ağacın altında dövrə vurmalarını, bizə baxaraq dişlərini qıcıyıb mırıldamalarını heç unuda bilmirəm. İndi də yadıma düşəndə tüklərim biz-biz olur. Biz ağacın başında dalımızın qorxusundan boğazımızı cıraraq "kömək eləyin" deyə mənasız yerə, kimsə olmayan meşədə qışqırırdıq. Çığırıb-bağırarkən bir-iki canavar pəncələrilə ağacın gövdəsindən yapışır, ağaca atılıb ətimizi dişlərinə keçirmək istəyirdi. Vəhşilərin ağaca çıxa biləcəyini düşünüb elə əsirdik ki, qorxudan az qalsın şalvarımıza batıracaqdıq. Mikayıl böyük budağın üzərində ağlayacaqmış kimi: "Axı onlara nə etmişik ki, bizi parçalayıb canımızı almaq istəyirlər? O qədər yeməli şeylər var ki, gərək bizi yeyələr? Gedin, rədd olun burdan, rədd olun, zibillər, vəhşilər!" – deyərək sayıqlayırdı. Mən qorxudan doğan həyəcandan belimdəki silahın varlığını belə unutmuşdum, qəfil yadıma düşdü ki, axı bizim silahımız var. Tüfəngi belimdən götürüb, çaxmağı çəkib ağaca dırmanmağa çalışan boz canavara nişan alaraq tətiyi çəkdim. Bu atəşlə ağaca dırmanmağa çalışan o vəhşi məxluqu, sadəcə, yaralamağı bacarmışdım. Axı bizim patronlar quş ovlamaq üçün idi, o vəhşinin həyatına son verə bilməzdi. Kiçik saçmalarla yaraladığım canavar, bədənindəki ağrılarla daha da azğınlaşmışdı. Yaralı başımızdakı bütün tükləri dimdik edəcək qədər vəhşicəsinə mırıldanıb ağacın başında dövrə vurur, yanımıza çıxmağa çalışır, bizi parçalamaq istəyirdi. Xoşbəxtlikdən digər canavarlar tüfəngin çıxardığı səsdən qorxaraq qaçıb getmişdilər. Ən azından on-

ların getməsindən ürəklənib, yuxarıdan aşağı ilk atəşdə əlimdən düşəcək olan tüfəngi bərk-bərk tutaraq Mikayıldan dolu patron istədim. Bizim əlimiz necə əsirdisə, Mikayılın verməyə, mənim almağa çalışdığım ilk üç-dörd patronu yerə salmışdıq. Axır dostumdan bir patron almağı bacarmış, tüfəngə qoya bilmişdim. Həmin yaralı canavara yenə atəş açıb vurdum, o yenə də ayaqda idi. Səkkizinci atəş, doqquzuncu atəş, on, on bir. Beləcə düz on iki patronu onun parçalayıb yemək instinkti ilə dolu başına çaxdım. Axır ki, biz onu yerə sərməyi bacardıq. O, yerə yıxılsa da, ölməmişdi, amma hərəkət etməyə də halı yox idi. Tüfəngə bir patron da qoyub yavaş-yavaş ağacdan yerə sürüşdüm, lüləni vəhşinin başına dayayaraq, onu sirkələdim, ayağa qalxmayacağından tamamilə əmin olmaq üçün tətiyi çəkib saçmaları onun al-qana bulaşmış başına boşaltdım. Mikayıldan alıb cibimə qoyduğum patronla yenə tüfəngi doldurdum. Mikayıl da ağacdan düşəndən sonra əlimizdən yerə düşən əşyalarımızı yığıb qaçaraq motosikleti qoyduğumuz yerə getdik. Biz hardasa bir saata yaxın ağacda qalmışdıq, hava da yaman qaralmışdı. Tələsik motosikletə əyləşib sürətlə kəndə tərəf sürməyə başladım. Elə mən sürdükcə Mikayıl mənə: "Kənan, sürətli sür, day çataq, mənim ürəyim partladı" – deyirdi, mən də: "Bir də belə ova çıxsam, ağzımı..." – dedim. Kəndə gəlib yetişdikdə elə çox sevinirdik ki, sanki illərdi kənddən çıxmışdıq. Həyətə girib evin qapısını açdıqda mənim qorxmuş ürəyim sakitləşib rahatladı, yenə oldum şir Kənan.

***

Evdəkilərə ovladıqlarımızı fəxrlə göstərib fərəhlənirdik. Mikayılı axşam yeməyinə qalsın deyə buraxmadım. Axşam hər kəs süfrə ətrafında olanda ov zamanı başımıza gələn canavar əhvalatını azacıq şişirdərək çox gözəl rəvayət elədim. Atam, anam, qardaşlarım təəccüblə məni dinləyirdilər. Mikayıl danışdıqlarımı "hə, hə" deyərək təsdiqləyir, bəzi yerləri məndən betər şişirdib danışırdı. Canavar əhvalatının sonunda atam mənə: "Atasının oğlu, eynilə mənə çəkmisən, halaldı sənə" – dedi, mən də fərəhlənərək özündənrazı bir təbəssüm göstərdim. Atam həmişə içdikdən sonra əsgərlik xatirələrindən danışır. O, hərbi müddəti Sovetin tərkibində olduğumuz vaxt çəkdiyi üçün Sibir əyalətində başa vurmuşdu. Atamın dediklərinə görə, ora o qədər soyuq imiş ki, tüpürdükdə tüpürcəyi yerə buz kimi düşür, "cınq" edirmiş. Atam təkcə elə bu sözləri 16 dəfə mənə danışıb. Başqalarına da danışdığının sayını demək istəyərdim, amma unutmuşam. Həmin axşam 17-ci dəfə həmin söhbətdən edib, soyuq Sibir meşələrində gecə növbələrindəki sərgüzəştlərini nağıl etdi. Axşam yeməkləri yeyib çaylarımızı içdikdən sonra Mikayılı motosikletlə evlərinə apardım. Geriyə qalan üç-dörd patronu da ona verib, məni qırmayıb gəldiyi üçün təşəkkür etdim. Evə döndükdə çox yorğun olduğumdan yerimə girib yatdım. Sabah oyandığımda vəfasız Arzu yox, rəhmətlik nənəm yadıma düşdü, darıxdım onun üçün, buna görə də nənəmin doğma bacısı, yəni atamın xalası Bəsdi nənənin yanına getmək istədim. Bəsdi nənə

Mikayılın doğma nənəsi, mənim nənəmin iki bacısından biri olan kiçik bacısı idi. Nənəmin atasının oğlu olmurmuş deyə sonuncu qıza Bəsdi adı qoyublarmış. Bunları mənə əziz nənəm sağ olan vaxtları danışmışdı.

***

Rəhmətlik nənəmin xatirəsi ilə Mikayıla zəng edib harada olduğunu soruşdum, o:

– Evdəyəm, bir azdan nənəmi ziyarətə gedəcəyəm, – dedi.

Mən:

– Elə mən də nənəni ziyarət etmək istəyirəm, türkün məsəli, – deyib güldüm.

Mikayılın atası – Bəsdi nənənin oğlu – evin böyük oğlu olduğu üçün, bizim yerlərin adəti ilə, ayrılıb başqa evdə qalırdı, bizim yerin adətinə görə, dədə-nənə obası kiçik oğula qalır. Nə isə, dostum, mən yeməyimi yeyib evdən ayrıldım. Hardasa telefonla danışdığımızdan bir saat sonra Mikayılla kənd məscidinin önündə görüşdük. Biz görüşdüyümüz vaxt gördük ki, günorta namazına az qalıb, Mikayıla:

– Bu vaxt möminlərimiz məscidə namaza gəlirlər, gəl biz də gedək, pulsuz çay içərik, 100 faiz gələnlərdən çay dəmləyən olar, – dedim.

Mikayıl:

– Hə, gəl gedək, içək, nənəm də bir azdan namaz qılacaq onsuz, – dedi.

Biz məscidə girdikdə kənddən bir neçə əməlisaleh adamın oturub çay içərək söhbət etdiyini eşitdik, yuxarı səslə möminlər komandasına salam verib, özümüzə çay

süzərək bir qıraqda əyləşib, namaz əhlinin söhbətlərini dinləməyə başladıq. Söhbətə qulaq verdikdə eşitdiklərim kiminsə şəhərdən ev almağı, filankəsin oğlunun filankəsin qızını qaçırması, kimlərinsə görüşü barədə maraqlı və şirin qeybətlər oldu. Əməlisaleh insanlar şirin-şirin dünyəvi söhbətlər edirdilər ki, azan eşidildi. Məktəbdə zəng vurulan vaxt uşaqlar tələsə-tələsə sinfə necə gedirsə, burada da şirin qeybətli, ağsaqqaldan cavanına, hamısı tələsik gedərək dəstəmaz alıb, möhür götürüb başladılar namazlarını qılmağa. Mikayılla bir-iki stəkan çay içib Allaha bizə bağışlaması üçün dua edib, çay dəmləyənlərə və içənlərin ruhuna salavat çəkərək məsciddən çıxdıq. Asta-asta yeriyərək gəldik Bəsdi nənənin evinə. Bəsdi nənə məni görən kimi çox sevindi, boynumu qucaqlayıb üzümdən öpdü. Bəsdi nənə:

– Nə vaxt gəlmisən, ay oğrəş, – təhqir edərək soruşdu.

Qoca nənələrin belə təhqiri adamın canına lap yağ kimi yayılır, dostum.

Bəsdi nənənin yanına gec gəldiyimdən inciməsin deyə yalandan:

– 31 dekabr, heç iki gün tamam deyil gəlmişəm, – dedim.

Bəsdi nənə:

– Bəs dünən niyə gəlmədin, ərkansız? – dedi.

Mənsə söhbətdən yayınıb bir az ordan-burdan danışdıqdan sonra dünən başımıza gələn əhvalatı bütünlüklə Bəsdi nənəyə danışmağa başladım. Canavar əhvalatını dinlədikdən sonra Bəsdi nənə:

– Durun gedək məscidə, indi molla məsciddə olar, sizə qorxu duası yazdıracam, – dedi.

Mən də:

– Yox, lazım deyil, biz yaxşıyıq, heç nəyimiz yoxdu, nənə, – dedim.

Bəsdi nənə bizə dua yazdırmaq üçün məscidə aparmaqda çox israrlı idi. Mikayılın “nənəm düz deyir, Kənan, gəl gedək, özümüz dua yazdıraq” deməsindən sonra Bəsdi nənə sakitləşmişdi.

Nənəmizlə sağollaşıb gedirdik ki, sevimli nənə boynundan asdığı pul kisəsini çıxarıb Mikayıla da, mənə də 5 manat pul uzadıb:

– Birdən pulunuz olmaz dua yazdırmağa, alın bunları, dua yazdırın haaa, – dedi.

Biz də:

–Yox, yox, lazım deyil, özümüzün var, – deyib artistlik eləyə-eləyə pulları alıb cibimizə qoymuş, sağollaşıb nənənin evindən ayrılmışdıq.

7 manat mənim pulum var idi, oldu 12 manat, 3 manat da Mikayılda var idi, oldu 8 manat. Biz kəndimizdəki marketlərdən birinə gedib hərəmizə bir qutu “Sobranie” siqareti alıb kəndin qabağındakı kafeyə gəldik. Kafedə əyləşdiyimizdə Toğrulla Kərimə zəng edərək kafeyə dəvət etdik. Onlar gələndə bizim pivə içdiyimizi görüb: “Bu soyuqda pivə içərlər?” – deyə təəccübləndilər. Belə demələrinə baxmayaraq, onlar da pivə sifariş etdilər. Onlara ova getdiyimizdən, ovladıqlarımızdan, qabarıq halda başımıza gələnlərdən danışdıq. Onları ova çağırmamışdıq deyə bizdən bir az incidilər, canavar söhbətinə də inanmadılar.

# İyrənclik

Pivələyərək vaxtımızı keçirdiyimiz kafedə söhbət o yerə gəlib çıxdı ki, başladıq seks həyatından danışmağa. Bu mövzuda Kərim kənddəki, özünü müasir sanan əxlaqsız və quşbala bir qızla olan xatirələrindən danışdı. Onun dediyinə görə, yay aylarında iki-üç gündən bir, gecələr saat birdə-ikidə görüşdüyü qızın yaşadığı evin həyətinə gizlincə girib, ona zəng edərək həyətə çağırırmış. Təndirxanada, hamamda, ya da həyətdəki kolkosun, ağacların arxasına, xəlvətə çəkilib dodaqlarını öpür, soyundurub qoşa pambıq təpələrini oynadırmış. Quşbala qızı buna yamamasınlar deyə o qızla həmişə anal sekslə məşğul olur, qız da bunun altında ağrı ilə qıvrılır, bu isə saatlarla onun üstündən durmurmuş. Saat dörddə-beşdə ondan ayrılaraq evə gəlib ayı kimi yatırmış. Seks mövzusunda Toğrul da elə Kərimin oynaşdığı qızla bir neçə dəfə olduğunu, bir də bizim kəndə qonşu kənddəki dul gəlinlə olan macəralarını nağıl etdi. Abırsız dostlarımın haqqında danışdıqları əxlaqsızları mən də üzdən tanıyırdım və başqa oğlanlarla da olduqlarını eşitmişdim. Həmin ehtiras acgözləri ilə, demək olar ki, kəndin bütün abırsızları gecələmişdi. Bircə Mikayılla mən gey kimi heç bir şey etməmişdik. Mikayılla mənim seks həyatında yuxuda gördüklərimizdən başqa payımız olmadığı üçün susub Kərimlə Toğrulu dinləməkdə idik. Onlar bunu bildikdə söhbətin axırında

qərara gəldilər ki, bu gecə bizi çarpayı güləşinə aparsınlar. Fahişə yanına getməyə tərəddüdlü olsam da, bunu dostlarıma bildirmədim. Mən həm getmək istəyirdim, həm də istəmirdim. Getmək istəməyimin səbəbi aydın idi. Bütün normal cavan insanlar kimi bu yaşlarımda qanım qaynayır, ağlımın bir hissəsi cinsi orqanıma işləyirdi, nəticədə cinsi ehtiras hisslərimdən doğan ehtiyacımı ödəmək istəyirdim. Getməmək istəyim isə hələ də bir qadınla əlaqədə olmadığımdan, bakir olduğumdan və bu təmizliyimi hansısa bir əxlaqsız qadınla, fahişə ilə kirlətməmək düşüncəsindən idi. Hansısa bir fahişə ilə özümü çirkləndirmək istəmir, ancaq ailə həyatı qurduqdan sonra təmiz bir münasibətə girmək istəyirdim. Mikayılın məndən fərqli, qəti olaraq bir istəyi var idi, o da getmək və ehtiyacını ödəmək. Onların üçünün də getmək istəyini görüb üzərimə gey şübhəsi salmamaq üçün həvəssiz onlarla razılaşdım. Doğrusu, mənə bu şübhə ilə yanaşmasalar da, bu mövzuda zarafatlar edəcəkdilər. Bu da ki mənim üçün heç xoş olmayacaqdı. Həm də bir yandan gedəcəkdim deyə nədənsə sevinirdim. Pivələrimizi içib sağollaşaraq kafedən ayrılıb getdiyimizdə mən içkinin təsiri ilə evə çatar-çatmaz başımı atıb yatmışdım. Onda ayılıb gördüm ki, telefonuma zəng gəlir. Zəng edən Kərim idi. Mənə günorta danışdığımız kimi rayona oynaşmağa gedəcəyimizi, hazırlaşmağımı, iyirmi dəqiqədən sonra gələcəyini söylədi. Əyin-başımı geyinib hazırlaşdıqdan iyirmi dəqiqə sonra biz artıq rayon yolunda idik. Rayon mərkəzindən 400-500 metr aralıda, önünə “Ailəvi İstirahət Mərkəzi”

yazılmış restorana getdik. Məzə qadınları Xala adı ilə müraciət edilən insan alverçisi tərəfindən kamuflyaja bürünmüş həmin restoranın arxasında donuzdan belə ucuz qiymətə – 1 dəfəsinə 25 manat ödəyən müştərilərə verilirdi. Biz də müştəri kimi alış-veriş məqsədilə restoranın arxa tərəfinə keçib, həmin müqəddəs Xalanın yanına getdik. Restoranın arxasında, açıq havada qurulmuş masanın baş tərəfində Xala ləqəbli insan alverçisi, ətrafında 8-9 nəfər həyat işçiləri, bir də Xala ilə rumka-rumkaya vuran iki nəfər kişi oturmuşdu. Onlara bizim nə niyyətlə gəldiyimiz bütün gəlişlər kimi aydın idi. İnsan alverçisi şeytani gülümsəmə ilə üzünü bizə tutub:

– Seçin, cavanlar, – dedi.

Sanki müqəddəs Xala qab-qacaq satıcısı, bizə "seçin" deyərək göstərdiyi məzə qadınları isə cansız əşyalar idi. Satıcının rahatca "seçin" deyə o qadınları göstərməsindən, onların bu qədər alçaldılmasından özüm xəcalət çəkdim. Amma elə görünürdü ki, o söz bədənlərini satmaq üçün sıraya düzülmüş arsız qadınlara əzgin deyil, xoş bir ifadə idi. Deyəsən, cansız əşyalar kimi işarə edilən qadınlar heç o sözü eşitməmişdilər, çünki onlar heç nə duymamış kimi oturub, bizim seçimimizi gözləyirdilər. Biz seçimimizi edib pulu ödəyərək qayıracağımız qadınlarla birlikdə restoranın arxa tərəfində yerləşən 4-5 otaqlı, evə bənzər obyektin içinə girdik. Seçdiyimiz qadınlarla birlikdə hərəmiz, sadəcə, ikinəfərlik böyük çarpayısı olan otaqlara keçdik. Mənim seçdiyim "qadın" (adlandırmaq olarsa) məndən uzun, bir az çəkili, 26-28 yaşlarında olardı. Onun sarıya boyan-

mış saçları, balaca, sallaq sinələri, böyük gövdəsi var idi. Gözlərimə iyrənc görsənən göbəyi açıq, qısa ətəkli fahişə paltarlarını soyunduqdan sonra daha da eybəcərləşdi. Həyatımda ilk dəfə idi ki, canlı olaraq vajina görürdüm, o çox iyrənc, tikələnmiş ət parçalarının bir yerə yığılması kimi görünürdü. İlk dəfədi cinsi münasibətə girdiyim o vaxt sanki tamaşaya baxmağa getmişdim. Mən fahişəyə heç toxunmamış o çığır-bağır salır, məni ehtiraslandırmağa çalışırdı. Deyəsən, dünyada heç fahişələr də işindən zövq almır, o, altımdan canını qurtarmaq istəyirdi. Bu işini sevməyən fahişənin hərəkətləri mənə çox iyrənc görsənirdi. O anlar: "Bu nədi axı mən edirəm? Necə də mənasızdı, heç zövq vermir. Bu zövqə görəmi bakirliyimi pozdum, özümü kirlətdim? Əlimlə masturbasiya etsəydim, bundan yaxşı olardı" kimi fikirlər keçirdi ağlımdan. Onu qayırdıqca o, altımda öz artistliyini edib "öldüm, öldüm" – deyə qışqıraraq məni aldatmağa çalışır, mən də daha vəhşicə önə-geriyə hərəkət edərək "axı səni kim məcbur edir, öl" – deyə düşünürdüm. Beş dəqiqə sonra öz iyrənc hərəkətlərimdən, ən böyük aktyorun göstərdiyi tamaşadan zərrə zövq ala bilməyib ehtirasımı yana-yana qoyaraq paltarlarımı geyinib otaqdan çıxdım. Restoranın önünə keçdikdə Kərimlə Toğrulun bir masada əyləşib çay içdiklərini, deyib-güldüklərini gördüm. Yanlarına getdiyimdə onlar məni:

– İlanı yuvaya sala bildin? Necə oldu, xoşuna gəldi? – kimi gülərək zarafat edib sorğu-suala tutdular.

Mən də onlara:

– Super, hər şey əla idi, ləzzət elədi, – kimi cavablar verdim.

Görünür, Mikayıla yaman ləzzət eləmişdi, çünki biz çıxmışdıq, söhbət edib çay içərək iyirmi dəqiqə ötürmüşdük, lakin o gəlib çıxmaq bilmirdi. Mikayıl həmin vaxtdan on dəqiqə sonra gəldiyində:

– 25 manat verib ikinci dəfə götürdüm, əla idi, – dedi və utanmaz-utanmaz güldü.

Hamımız masa arxasında oturub çay içərkən üzümü dostlarıma tutaraq:

– Görəsən, bu qadınlar niyə bu peşəni seçiblər? – dedim.

Kərim gülərək:

– Pul qazanırlar də, – dedi.

Mən Kərimə baxaraq:

– Pul qazanmaq istəyirlərsə o qədər iş var ki... hələ özü də qadınlara, – dedim.

Toğrul böyük bir cavab verirmiş kimi:

– Ay qaqa, deyirəm, tək qadınlardı ki? Üzdəniraq kişilər də vurdurmaqla məşğuldu, bilirsən, nə qədər var? Düzü-dünyanı götürüblər, at ilxısı, köpək sürüsü, – dedi. Mikayıl Toğrulun sözünə qüvvət verərək:

– Hələ bu harasıdı? Transı var, geyi var, nə bilim nəyi var, özlərini qoyublar axırıncı yola, – dedi. Mən daha söz tapmayıb:

– Yəqin ki, xəstəlikdi, – dedim.

Kərim:

– Ayə, sənə nə lazımdı? Get vur, kefini çək də. Biz səfehlər hara pul xərcləyək bəs? – deyərək güldü.

Mən bu söhbətdən bezib:

– Hə, yaxşı, siz nə elədiz içəridə, xoşunuza gəldi? – deyərək söhbəti dəyişdim.

Beləcə həmin gecəki hünərimizdən söhbət edib çayımızı içdikdən sonra kəndə, kəndə çatdıqdan sonra evlərimizə dağılışdıq.

***

Kənddə keçirdiyim sonrakı günlərin gündüzlərini qohum evlərində, axşamlarını dostlarımla kafelərdə, gecələrini də yatağımda keçirirdim. Yataqda olduğum vaxtlar arabir Arzu yadıma düşür, kefim pozulur, içimi çəkib yatırdım. Yəni anlayacağın, dostum, dərslər yadıma düşmürdü. Ayın 8, 12, 16, 21, 26-sı, bir də 29-u imtahanlarım var idi. Mənsə heç bir imtahana hazır deyildim. Ayın 6-sı qatara bilet alıb, ailəmlə, dostlarımla sağollaşaraq, hazırlıqsız axşam saat 11 qatarı ilə Bakıya yola düşdüm. Səhər saat 7-yə işləmiş qatar "28 May"a çatdığında iki şey kefimi pozdu, biri havanın çox ürəksıxıcı görsənməsi, digəri isə Arzu ilə bağlı xatirələrin yadıma düşməsi. Kefsiz halda vağzaldan birbaşa Zabratda kirayələdiyimiz evə getdim. Evin soyuq olmağından çox səssiz olması kefsizliyimə qol-qanad olmuşdu. Böyük kefsizliklə setkayla həsirlənmiş çarpayıma girib yatdım. Gözlərimi açdığımda Zaminlə Kənanın evdə olduğunu gördüm. Görüşüb aynabənddəki yerlərimizə oturub rayondakı ab-havadan, Yeni ili necə keçirdiyimizdən, nə etdiyimizdən danışdıq. Onların danışdıqlarından, analizimə görə, bu qısa tətilləri mənimki kimi maraqlı olmamış, durğun keçmişdi. Maraqlı dedi-

yim ov və marixuana idi. Mənim onlara ilk söhbətim ov macəramdan olmuşdu. Onlar mənə təəccüblə baxır, maraqla dinləyirdilər. Bu macəra söhbətim onların çox xoşuna gəlmişdi. ikinci söhbətimdə rayonda çəkdiyim həşiş ilə bağlı təəssüratımı bölüşmək var idi. Bu, Kənana maraqlı görsənsə də, Zamini daha çox cəlb etmişdi. Belə ki, o mənə "rayona yenə gedəndə gətirərsən, mən də çəkərəm, heç çəkməmişəm" demiş, mən də gətirəcəyim barədə ona söz vermişdim. Səhəri gün Akademiyaya Azərbaycan dilindən imtahan verməyə getdim, ayın 12-si isə tarixdən. Bu fənlərdən imtahanlar çox asan oldu mənə. Kursda öyrəndiklərimin bəhrəsini bu imtahanlarda bir daha topladım. Bütün imtahanlar qurtardıqda dörd fəndən keçmiş, ikisindənsə kəsilmiş oldum. Kəsildiyim fənlərin hərəsinin bir kəsilmə səbəbi və ya da bəhanəsi var idi. O fənnin birini sevmir və oxumurdum, digər fəndən kəsilməyimə səbəbsə, imtahanına gedəndə özümü çox rahat hiss edib, arxayınlaşmağım olmuşdu. İmtahanlarla birinci semestr sona yetdi və ikinci semestr start götürdü.

# İkinci semestr

İkinci semestrin əvvəllərində dərslərdən, qəmkədərdən fərqli bir şey olmasa da, ortalarında yeni sevgi sərgüzəştim başladı. Bu sərgüzəştim martın ortalarında iştirak etdiyim pulsuz ingilis dili danışıq klubunda tanış olduğum Günay adlı qızla közərdi. O gün Günayla danışıq klubundan ayrılaraq söhbət edə-edə gedib Dənizkənarı bulvarda yerləşən kafelərdən birində əyləşdik. Orada bir az ordan-burdan, dərslərdən-filan söhbət etdik. Kafedə boş-boş söhbətlərdən sonra sağollaşıb ayrılmışdıq. Kafedə oturduğumuz vaxt "Facebook"dan ona dostluq dəvəti atmışdım, o da yanımdaca dəvəti qəbul etmişdi. Günay da mənim kimi 1-ci kursda oxuyurdu. Bu, müsbət haldı, yaşı yaşıma uyğun idi yəni. O 1.60 sm boylarında, qara saçlı, iri gözlü, iri dodaqlı, cəlbedici bir qız idi. Məni ona ən çox cəlb edən iri dodaqları və gözəl bədən fiqurasının olması idi. Armudu stəkana baxsan, necə fiquranı nəzərdə tutduğumu anlayarsan, böyük dal və sinələr. O çox şeyi ilə gözlərimi oxşamışdı. Onun dik sinələri, işıldayan gözləri tamam ağlımı əlimdən alırdı. Onu sevirdim, yoxsa onun bədəninimi əldə etmək istəyirdim suallarını özümə bir neçə dəfə vermiş, amma cavabında birtərəfli olmamışdım. Günayla tanış olduğum günün axşamı onun "Facebook" profilində paylaşdığı nə varsa bəyənib, "Salam, necəsən, çatdınmı evə?" – yazaraq mesaj yolladım. Bir az da tele-

fonla mesajlaşıb əksər cavanlar kimi səbirsizliklə cavab yazmasını gözlədim. Otaq yoldaşlarımla yemək yeyib çay içərək, söhbət edərək vaxtı səbirsizliklə ötürürdüm. Bu arada mən ikinci semestr başlayanda Zabratdakı kirayə evdən – Zamingildən ayrılıb Əcəmiyə, başqa dostlarımın yanına köçmüşdüm. Əcəmidəki kirayə evin sahibi hazırlıq kursundan sinif yoldaşım Nurlanın öz evi idi. Bu evdə Qüdrət, Nurlan və mən – üç nəfər yaşayırdıq. Biz üçümüz də bir-birimizlə hazırlıq kursunda tanış olmuşduq. Onların ikisi də məndən arıq və uzun idi. Qüdrət ovalsifət, qarayanız idi, Nurlanınsa üçbucaq sifəti, sarıya çalan dərisi var idi. Onların ikisi də mənim kimi hüquqşünaslıq ixtisası üzrə oxuyurdular. Qüdrətgillə müəllimlərdən, dərslərdən, qızlardan söhbət edib mesajı yazdığımdan bir saat sonra profilimi yoxladıqda Günaydan cavab gəldiyini gördüm. O: "Salam, yaxşıyam, bəs sən? Hə, çoxdan çatmışam, maraqlandığın üçün çox sağ ol" yazıb sonunda smaylik qoymuşdu. Mən də tez: "Mən də yaxşıyam, təşəkkürlər. Narahat oldum, dedim görüm bu xanım evə çatdımı-çatmadımı" yazıb sonuna utanan smaylik qoyub yolladım. O da: "Məni də bu qədər düşünən olarmış" yazıb sonuna mənim kimi utanan smaylik qoymuşdu. Beləcə hər gün nəsə bəhanə edib yazışaraq bir-birimizə daha da yaxınlaşırdıq. Lap əvvəl tanış kimi, sonra dost, ən axırda da sevgili kimi danışmağa başladıq. Bunların hamısı biz müasir gənclərin əlində texnikanın inkişafı kimi, çox sürətlə baş vermişdi. Dost kimi münasibətdə olanda hər həftə sonu ya sinemaya, ya buzda sürüşməyə,

ya bovlinq oynamağa, ya da başqa bu kimi əyləncələr üçün görüşür, birlikdə vaxt keçirirdik. Ondan xoşlandığımı, deyəsən, aprel ayının ortalarında "Facebook" üzərindən mesajla yazmışdım. O buna görə üç gün məni "Facebook"da dostluqdan çıxarıb bloka atmışdı. Bundan əlavə iki gün danışdırmayıb naz etdikdən sonra etiraf etmişdi ki, o da məndən xoşlanır. Sevgili kimi görüşdüyümüz ilk gün mənə çox həyəcanlı gəlmişdi, bu sevgili münasibətləri həyatımdakı ilklərdən biri idi. Həyatımdakı ilk addımım, ilk sözüm, ilk qarla tanışlığım, ilk tənhalığım, ilk seksim, ilk sevgilim və bundan sonra olacaq bütün ilklərim. Günayla sevgili münasibətindən başqa bir ilkim də öpüşməyim olmuşdu. Bu hadisə sevgili olduğumuzda şənbə günü birlikdə getdiyimiz qaranlıq sinema zallarından birində baş vermişdi. O ilk öpüş çox qısa sürmüşdü. Həyatımdakı o ilk əksər ilklərdən daha ləzzətli, daha ecazkar idi. Qaranlıq zalda dodağımı uzadıb onun qırmızı rəngli, böyük dodaqlarına söykəmişdim. Onun iri dodaqları çox yumşaq və isti idi. İsti dodaqlarından yediyi şirin popkornların şəkərini dilimdə hiss etdikdə ayaqlarıma qədər keyimiş, sağ tərəfimi hiss etməmişdim. Mən o dadı yenə dadmaq, o hissi yenə yaşamaq, onun iri, isti dodaqlarından saatlarla yapışmaq istəyirdim. Günay da bir dəfə mənimlə saatlarla öpüşmək istədiyini dilə gətirmişdi. Biz də rahatca öpüşə bilək deyə yeni alternativ axtarıb tapmışdıq, ya bir günlüyünə oteldə otaq kirayələyirdik, ya da günlük kirayə evləri. İlk kirayəmiz otel otağı olmuşdu. Mayın əvvəlləri, gözəl yaz günlərindən biri, səhər saat

10-da görüşüb otaq sifariş etdiyimiz otelə getdik. Otelin otağına girər-girməz öpüşməyə başlamışdıq. Dodağımızı ayırmadan yatağa uzanıb bir-birimizi bərk-bərk qucaqlayaraq yarım saat eləcə öpüşdük. Damarımdakı qan qaynamağa başladıqda onun əynindəki qısaqol köynəyi çıxardım. Döşlərini görməyimi əngəlləyən, dağların üstünü qar kimi örtmüş bəyaz sinə geyiminin bağlarını tələsə-tələsə, çətinliklə açdım. Həmişə köynəyin altında gördüyüm, daha doğrusu, görə bilmədiyim dik sinələri günəş kimi gözlərimi qamaşdırdı. Öz köynəyimi də çıxarıb onun sinəsinin ucundan sovurmağa, inək danasını yalayan kimi yalamağa, içinə su doldurulmuş şar kimi oynatmağa başladım. Üstünə uzanıb sinəsini özümə sıxaraq boynundan öpdüyümdə ehtirasdan altımda çapalayır, heyvani səslər çıxarırdı. Ehtiras gözlərimi bürüdükdə cins şalvarının düyməsini açıb dartaraq əynindən çıxardım, öpüşmək məqsədilə kirayələdiyimiz otaqda daha niyyətimiz dəyişdi, tamamən lütlənib anal seks etməyə başladıq. Hava qaralanadək qan-tər içində ancaq sekslə məşğul olduq. Axşam olmamış oteldən xoşbəxtcəsinə çıxaraq evə getmək üçün ayrıldıq. Sonrakı həftə sonları da kirayələrdə görüşür, öpüşür, sekslə məşğul olurduq. Bir fahişə ilə bakirliyimi pozduğumdan bir an olsun təmizliyim barədə düşünmürdüm. Mənim üçün ancaq ləzzətlər və günahlar var idi, dünyamda su pərilərinin göz yaşları dayanmış, qəm dəryası qurumuşdu. Xoşbəxtlər dünyasının kralı mən, kraliçası isə Günay olmuşdu. Günahlı həyatımda dərsləri tamam unutmuş, Akademiyanın yolunu itirmiş, qayıbları sıra-

ya düzmüşdüm və bunlara baxmayaraq, kefimi kök tuturdum. Günaylı həyatımda məni narahat edən, kefimi pozan, sadəcə, bir şey var idi. O da ki sevgilisi olan bir qızı, sevgilim ola-ola, hər gördüyümdə kədərlənməyim idi. Mən Günayla eşq həyatı yaşasam da, Arzunu hər gördüyümdə Günayı unudurdum. Köhnə xatirələr yadıma düşür, Arzunun sevgilisi var deyə təəssüflənir və ancaq o anlar Arzunun xəyallarına dalırdım. Amma geriyə qalan bütün vaxt Günayı, onunla yaşadığım şeyləri düşünürdüm. Bu çox qəribə bir hissdir, iki nəfərdənmi xoşlanıram mən? Ad da qoya bilmirəm. Bəlkə də şorgözlükdür, bilmirəm.

# Həqiqət

2015-ci ildə Bakıda keçiriləcək olan Avropa oyunlarına görə şəhərdə yerləşən təhsil müəssisələri həmişəkindən tez yay tətilinə gedəcəkdi. Bu səbəbdən ikinci semestrin imtahanları may ayına çəkilmişdi. İmtahanlar o aya çəkilmişdi ki, mən həmin ay ancaq ehtiraslarımın dalınca qaçır, dərs oxumur, imtahanlara hazırlaşmırdım. Həmin vaxt imtahanların aralığında rayona getmişdim. Mən kəndə getdiyim vaxtdan üç ay öncə Toğrul el-obamızı qorumaq üçün xidmətə, əsgərliyə getmişdi. Kərim günün günorta çağı rayondakı kafelərin birində dostları ilə birlikdə marixuana çəkib sərxoş halda rayona çıxdığından polis tərəfindən üzərində marixuana ilə yaxalanıb iki ay inzibati həbsdə olduqdan sonra hərbi xidmətə yollanmış, Mikayıl da kənddə tək canavar kimi qalmışdı. Kənddə olduğumda Mikayılla kafelərdə avaralanıb ancaq içməklə məşğul olmuşdum. Şəhərə döndüyüm zaman Kərimin tutulmasından ibrət almayaraq Zaminə söz verdiyim kimi özümlə iki baş marixuana da gətirmişdim. Onun bir başını Zaminlə doldurmağa, digərini isə özüm üçün kimləsə çəkərəm deyə elə-belə götürmüşdüm. O elə-belə götürdüyüm marixuananı Günayla birlikdə, ondan ayrıldığım gün çəkmişdik. Biz marixuananı ona görə çəkməmişdik ki, ayrılıq qəmindən yaxa qurtaraq, çəkdikdən sonra ayrıl-

mışdıq. Onunla günlük kirayə evlərin birində özümüz üçün əylənərkən aldığımız çaxırı içib, daha da dərinliyə gömülək deyə cibimdə gəzdirdiyim kibrit qutusuna qoyduğum çətənə otunu gilizə dolduraraq çəkmişdik, bundan sonra ayrılmışdıq. Ayrılmağımıza səbəb onun iradəsiz halda dediyi cümlə olmuşdu. Günayla içib-çəkdikdən sonra meylə yatağımıza uzanıb öpüşəndə o mənə gözləri axa-axa: "Sən yaman yaxşı öpüşürsən, – deyib gülərək əlavə etdi: – Mövsüm dodaqlarımı yara edirdi". Bu iradəsiz etirafından sonra onu həyatımdan birdəfəlik çıxardım. Çünki başqası ilə oynaşmış qadın mənim üçün ən dəyərsiz, ən gərəksiz qadındı. Elə bir qadını sevə bilməz, ürək rahatlığı ilə həyatımda yaşa-da bilməzdim. Axı qadının müqəddəsliyi yalnız cinsi orqanından ibarət deyil. Onun gözləri başqasına bax-mışsa, əlləri başqa adamın əllərini tutmuşsa, saçları ilə Mövsüm oynamışsa, dodaqlarını başqasına vermişsə, daha onun müqəddəsliyi necə olacaq bəs? Daha onun mənə məxsusluğu nə olacaq? Nə başqasına baxan göz, nə başqa əli tutan əl, nə o ürək, nə o dodaqlar, nə bədən, nə də o gözəllik mənə gərəkdi. Bir kişinin qadını öz müqəddəsliyini itiribsə, o kişi hər şeyini itirib deməkdir, amma xəyanət etmiş kişinin qadını heç nə itirmir, axı kişi qadın qədər müqəddəs deyil. Mən nəyimisə itirmək istəmirəm, qadınım da nəsə itirməyəcək. Mən, heyif, əvvəldən anlamamışdım ki, Günay Kərimin oynaşdığı, kənddəki quşbala qızdan heç də fərqlənmir. Sadəcə, biri gic, biri isə bic idi.

***

Günayla ayrıldıqdan sonra həyatım yenə qəm axarına düşmüş, Arzulu xatirələr canlanmış, su pərilərinin göz yaşları sel olmuşdu. Nə yaxşı ayrılıq zamanı imtahanlar bitmiş, dərslər qurtarmışdı. Mən yenə kəndə – ailəmin, dostlarımın yanına qayıtmışdım. Kəndə qayıtmazdan öncə Zaminlə çəkmək üçün gətirdiyim marixuananın zibilinə düşdüm. Elə bir zibil ki, ömür boyu o zibilin içindən çıxa bilməz, özümü bağışlaya bilməz, daim vicdan əzabı çəkərək yaşayardım, ya da yaşaya bilməzdim. Həmişə kənddə dostlarımla tütünə qarışdıraraq hazırladığımız həşişlər kimi Zaminlə birlikdə olduğumda da gətirdiyim marixuananı tütünlə qarışdırıb gilizə dolduraraq hazırladım. Əvvəllər daim birlikdə oturub söhbət etdiyimiz kirayə evin aynabəndindəki yaşıl üzlü divandan ayağa qalxıb gilizi yaşlayaraq birinci özüm çəkdim. Zaminə də necə çəkmək gərəkdiyini ən pis müəllimin ən yaxşı danışdığı mövzu kimi öyrətdim. Zamin közərən gilizi damağına qoyub çəkdiyim kimi tüstünü ciyərlərinə çəkdi, 1-ci nəfəs, 2-ci nəfəs, 3-cü nəfəs. Üçüncü tüstünü alaraq həşişi mənə qaytardıqda ciyərlərinə çəkdiyi tüstünü çölə üfürüb: "Sinəm sıxılır" – dedi. O, tez-tez nəfəs alıb-verərək əllərini alnına tutub yerə çöməldi. Əllərini üzündən çəkib qızarmış gözləri ilə mənə baxaraq: "Özümü pis hiss edirəm, gözlərim qaralır", – dedi və huşunu itirərək üzüstə göy rəngli, nazik xalının üzərinə aşdı. Zaminin bu halını əvvəlcə zarafat sanıb çiyinlərindən tutaraq silkələdim. Üzünə baxdığımda ağzından bulanıq su gəldiyini gördüm. Za-

minin zarafat edəcək halının olmadığını, həqiqətən də huşunu itirdiyini gördükdə əllərim əsmiş, özümü itirmişdim, çaşbaş qalıb nə edəcəyimi bilmirdim. Əvvəlcə onun çiyinlərindən tutaraq möhkəmcə silkələdim, gəl ki, o ayılmaq bilmədi, ayılmadı. Özümü birtəhər ələ alıb nə edəcəyimi düşündüm. İlkin tibbi yardım kitabından təqribi yadımda qalan bir-iki tədbiri sınadım. Əynindəki yüngül, yarımqol köynəyi çıxarıb şalvarının belindəki kəməri boşaltdım. Belinin altına iki-üç dənə balışdan, nalçadan qoyub soyuq suda islatdığım parçalardan birini alnına, digərini isə sinəsinin üstünə qoydum. Əlimə keçən bir dəftərlə yavaş-yavaş sərinlik verdim. Xoşbəxtlikdən təqribən etdiyim iki-üç hərəkət işə yaradı. Zamin yavaş-yavaş gözlərini açıb məni həyata qaytardı. Onu uzandığı yerdən güclə ayağa qaldırıb təmiz havaya çıxardım. Açıq havada gəzdirdiyimdə mədəsi bulandı, nə yemişdisə, qusdu-batırdı. Qusduqdan sonra eyvandakı krandan üzünə soyuq su vurub yenidən içəri saldım. Bir-iki stəkan soyuq su içdikdə əhvalı bir azca düzəlsə də, başı ağrıyırdı. 30 dəqiqə sonra əvvəlkinə nisbətən yaxşılaşdı. Zamin onu saldığım hala görə mənə baxaraq, sadəcə, gülümsədi. Kaş gülümsəmək yerinə durub yumruq-təpiyin altına salaydı, üzümə tüpürüb qovlayaydı. Haqqı da vardı, onu az öncə nə hala salmışdım, o isə mənə, sadəcə, gülümsəmişdi. Bu mənə ölümdən də betər idi. O an: “Bir insanı, özü də yaxın bir insanı, dostumu zəhərlədim, necə də alçaq bir insan, necə də alçaq bir dostam”, – deyə düşünür, özümə zərər vermək istəyirdim. Halbuki mən ikinci bir alçaq-

lıq edib Zaminin gülümsəməsinə gülümsəyərək qarşılıq vermişdim. Üçüncü dəfə alçalmamaqdan ötrü bir daha kimisə zəhərləməmək üçün Zaminlə baş verən hadisə ilə birdəfəlik marixuananın, narkotik vasitələrinin daşını ataraq kəndə döndüyümdə dostum Mikayılı da bu kimi məşğuliyyətlərdən ayırmağı bacardım.

***

Kənddə olduğum həmin yay hər dəfə kənddə olduğumda elədiyim şeylərdən əlavə məşğuliyyətlər tapmışdım. Bu məşğuliyyətlərim üzgüçülük, boks və body-building idmanlarından ibarət idi. Həmin məşğuliyyətlərə görə bədənim xeyli inkişaf etmiş, hərəkətlərim çevikləşmişdi. Bu məşqlərlə həftənin 2, 4, 6-cı günləri məşğul olurdum. Saat 10-da rayonumuzun olimpiya kompleksinə gedir, 1 saat hovuzda üzür, Bölgə üzrə Regionla boks mərkəzində iki saat boksla məşğul olur, axırda body-building məşqinə girirdim. Axırıncı məşqdən çıxdıqdan sonra iki dənə banan yeyir, bir litr süd içirdim, hər hansı bədən inkişaf etdirən dərmanlardan qəbul etmirdim. İdmanla məşğul olduğum üç ay ərzində gündə beş dəfə yemək yeyirdim. Nizamlı məşqlərimin ilk iki ayında artıq yaxşı əzələli bədən formalaşdırmışdım. Həmin zaman ərzində danışdığım mövzular da ancaq idmana aid şeylərdən ibarət idi, kimlə söhbət edirdimsə, baş-qulağını xarab edirdim. Bu idmanlarla məşğul olmağımın hər birinin öz səbəbi var idi. Üzgüçüləklə ona görə məşğul olurdum ki, bəlkə zəhmətimə Allahın rəhmi gəldi, bir az uzana bildim. Boksla ona görə məşğul olurdum ki, bu həm uşaqlıqda

məşğul olduğum idman növü idi, həm də elə uşaqlıqda düşündüyüm kimi pis insanlardan özümü müdafiə etmək məqsədi daşıyırdı. Body-buildinglə, demək olar ki, mənasız yerə, özümü qızlara, camaata idmançı biri kimi göstərmək məqsədilə məşğul olurdum. Belə baxdıqda elə üzgüçülüklə məşğul olmağım da göstəriş xarakteri daşıyırdı. Biri boyumun uzun olması ilə özümü göstərmək məqsədi daşıyırdı, digəri isə idmançı olaraq. İndi boyumun uzun olmasını özümə o qədər də kompleks etmir, başımın içini yeni biliklərlə doldurmağa çalışır və bunun daha önəmli olduğunu düşünürəm. Söhbətimin canı həmin yay avaralanmayıb ən azından fiziki inkişafıma yönələn şeylərlə məşğul olduğumu çatdırmaq idi. Yay ərzindəki bir məşğuliyyətimi deməyi unutdum. Bu məşğuliyyətim də bədii kitablar mütaliə etmək idi. O zaman həyatımda ilk dəfə idi ki, bədii kitab oxuyurdum.  Bu ilkimi yaşadıqda son qənaətim “mən də belə kitablar yaza bilərəm” olmuşdu və oxuduğum kitablardan xeyli maraqlı məlumatlar əldə etmişdim.

***

Yaydan sonra yenə dərslər, yenə imtahan, yenə Arzu... Bunların üçü də canımı sıxır, üçündən də uzaq olmağa çalışır, amma ola bilmirdim. İkinci kursda oxuduğumda kirayə evi dəyişmişdim, Nərimanovda, kursdan dostum olan Əhmədlə birlikdə qalırdım. Burada kirayə evlər baha olduğundan bir mənzildə beş nəfər yaşayır, aylıq kirayəni beş nəfər arasında bölürdük. Beşliyə daxil olan digər kəslər Əhmədin tələbə yoldaşları idi. Əhməd vasitəsilə onlardan ikisi ilə dostlaşmışdım.

Biri ilə isə yola gedə bilmir, hey mübahisə edirdik. Bu evdəki söhbətimizin əksəriyyəti, demək olar ki, hamısı ancaq dinlə, Allahla bağlı idi. Ən çox da içəndən sonra bu mövzuda söhbətlər etməyə başlayırdıq. Mən Əhmədə Allahın varlığını anlatmağa çalışdıqda onun anladığını bilir, ancaq bununla razılaşmaq istəmədiyini anlayırdım. Axı Allah olsa, azadlığını itirəcək, istədiklərini ürək rahatlığı ilə edə bilməyəcəkdi. Axı Allah olsa, fahişələrlə cinsi münasibətə girə bilməyəcək, içki içə bilməyəcək və İncildə, Quranda qadağan olunan digər şeyləri edə bilməyəcəkdi. O, bəlkə də, varlığına inanmaq istəmədiyi Allaha hörmətdən belə edirdi. Biri var Allahın varlığına inanan və qadağan edilmiş şeyləri edənlər, biri də var Allahın varlığına inanmayıb qadağan edilmiş şeyləri edənlər. Belə baxdıqda ikincisi daha yaxşıdır. Çünki o, ən azından Allahın qadağan etdiyini bilə-bilə hörmətsizlik edib onu etmir. Amma birincisi isə Allahın var olduğunu anlayır, nəyi qadağan etdiyini bilir və buna məhəl qoymadan öz istədiyini edir. Mən Allah deyiləm, kimsənin ürəyindən keçəni oxuyum, niyyətini bilim, fərqli düşüncələr, fərqli niyyətlər ola bilər və mən hər düşüncəyə, hər niyyətə uyğun hər şeyi hər zaman tamamilə bilə bilməz, əhatə edə bilmərəm. Amma özüm şahid olduğum bir şey var – bu, Əhmədin oxuduğu elmi bir kitabdan Allahı tapması, qadağan olunmuş hər şeyə son verməsi və mənim çaşqınlığımda şübhələrimə aydınlıq gətirməsidir. Yenicə Arzu ilə barışıb sevgili olduğum, Əhmədin Allaha qayıtdığı bir vaxt ağlımda qaran-

lıq qalan, həmişə müzakirə etdiyimiz mövzuya aydınlıq gətirmək üçün o mənə belə bir sual verdi:

Arzunu niyə sevirsən?

Mən çaşqın halda:

Axı mənim münasibətimin bu mövzu ilə nə əlaqəsi, ay Əhməd? – dedim.

Əhməd gülümsəyərək səmimiyyətlə:

Əlaqəsi var, sən, sadəcə, suallarıma cavab ver, – dedi. Yenə soruşdu: – Hə, de görüm, niyə sevirsən?

Mən Arzunu niyə sevdiyimi bilərək:

Həm tərbiyəli, həm də gözəl olduğu üçün, – dedim.

Əhməd sanki elə bu cavabı gözləyirmiş kimi, nə tələsmədən, nə də gecikmədən:

O qədər tərbiyəli, həm də gözəl qız var, axı niyə onu sevirsən? – deyə bir az çaşdırıcı sual verdi.

Mən:

Burada nə var ki, mənim o xoşuma gəlir, onu sevirəm, – dedim.

Bu sözü dediyimdə cavabımda nəyinsə çatışmadığını hiss edirdim. Əhməd yenə səmimiyyətlə gülümsəyərək:

Elə mən də onu soruşuram, axı niyə o xoşuna gəlir? O qədər tərbiyəli, gözəl qız ola-ola?! – soruşdu.

Mən də axır təslim olub, bir az pərt olmuş halda:

Bilmirəm, – dedim.

Əhməd yenə də bu sözü gözləyirmiş kimi:

Hə, Kənan, bax bu bilmədiyin şey sənin taleyindir, sən ona bilmədən boyun əymisən, – dedi.

Mən:

Axı mən onun tərbiyəsini, gözəlliyini sevib, iradəmlə bunlara görə seçimimi etmişəm, – dedim.

Əhməd:

Özün də dediyin kimi, o bildiklərin sənin iradəndən, bilmədiklərinsə taleyindən asılıdır. Allahın yazısı var, biz isə ona bilmədən boyun əyirik, necə ki sən indi edirsən, – dedi.

Əhmədə həmin vaxt bəhanələr gətirib razılaşmasam da, sonradan mənə onun dedikləri aydın oldu və onunla razılaşdım.

***

İndi, dostum, sənin ağlındakı sual, yəqin ki, Arzu ilə necə, nə zaman sevgili olduğumuzdur. Buna sənin üçün, həm də öz istədiyim üçün aydınlıq gətirim.

İkinci kursun ortalarında Arzunun dostu, mənim də tələbə yoldaşım olan Nigar xanımla "WhatsApp"da yazışırdım. O mənə: "Salam, Kənan, necəsən? Sabah Bakı Dövlət Universitetində "sahibkarlıq fəaliyyəti" ilə bağlı hüquqi təlim olacaq, gəlmək istəyirsənmi?" – yazmışdı. Mən də hal-əhval tutduqdan sonra: "Hə, gələrəm, onsuz da bikarçılıqdı, bizdən başqa kimlər gələcək?" – yazmışdım. Nigar: "Bizim tələbələrdən bir mən, bir də Arzu" – yazıb cavabımı gözləmədən arxasınca: "Hə, bir də Arzunun qardaşı, keçən kurs sinemada tanış olduğumuz oğlan" – yazmışdı. Onun yazdığını oxuyanda sanki sinəmə nəsə sancdılar, bir əcaib hiss keçirib, ağlımda yaranan şübhəyə aydınlıq gətirmək üçün tələsik: "Nə vaxt? Hansı oğlan?" – yazdım. Sonrakı yazışmalarımızda hər şey mənə aydın olmuşdu. Sən demə, birinci kursun axırlarında Arzu ilə qol-qola girib bizə sarı gələn oğlan Arzunun özbəöz qardaşı imiş. Bunu anladıqda həm

çox sevinir, həm də çox təəssüflənirdim. Sən demə, bir ilə yaxın mən boş-boşuna vaxt itirir, xəyaliliklə özümə əzab verir, Arzunun sevgilisi olduğunu düşünürdüm. Onunla bağlı xatirələri unutmaq üçün hər iyrəncliklərə əl atır, min bir oyundan çıxırdım. Necə axmaq olduğumu, hər şeyi anlamadan, bilmədən qərar verdiyimi düşünürdüm. Bu yazışma ilə yaxın keçmişdə baş verənləri heç olmamış kimi unudub yeni hisslər yaşamağa başladım. Birinci kursda sinemaya getməzdən əvvəlki hisslərim yenə qəlbimdə canlandı. Arzuya qarşı olan saf məhəbbət hissi bir daha qəlbimdə közərib şiddətlə alovlandı. Sabahı gün hazırlaşıb Nigarın dediyi yerdə onlarla görüşüb, getdik Bakı Dövlət Universitetinə. Sinemada eybəcər görünən, qoyuna bənzətdiyim, nifrət etdiyim o oğlan indi yaraşıqlı, alicənab, mehriban bir oğlan kimi görünürdü gözlərimə. Bir il ərzində Arzu ilə olan soyuq münasibətimdən sonra ona bu dəfəki səmimi yanaşmam onu çox sevindirmişdi. Əlbəttə ki, buna mən də çox sevinirdim.

# Sevgi

Nigarın mesajları günəş tək doğub qaranlıqları aydınlaşdırdıqda qərar vermişdim ki, daha vaxt itirmədən, heç nədən, kimsədən çəkinmədən Arzuya sevdiyimi söyləyəcəyəm. Elə bu qəti qərarımla Akademiyada olduğumuz bir vaxt ona yaxınlaşıb bir neçə dəqiqəsini mənə ayırmasını söylədim. O da məni qırmayıb bir neçə dəqiqəsini mənimlə bölüşdü. Arzuyla bir kənara çəkilib, həyəcanlı olmasam da, onunla əyləndiyimi düşünməsin deyə özümü həyəcanlı göstərərək qəlbimdə hayqıran sözləri dilimə gətirdim:

– Arzu, bunu sənə necə deyəcəyimi bilmirəm, amma demək istəyirəm, özü də haçandır, deyəcəyim sözü səmimi qarşılamağını, bir anda qərar verməməyini istəyirəm. – O mən danışdıqca dediklərimi başı ilə təsdiqləyirdi, sanıram, nə deyəcəyimi anlamışdı. – Sözü necə başlayım bilmirəm, e... necə oldu başlayıram, amma məni səmimi qarşıla, – deyib, – səndən xoşum gəlir, – deyə əlavə etdim.

Mən sözümü bitirdikdə Arzu utanaraq mənə baxıb astadan:

– Hə, ola bilər, başqa sözün yoxdursa, gedirəm, – dedi.

Mən fikrimi ona tam açmadığımı düşünüb:

– Yəni, Arzu, demək istəyirəm ki, mən həyatımı səninlə bölüşmək istəyirəm, ömür boyu səninlə birlikdə

yaşamaq istəyirəm, sən də həyatını mənimlə paylaşarsanmı? Amma xahiş edirəm, indi cavab vermə, düşün, sonra cavab verərsən, – dedim, çünki onu çox sevir, onunla bir ömür yaşamaq istəyirdim və mənə "yox" deməsini istəmirdim.

Mən sözümü bitirdikdə o qızararaq:

– Yaxşı, – deyib yanımdan ayrıldı.

Bundan sonra daha da çox əzab çəkməyə başladım, onun cavabını səbirsizliklə gözlədim. İki-üç gün sonra o mənə cavab verdi: "Yox!" O bunu mesaj yazıb yollamışdı. Mesajı oxuduqda gözlərim dolmuş, qıpqırmızı olmuş, sarsılmış halda idim. Bilmirdim nə edim, o mənə yox demişdi. Həyatını mənimlə bölüşmək istəmirdi. "Onun üçün boşunamı sevinib kədərlənirdim? Onu boşunamı bu qədər vaxt düşünürdüm? Yox-yox, belə qurtara bilməz, mən onu sevirəm, o mənim qadınım olmalıdır, mənim müqəddəsim olmalıdır" – deyə düşünərək Arzuya olan eşq hissimi daha da alovlandırdım. Şıltaq uşaqlar kimi dediyimdən dönməyib ağılsız məqsədimin üstünə getdim, amma onu incidəcək, narahat edəcək şeylər də etmədim. Ondan uzaqlaşmadım, daha doğrusu, uzaqlaşa bilmədim. Hardasa iki ay arxasınca süründüm. Bəlkə yanlış eləyirdim, amma mənə elə gəlmirdi. Qəlbimin tutduğu əməlləri ağılsız başla doğru elədiyimi düşünürdüm. Həm ağlımda bir şey də var idi ki, bəlkə də mənim dediklərim ona inandırıcı gəlməyib? Onu aldatdığımı düşünür? Həm də bütün səfeh aşiqlər kimi onun da məni sevdiyini düşündüyümdən, hətta hiss etdiyimdən ondan uzaqlaşa bilmədim. İki ay süründükdən sonra,

axır ki, onun qəlbinə girməyi bacardım, Arzuma yetdim. O, həyatına girməyimdən çox məmnun olmuş, ona yetmək üçün etdiyim fədakarlıqdan sevinmişdi. Bundan sonrakı həyatını mənimlə bölüşmək istəyir, məni itirmək istəmirdi və məni itirməkdən qorxurdu. O bu sözləri özü mənə demişdi. Arzu ilə qovuşduğumda onu uzun zamandır sevdiyimi, ona bir ildir niyə bunu demədiyimi, niyə uzaq durduğumu, soyuq davrandığımı danışıb aydınlaşdırdım. Mən baxan pəncərədən hər şeyin görsənmədiyi ona aydın olduqda, mənim davranışlarımın səbəbini duyduqda ürəkdən gülmüş, qardaşının sinemaya niyə gəldiyindən danışmışdı. Sən demə, "Youtube" olmasaydı, mən bir il öncədən Arzu ilə sevgili ola bilərmişəm. Çünki sinemada izləyəcəyimiz filmi Arzu müəllimdən soruşmuş, evə döndükdə film söhbətini qardaşına danışmış, qardaşı da "Youtube"dan filmin fraqmentini izləyib bəyənibmiş deyə, sinemaya gəlmək fikrinə düşübmüş. Sən demə, sinemaya su almaq bəhanəsilə girməsəymişəm, qol-qola girib gəldiyi qardaşını tələbə yoldaşları ilə tanış etdiyində də boşuna kədərləndiyimi, 13 rəqəminin uğursuzluğunun mifik olduğunu anlayacaqmışam. Amma olan olub, keçən keçib, ən azından ona sevinirəm ki, yaxşı ki, Arzunun qardaşı da hüquqda oxuyur, bu səbəbdən də getdiyimiz hüquqla bağlı təlim onun marağını cəlb etmiş və təlimdə iştirak etmişdi. Yoxsa mənim üçün həyat hələ də Arzusuz davam edəcəkdi. Yetdiyim arzumla birlikdə xoş günlərim yenidən başladı, su pəriləri göz yaşlarını silib endorfin dənizinə dalaraq xoşbəxtlər ölkəsinə get-

di. Akademiyada olduğum bütün vaxtı Arzu ilə birlikdə olur, bir parta arxasında əyləşir, yeməyə birlikdə bufetə qalxır, birlikdə dərs çalışırdıq. Arzu ilə yalnız Akademiyadan evə getdikdə yollarımız ayrılırdı, bu isə məni təəssüfləndirirdi, onunla bütün yolboyu birlikdə getmək istəyirdim. Akademiyaya Arzu ilə birlikdə gedib-gəlim deyə, yarı yolda ondan ayrılıb başqa istiqamətə getməyim deyə, Arzunun ailəsinin yaşadığı Qəsəbədə, onların evinə yaxın bir ərazidə kirayə ev axtardım, ev alqı-satqısı ilə məşğul olan şəxslərə kirayə ev axtardığımı dedikdə 30 manat haqq tələb etdiklərinə görə bir müddət divardakı elanlara zəng vurub maraqlandım. Qaraçuxurdakı işıq dirəklərinə, dayanacaqlara vurulmuş elanlardakı nömrələrə zəng etdiyimdə şəhərin digər rayonlarındakı kirayə ev sahibləri ilə danışdığımı, boşuna vaxt itirdiyimi görüb, əlacsız 30 manatımdan keçərək maklerin siyahısındakı kirayə üçün verilən evlərdən birini kirayələdim. Bu kirayə ev Qaraçuxur qəsəbəsində yerləşən "Otaq yoldaşım Pinti" əsərini qələmə aldığım, Pinti ilə yaşadığım həmin evdi. Danışıb-dinməz, daim yatmaqla məşğul olan, indi də cansız bədəni ilə yataqda uzanıb qalmış otaq yoldaşım Pinti ilə tanışlığım Arzu ilə bağlıdır. Dərslərə Arzu ilə birlikdə gedib-gəlmək üçün köçdüyüm, bu əsəri qələmə aldığım kirayə evdə ürəyimin sıxıldığını, zamanımı təklikdə keçirməkdən yorulduğumu anlamış Arzu məni təklik sıxıntısından qurtarmaq istəyirdi. Fevralın ortalarında əsli Antarktidadan olan, Çindən Azərbaycana gəlmiş bu otaq yoldaşım ilə Arzu Bakıda, hədiyyə dü-

kanlarının birində tanış olmuş, məni təklik sıxıntısından qurtarmaq niyyəti ilə dükan satıcısına Pintinin pulunu ödəyib fevralın 14-ü Sevgililər günü ona hədiyyə verdiyim zaman mənimlə tanış etmişdi. Ağ köynək, qara pencək geyinmiş xor rəhbərinə bənzəyən balaca otaq yoldaşımla birlikdə aprelin ortalarında qərar verdik ki, dostluğumuz münasibətilə bir əsər yazaq, doğrusu, o danışmasa da, onun mənimlə razılaşacağına əminəm. O dilsiz-ağızsız xor rəhbəri mənim ilham mənbəyimdir. Pinti səni çox sevir, Dostum.

*Bakı şəhəri, 2016*